


***"Dövlət Statistika Komitəsi***

***əsas orqanlardan biridir"***

***Heydər Əliyev***

# Mündəricat


səh.

**İQTİSADİ-STATİSTİK TƏDQİQATLAR**

***İrşad Kərimli, Şamil Əzizov, Rauf Səfərov***
Qarabağ regionunun sənaye istehsalının potensial imkanları: dövlət və özəl investisiya yatırımlarına yeni tələblər.......... 5

***Rza Allahverdiyev, Səadət Rəhimova***
Demoqrafik göstəricilərin statistik tədqiqi.......... 12

***Jalə Dadaşova***
Azərbaycanın idxaldan asılılığının azaldılması və iqtisadi təhlükəsizliyinin təmini.......... 19

***Aynurə İsmayılova***
İxracın diversifikasiyasının nəzəri məsələlərinə dair.......... 25

***Afət Süleymanova***
Məlumatların məxfiliyinin mütəxəssislərin rəylərinə əsasən hərtərəfli qiymətləndirilməsi.......... 32

***Sevda Həsənova***
Regionlarda məşğulluq probleminin yaranmasına səbəb olan sosial-iqtisadi amillər.......... 40

***Jalə Abbaszadə***
Azərbaycanda gəlir bölgüsünün ədalətli həyata keçirilməsi üçün vergi alətindən istifadə və beynəlxalq təcrübə.......... 47

**METODOLOGİYA**

***Yusif Yusifov, Vüqar Məmmədəlizadə***
Rəsmi statistikada keyfiyyətin idarə edilməsinin səmərəli alətləri.......... 53

***Рауф Салаев***
Проблемы налогообложении в образовательных учреждениях Азербайджана.......... 60

***Elnurə Hüseynova***
Əmək resurslarının beynəlxalq mobilliyinin sosial-iqtisadi inkişafa təsiri.......... 70

***Rəşad Hacıyev***
Azərbaycan Respublikasında valyuta kurslarının tənzimlənməsi problemləri.......... 78

**2021-ci İLİN I RÜBÜNÜN YEKUNU ÜZRƏ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR GÖSTƏRİCİLƏR**

Makroiqtisadi göstəricilər.......... 86
Ümumi Daxili Məhsul istehsalı.......... 88
Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər.......... 88
İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri.......... 89
Pərakəndə ticarət dövriyyəsinin məhsullar üzrə strukturu.......... 90
İqtisadiyyata kredit qoyuluşu.......... 90
Dövlət büdcəsinin gəlirləri.......... 90
Dövlət büdcəsinin xərcləri.......... 91
Nəqliyyat sektorunda yük dövriyyəsi.......... 91
Nəqliyyat sektorunda sərnişin dövriyyəsi.......... 92
Azərbaycanın tərəfdaş ölkələrlə xarici ticarət göstəriciləri.......... 92
İxrac olunan mühüm növ məhsullar.......... 93
İdxal olunan mühüm növ məhsullar.......... 94

**AZƏRBAYCANIN STATİSTİKA TARİXİ SƏHİFƏLƏRİNDƏN**

Şahbala Aqqırax oğlu Məmmədov (anadan olmasının 85 illiyinə).......... 95
Məqalələrin təqdimolunma qaydaları.......... 97

UOT: 332.122
DOI:

# QARABAĞ REGİONUNUN SƏNAYE İSTEHSALININ POTENSİAL İMKANLARI: DÖVLƏT VƏ ÖZƏL İNVESTİSİYA YATIRIMLARINA YENİ TƏLƏBLƏR

***İrşad Kərimli***
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*Beynəlxalq iqtisadiyyat kafedrasının müdiri, i.e.d., professor*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: irshad.karimli@unec.edu.az*

***Şamil Əzizov***
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*Beynəlxalq iqtisadiyyat kafedrasının doktorantı*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: azizov_shamil@yahoo.com*

***Rauf Səfərov***
*Azərbaycan Kooperasiya Universitetinin*
*Beynəlxalq ticarət və logistika kafedrasının doktorantı*
*AZ 1106, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 93*
*e-poçt: safarov_rauf@hotmail.com*

**Açar sözlər:** xarici investisiyalar, daxili investisiyalar, dövlət investisiyaları, özəl investisiyalar, birgə yatırımlar, iqtisadi tənzimlənmə, işğaldan azad olunmuş ərazilər, iqtisadi bərpa, iqtisadi quruculuq.
**Ключевые слова:** иностранные инвестиции, внутренние инвестиции, государственные инвестиции, частные инвестиции, совместные инвестиции, экономическое регулирование, освобожденные территории, восстановление экономики, экономическое строительство.
**Keywords:** foreign investment, domestic investment, public investment, private investment, joint investments, economic regulation, liberated territories, economic recovery, economic construction.

Qarabağ regionunun dağlıq və düzən hissəsinə birgə ərazi kimi baxsaq, hər iki hissənin ayrılmaz olduğunu və bütöv Azərbaycan ərazisinin vahid bir iqtisadi sistem kimi birləşməsini görə bilərik. Ərazidə yüngül sənayenin, tekstil, toxuculuq və əyirici fabriklərin; qida sənayesinin süd kombinatlarının, çörək-bulka, qənnadı-şirniyyat fabriklərinin bərpası diqqət mərkəzində saxlanılır. Nəzərə alsaq ki, Qarabağın ərazisində yerləşən emal müəssisələrinin demək olar ki, hamısı Azərbaycanın digər ərazilərindən gətirilən yanacaq, xammal və materiallar əsasında öz fəaliyyətini qurmaqla ölkənin vahid bir iqtisadi sisteminin tərkib hissəsi kimi formalaşmışdı.

Qarabağın Xankəndindəki ipək kombinatının istehsal prosesinə daxil olan xammal-materiallarının yalnız 8,0%-i Dağlıq Qarabağın ərazisində istehsal olunurdusa, qalan 92,0% isə Azərbaycanın digər ərazilərindən gətirilirdi. Diqqətəlayiq cəhət odur ki, erməni işğalından əvvəl Dağlıq Qarabağın xarici ticarət əlaqələrinin 0,3%-i, idxalının isə 14,0%-i, Ermənistanın payına düşdüyü halda, Azərbaycana onun ixracatının 33,3%-i düşürdü [6]. Emal sənaye müəssisələrinin istehsal güclərinin əksəriyyəti ilkin və aralıq məhsullar hesabına komplektləşirdi. Fikrimizcə, Qarabağ regionunun iqtisadi bərpası prosesində tarixən formalaşmış ərazi əmək bölgüsünün elmi prinsiplərinə uyğunlaşdırılmalı və bununla da, bütöv Azərbaycan ərazisi kompleks iqtisadi inkişaf proqramı çərçivəsinə salınmalıdır.

**İşğaldan azad olunmuş ərazilərin bərpası: üçtərəfli investisiya qoyuluşlarının qarşılıqlı əlaqələndirilməsinə təminat.** Bütünlükdə Azərbaycanın emal sənayesi və kənd təsərrüfatının prioritet sahələrinin dayanıqlı iqtisadi artımını təmin etməklə yanaşı, işğaldan azad olunmuş

ərazilərin sürətlə iqtisadi bərpası üçün xarici investisiyalarla Azərbaycanın daxili investisiyalarının, daha çox isə ölkənin özünün daxilində dövlət investisiyaları ilə özəl investisiyaların "akkumulyasiyası" təmin edilməli və bununla da həmin istiqamətin sonuncu iki cəhətinə üstünlük verilməlidir. Nəticədə, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə yatırılacaq genişmiqyaslı və irihəcmli investisiya layihələrinin reallaşmasına şərait yaradıla bilər. Belə təcrübənin bir çox cəhətləri region daxili separatçılıq siyasətinin ağır nəticələri ilə qarşılaşmış Bosniya, Hersoqovina, Xorvatiya kimi ölkələrin dağıdılan ərazilərinin bərpasından sonra sürətlə inkişaf edən Balkan ölkələrində müşahidə edilmiş və özünün müsbət nəticələrini vermişdir. Ümumilikdə, xarici investisiyalarla daxili investisiyaların, ayrılıqda isə ölkə daxilində dövlət investisiyaları ilə özəl investisiyaların "akkumulyasiya" olunmaqla iqtisadi artımın daha fəal amili düzgün investisiya siyasəti və toplanılan investisiya resurslarının daha vacib sahələr və yarımsahələr arasında düzgün bölgüsüdür. Təsadüfi deyildir ki, işğaldan azad olmuş Azərbaycanın ərazilərinin bərpası üçün işğalçı Ermənistan dövlətindən kompensasiya almaqla yanaşı, ölkənin valyuta ehtiyatlarının dövlət tərəfindən Qarabağ ərazisinin bərpasına yönəldilməsinin başlıca istiqaməti olmaqla dövlət büdcəsinin investisiya yönümü və bu yönümdə investisiya xərcləri diqqəti daha çox cəlb etməlidir [6].

Azərbaycanın işğal olunmuş ərazilərinin ayrılıqda bərpası, bütünlükdə isə ölkənin qeyri-neft sektorunun prioritet sahələrinin davamlı inkişafına təsir göstərən başlıca istiqamətlərdən biri olmaqla özəl investisiyalarla dövlət investisiyaları arasında iqtisadi rəqabətə geniş meydan verməklə qeyd edilən sahələrə xarici və daxili investisiyaların birgə yatırılmasının səmərəliliyini artırmaqdır. Son illərdə Azərbaycan iqtisadiyyatı üçün xarakterik olan həmin istiqamətlər imkan verir ki, ölkənin işğaldan azad olunmuş ərazilərinin iqtisadi bərpasına, xüsusən onun infrastrukturuna irihəcmli investisiyalar yatırılsın, bununla da regionda nəinki yolların çəkilişi, habelə qaz, elektrik enerjisi, su təchizatı kimi xidmətlər göstərilməsi imkanları yaradılsın.

**Qarabağ regionunda başlıca infrastruktur sahələrin qurulmasının daxili imkanları**

Qarabağ regionu özünün daxili imkanları hesabına ərazisini elektrik enerjisi ilə təmin etmək məsələsini həll edə bilər. Belə ki, regionun əsas elektrik enerjisi istehsalı üçün iki böyük təbii və potensial su yığımı hövzəsi olan Sərsəng və Xudafərin Su Elektrik Stansiyalarının (SES) potensial imkanları reallaşdırıla bilər. Son illərdə Tərtər SES kimi tanınan Sərsəng SES-i Tərtər rayonunun ərazisindən keçən Tərtərçay üzərində inşa edilmiş su elektrik stansiyasıdır. Bu stansiya iki turbindən ibarət olmaqla hər biri 25 MW gücündədir ki, bunların da hazırda əsaslı bərpaya ehtiyacı vardır. Fikrimizcə, təmir-bərpa işləri müasir tələblər səviyyəsində aparılmaqla turbinlərin texniki-texnoloji parametrləri yeniləşdirilərsə, həmin halda enerji istehsalı gücü daha da artırıla bilər və bununla da ətraf rayonların elektrik enerjisinə olan ehtiyacı ödənilə bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, Qarabağ regionunun elektrik enerjisi ilə təminatında Xudafərin SES-in də potensial imkanlarının reallaşmasının əhəmiyyətini nəzərə almaq düzgün olardı. Araz çayı üzərində İranla Azərbaycan sərhəddində yerləşəcək Xudafərin SES-i İranla Azərbaycan arasında imzalanmış razılaşmaya uyğun olaraq inşa edilir. Tikilməkdə olan hidroqovşaq su anbarının həcmi 1,6 milyard $m^3$ su tutumu olmaqla 4 elektrik stansiyasından ibarət olacaq. "Xudafərin" ilə paralel Naxçıvan ərazisində tikilən "Qız Qalası" su anbarı tənzimləyici funksiyasını yerinə yetirməklə günlük su buraxma qabiliyyəti 60 milyon $m^3$-dir. "Xudafərin" və "Qız Qalası" adlanan iki hidroqovşaq əsasında su elektrik stansiyasının inşasının davam etdirilməsi və yaxın illərdə istismara verilməsi hər iki ölkənin sərhədyanı ərazilərinin, xüsusən Azərbaycanın Qarabağ regionunun energetika və su ehtiyatlarından istifadə sahəsində təminatına xüsusi töhfə verəcəkdir. İlkin hesablamalara görə, Araz çayı üzərində tikiləcək iki hidroqovşaq əsasında yaradılacaq elektrik stansiyalarının ümumi gücü 280 meqavata çata bilər. Belə enerji layihəsinin həyata keçirilməsi ölkəmiz üçün hər il 370 milyon kVt saat elektrik enerjisi istehsalı deməkdir.

Azərbaycan ərazisinin, onun ayrılmaz Qarabağ regionunun coğrafi mövqeyi, xüsusən yağıntının az olması, ərazisinin şirin su ilə təminatı qonşu ölkələrin dağ silsiləsindən öz mənbələrini götürən və həmin ölkələrin ərazisindən axıb gələrək ərazimizdən keçən çaylar hesabına baş verir. Bu mənada istər sənaye və kənd təsərrüfatı və istərsə də mülki təyinatlı içməli su təminatı və sudan səmərəli istifadə Azərbaycan üçün daim diqqət mərkəzində saxlanılan məsələ hesab olunmalıdır. Bu

mənada Azərbaycan ölkə başçısının 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılan Dövlət Komissiyasının operativ fəaliyyəti tədricən öz nəticəsini verməkdədir.

Qeyd edilən istiqamət işğaldan azad olunan ərazilərin bərpası üçün, həmin ərazilərdə sənaye və kənd təsərrüfatının canlandırılması və inkişafı üçün, eyni zamanda regionda məskunlaşacaq yerli əhalinin yaşayış və məişət ehtiyaclarının təminatı üçün də öz müsbət nəticəsini verməlidir. Məlumat üçün bildirək ki, yuxarıda qeyd etdiyimiz Tərtər çayı üzərində bərpa ediləcək Sərsəng su anbarının (hazırda Tərtər rayonunun ərazisində yerləşir) ümumi su tutumu 560 milyon $m^3$ olmaqla, bəndin hündürlüyü 126 m-dir [8].

Tərtər rayonu ilə yanaşı, Sərsəng su anbarının da daxil olduğu bütün Ağdərə ərazisinin işğaldan tam azad olunması Azərbaycanın digər: Ağdam, Bərdə, Goranboy, Yevlax, Ağcabədi kimi 6 rayonunda 100 min hektardan çox torpaq sahəsinin suvarma suyu ilə təmin etməyə imkan yaradacaqdır. Eyni zamanda işğaldan azad olunmuş ərazidə Sərsəng su anbarından başqa, tutumu 80 min $m^3$ olan yeni su anbarının qurulmasına ehtiyac yaranacaqdır ki, bu mənbədən istifadə edilərsə, əlavə 15 min hektar torpaq sahəsini suvarmaq imkanı yarana bilər.

Nəzərə almalıyıq ki, Xudafərin su anbarı yalnız elektrik enerjisi istehsalının potensial mənbəyi kimi deyil, eyni zamanda Cəbrayıl, Zəngilan ərazisində 75 min hektar yararlı torpaq sahəsinin suvarılması deməkdir. Bu su anbarının həcmi təqribən 16 milyard $m^3$ olması gözlənilir [6].

Yuxarıda qeyd edilənləri ümumiləşdirməklə belə bir nəticəyə gəlmək olar ki, işğaldan azad olunan ərazilərdə həm istehsal və həm də mülki təyinatlı məişət-kommunal xidmətləri özünün bütün növləri üzrə həllini sürətlə tapması üçün bərpa və yenidənqurma işlərinin aparılmasına ilkin olaraq əsas təkan kimi dövlət sektoru, onun investisiya vəsaitləri cəlb edilməlidir. Tədricən bərpa və yenidənqurma işlərinin canlanması və məskunlaşma prosesinin öz axarına düşməsi ilə özəl sektorun uyğun sahələrinin məişət-kommunal xidmətlərin daha da canlandırılmasına maliyyə və təşkilatçılıq dəstəyi göstərmələrinə üstünlük verilə bilər.

Qeyd edilən istiqamət bərpa olunan ərazilərin tədricən ölkənin digər ərazilərini məişət-kommunal sisteminə qoşulmaqla ölkə üzrə vahid xidmət sektorunun formalaşması və bu sektorda özəl sahələrin fəaliyyətinin canlanması, xidmətlərin kəmiyyət tərəfindən keyfiyyət tərəfinə sürətli keçidi formalaşa bilər. Belə formalaşma prosesi sözsüz ki, ərazidə dövlət sektorunun yükünün, xüsusən onun fiskal yükünün azaldılmasına böyük kömək edə bilər.

İşğaldan azad edilmiş Qarabağ ərazisinin mövcud reallığı belədir ki, təhlükəsizliyin təminatı ilə əlaqədar ərazinin minalardan və digər partlayıcı hərbi sursatlardan tam təmizlənməsi prosesi davam etdirilir. Xankəndi, Xocavənd, Hadrutun kənd və qəsəbələrində erməni və Azərbaycan icmalarının birgə yaşayışının təmin edilməsi şəraiti hazırlanır. Hər üç inzibati ərazi ermənilər tərəfindən dağıdılmadığı üçün yaşayışın minimum şərtləri saxlanıldığından həmin ərazilərdə daha çox quruculuq işlərinin aparılmasına ilkin ehtiyac yaranmayacaqdır.

**Azərbaycan iqtisadiyyatında mövcud reallıq və böyük həcmdə maliyyə resurslarına tələbatın yaranması.** Azərbaycan iqtisadiyyatının mövcud reallığı, ilk növbədə, 30 il ərzində işğal altında olan torpaqlarımızın azad olması ilə əlaqədar bərpa və quruculuq işlərinə başlamaq, COVID-19 pandemiyanın vurduğu ziyanı aradan qaldırmaq külli-miqdarda maddi maliyyə vəsaitləri tələb edir. Bu vəsaitlərin əldə oluna bilməsi mənbələri çox olsa da, (bu barədə araşdırma aparılıb) hər halda xarici və daxili investisiyalardan istifadə etmək imkanları daha tez reallaşa bilər.

Son illərin statistikasına fikir verdikdə aydın olur ki, 2005-2018-ci illər ərzində Azərbaycan iqtisadiyyatında investisiya aktivliyi özünü göstərmiş, həmin dövr ərzində iqtisadiyyata 226,2 milyard manatdan çox investisiya yatırılmışdır. Bunun 55%-i daxili, 45%-i isə xarici investisiyalar hesabına baş vermişdir. Ölkənin ÜDM-də ümumi investisiyaların payı 37,0% olduğu halda, bütünlükdə qeyri-neft sektoruna yatırılmış investisiyalar qeyri-neft ÜDM-də payı 51,0% olmuşdur. Təhlil edilən dövr ərzində daha çox investisiya aktivliyi, əsasən, ölkənin yüksək neft gəlirləri hesabına olmuşdur. Belə ki, həmin illərdə Azərbaycanın Dövlət Neft Fonduna 90 milyard ABŞ dolları məbləğində vəsait köçürülmüş, həmin vəsaitin 61 milyard ABŞ dolları Azərbaycanın milli iqtisadiyyatının inkişafına investisiya formasında yatırılmışdır. Yatırılan investisiyaların 92,0%-i

dövlət büdcəsinə Dövlət Neft Fondundan edilən transferlər hesabına baş vermiş, 8,0%-i isə dövlətin strateji sahələrinin inkişafı üçün investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilmişdir [1].

Bu istiqamət fikrimizcə, növbəti illərdə də həmin nisbət az və ya çox dərəcədə saxlanılacaq, Azərbaycanın işğaldan azad olunan əraziləri də daxil olmaqla ölkənin bütöv milli iqtisadiyyatına yatırılacaq daxili investisiyaların tərkibində dövlət investisiyalarının xüsusi çəkisi öz üstünlüyünü saxlayacaqdır. Belə ki, 2021-ci ilin büdcə layihəsində tikinti və şəhərsalma büdcəsi işğaldan azad olunmuş ərazilərin bərpasına və yenidən qurulmasına ayrılmış vəsait hesabına 2020-ci ilə nisbətən artırılmışdır. Əgər 2020-ci ildə ölkənin bütün ərazisinə yatırılan investisiya xərcləri 4,9 milyard manat olmuşdursa, 2021-ci ildə yalnız işğaldan azad olunmuş ərazilər üçün 2,2 milyard manat investisiya vəsaiti ayrılıb [4]. Bu məbləğ kifayətləndirici olmasa da, bütün hallarda dövlət büdcə vəsaitlərinə əlavə olaraq xarici investisiya vəsaitləri, Azərbaycanın özəl sektorunun investisiya vəsaitlərini cəlb etməklə işğaldan azad olunmuş ərazilərin bərpasına ayrılacaq investisiya xərclərini 6-7 milyard manata qaldırmaq mümkün olacaqdır.

İstər yaxın və istərsə də uzaq xarici ölkələrlə müqayisədə Azərbaycan iqtisadiyyatında dövlət və özəl investisiya qoyuluşlarının xüsusi çəkisinin mövcud vəziyyətini aşağıda göstərilən diaqramdan görmək olar (şəkil 1).

| **Ölkələr** | **İnvestisiyaların ÜDM-də xüsusi çəkisi** | |
|---|---|---|
| | Özəl | Dövlət |
| **Türkmənistan** | 23,0% | 77,0% |
| **Belarus** | 94,0% | 0,6% |
| **Livan** | 90,0 % | 10,0% |
| **İran** | 62,8% | 38,0% |
| **Rumıniya** | 80,0% | 20,0% |
| **Gürcüstan** | 85,0% | 15,0% |
| **Azərbaycan** | 34,5% | 65,5% |
| **Rusiya** | 88,0% | 12,0% |
| **Qazaxıstan** | 77,.0% | 23,0% |
| **Türkiyə** | 79,0% | 21,0% |

Şəkil 1. 2010-2019-cu illər ərzində yaxın və uzaq xarici ölkələrin bəziləri ilə müqayisədə Azərbaycanın ÜDM-də dövlət və özəl investisiyaların xüsusi çəkisi

Şəkildən göründüyü kimi, 2010-2019-cu illər üzrə ayrı-ayrı ölkələrin ÜDM-də özəl və dövlət investisiyalarının xüsusi çəkisi müxtəlif olmuşdur. Ölkənin ÜDM-də özəl investisiyalar daha çox Belarusda 94,0%, Livanda 90,0%, Gürcüstanda 85,0%, Rumıniyada 80,0%, Rusiyada 88,0% təşkil etmişdir. Azərbaycanın şəkildəki vəziyyətinə fikir verdikdə görmək olar ki, ölkənin ÜDM-nin istehsalında xüsusi əhəmiyyət kəsb edən əsas kapitalın daxili investisiyalarda özəl investisiyaların xüsusi çəkisi 34,5%, dövlət investisiyalarının xüsusi çəkisi isə 65,5% təşkil edir. Bu göstərici digər ölkələrin göstəriciləri ilə müqayisədə hələ ki çox aşağıdır.

2019-cu ilin ilk günlərindən başlayaraq özünü daha qabarıq şəkildə göstərən COVID-19 pandemiyası Azərbaycan iqtisadiyyatına xarici investisiyaların, xüsusən birbaşa xarici investisiyaların yönəldilməsi ümumi investisiyaların tərkibində xüsusi çəkisi dəyişməz qalmış, ölkənin daxili investisiya fəallığının artması nəticəsində sonuncunun xüsusi çəkisinin tədricən artması meyli müşahidə olunmaqdadır. Bunun əsas səbəbi dövlət maliyyəsi hesabına daxili investisiya yatırımlarının çoxalmasıdır. Əgər yaxın və uzaq xarici ölkələrlə müqayisədə Azərbaycan iqtisadiyyatına, onun qeyri-neft sektoruna yatırılan birbaşa xarici investisiyaların ölkənin ÜDM-də xüsusi çəkisinə fikir verdikdə görərik ki, birbaşa xarici investisiyalar hesabına formalaşan əsas kapitalın ÜDM-də xüsusi çəkisi orta dünya göstəricisindən aşağıdır. Yəni 2015-ci ildə həmin göstərici Azərbaycanda 25-26% təşkil etdiyi halda, Qazaxıstanda 61,0%, Gürcüstanda 74,0%, Türkmənistanda 55,0%, Ukraynada 49,0%, Qırğızıstanda 48,0%, Moldovada 46,0% olmuşdur [1].

2007-2017-ci illərdə Azərbaycan iqtisadiyyatına yatırılan birbaşa xarici investisiyaların məbləği 59,1 milyard ABŞ dolları həcmində olmuşdur ki, bu məbləğin 82,4%-i neft sektoruna,

17,6%-i isə qeyri-neft sektoruna yatırılmışdır. Qeyd edilən dövr ərzində ölkənin qeyri-neft sektoruna yatırılan birbaşa xarici investisiyaların xüsusi çəkisinin aşağı olması heç də qeyri-neft sektoruna yatırılan investisiyaların artım sürətinin də aşağı olması demək deyildir. Əksinə son illərdə qeyri-neft sektoru sahələrində tikinti-quraşdırma işlərinə, əsas kapitalın daha fəal və çevik ünsürlərinin, xüsusən daha müasir və innovativ texnikanın və texnoloji proseslərin yaradılmasına yönəldilən vəsaitlərin artım sürəti daha yüksək templə irəliləmiş və indi də irəliləməkdədir. 2007-2017-ci illərdə Azərbaycan iqtisadiyyatına yatırılan birbaşa xarici investisiyaların ortaillik artımı 4,1% olduğu halda, qeyri-neft sektorunda həmin artım 14,1% olmuşdur. Mövcud reallıq belədir ki, Azərbaycanın qeyri-neft sektoruna yatırılan birbaşa xarici investisiyaların (BXİ) artım sürəti yüksək olsa da, bütün hallarda ölkənin qeyri-neft sektoru sahələrinin inkişaf potensialından hələ ki, tam istifadə olunmur. Çünki yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sektorları üzrə birbaşa xarici investisiya yatırılmasında da böyük xüsusi çəkiyə neft-qaz sektoru (82,4%) malikdir. Bunu birbaşa xarici investisiyaların ÜDM-də xüsusi çəkisini aşağıdakı ölkələr üzrə şəkildə göstərilən göstəricilərdən daha aydın görmək olar (şəkil 2).

| | |
|---|---|
| Yunanıstan | 75,0% |
| Qazaxıstan | 62,5% |
| Türkmənistan | 56,0% |
| Ukrayna | 50,0% |
| Qırğızıstan | 49,0% |
| Moldova | 46,0% |
| Azərbaycan[1] | 12,3% |
| Belarus | 23,5% |
| Türkiyə | 23,0% |
| Rusiya | 21,0% |
| Tacikistan | 20,0% |
| Özbəkistan | 15,0% |
| İran | 12,0% |

Şəkil 2. Ayrı-ayrı ölkələrin ÜDM-də birbaşa xarici investisiyaların xüsusi çəkisi (2017-ci ildə ölkənin əsas kapitalına yatırılmış BXİ-nin ÜDM-də payı)

Nəzərə almaq olduqca vacibdir ki, Azərbaycanın qeyri-neft sektoruna cəlb edilən birbaşa xarici investisiyaların fəallığı və bu fəallığı şərtləndirən amillərin mövcud vəziyyəti operativ təhlil edilməli və düzgün qiymətləndirilməlidir. İnvestisiya fəallığının təhlili və qiymətləndirilməsində əsas tələblərdən biri yatırılacaq investisiyaların səmərəliliyini şərtləndirən onun məhsuldarlığının artırılmasıdır. Təəssüflə deyək ki, son onillikdə həmin məhsuldarlıq aşağı düşmüşdür. Belə ki, 2006-2010-cu illərdə Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların ortaillik artım sürəti 18,4% təşkil etmişdirsə, 2011-2015-ci illərdə həmin göstərici 7,8% olmuşdur. Yəni müqayisə edilən dövrlərdə yatırılan investisiyaların ümumilikdə 10,6% azalması baş vermişdir. Deməli, mövcud investisiya mühiti və bu mühiti formalaşdıran iqtisadi mexanizm irihəcmli birbaşa xarici investisiya layihələrinin reallaşmasına tam cavab verə bilmir. Belə ki, xarici investisiyaların yatırıldığı ənənəvi neft-qaz sektoru təbii resurs təyinatlı olduğundan bütünlükdə ölkədə makroiqtisadi səmərəliliyi formalaşdıra bilmədiyindən, əsas diqqət ortamüddətli dövrdə daha yüksək iqtisadi səmərə verə bilən, məhsuldarlığı çox olan qeyri-neft sektoru sahələrinə xarici investisiyalar yatırılması istiqamətinə yönəldilməlidir. Bu, imkan verəcəkdir ki, xarici investisiyalarla müqayisədə daxili investisiyaların iqtisadi fəallığı daha sürətlə artsın. Daha vacibi isə daxili investisiyaların maliyyələşdirilməsində dövlətin üzərinə düşən ağırlıq, özəl sahibkarlıq subyektlərinin üzərinə keçirilsin. Bu prosesin sürətləndirilməsi olduqca vacibdir, çünki dövlət maliyyələşdirməsinin, xüsusən dövlət büdcəsindən maliyyələşmənin daha səmərəli yollarından istifadəni formalaşdırmağı

[1] Azərbaycan iqtisadiyyatına yatırılan birbaşa xarici investisiyaların 82,4%- neft-qaz sektoruna yatırılmışdır.

meydana çıxarır, özəl sahibkarlığın təşəbbüskarlığını gücləndirir, biznes-investisiya mühitini yaxşılaşdırır. Bu baxımdan, özəl sahibkarlarda investisiya təşəbbüskarlığını dəstəkləmək yolunda daxili investisiya fəallığını daha da gücləndirmək, qeyri-neft sektoruna daxili birbaşa investisiya yatırımlarının artırılması sahəsində görüləsi işlər sürətləndirilməlidir.

**Nəticə**

İlk növbədə, hökumət işğaldan azad olunmuş ərazilərin iqtisadi və sosial bərpasının vahid ölkə iqtisadiyyatının, xüsusən regionların sosial-iqtisadi inkişaf proqramlarının tərkib hissəsinə çevrilməsi istiqamətini nəzərə almalıdır.

İkinci, qeyd edilən istiqamət üzrə beynəlxalq investisiya bazarından (yaxşı olar ki, daha çox etibarlı və ölkəmizin perspektiv inkişafına zəmanət verən ölkələrin investorlarının) daha səmərəli investisiya layihələrini Azərbaycana cəlb etməklə investisiya resurslarının daha səmərəli olanlarını səfərbər edib, ərazinin infrastruktur, emal sənaye və kənd təsərrüfatı sahələri arasında optimal yerləşdirilməsi nəzərdə tutulmalıdır.

Üçüncü, həm xarici, həmdə daxili investisiyaların tərkibində dövlət və özəl investisiya resurslarının səfərbər edilməsi dəqiqləşdikdən sonra həyati əhəmiyyət kəsb edən yol, su, elektrik enerjisi, qaz təchizatı kimi infrastrukturların bərpası və yenidən qurulması istiqaməti daim diqqət mərkəzində saxlanılmalıdır.

Dördüncü, regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin Azərbaycanın Qarabağ regionunun bərpası və inkişafı ilə əlaqələndirilməsi bir daha nəzərdən keçirilməli, tədbirlərin ardıcıllığına, tamamlanmasına, işin başlanğıcı ilə nəticəsi arasında sistemli əlaqə təmin edilməlidir.

**İrşad Kərimli, Şamil Əzizov, Rauf Səfərov**

**Qarabağ regionunun sənaye istehsalının potensial imkanları: dövlət və özəl investisiya yatırımlarına yeni tələblər**

**Xülasə**

Müasir Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun investisiya mühiti daxili və xarici investisiya cəlbediciliyi ölkənin milli iqtisadiyyatının mövcud tələbləri ilə ölçülən, xüsusən işğaldan azad olunan Qarabağ regionunun hərtərəfli bərpası və yenidən qurulması istiqamətində investisiya siyasətinin düzgün həyata keçirilməsindən asılı olacaqdır. İstər işğaldan azad olunan ərazilərdə bərpa və quruculuq işlərinin sürətlə aparılması və istərsə də ölkənin bütünlükdə milli iqtisadi inkişafı üçün xarici və daxili investisiyaların birgə yatırılmasının tənzimlənməsinə yeni yanaşmanı və istiqaməti tələb edir.

Fikrimizcə, Qarabağ regionunun bütün ərazisi üzrə aparılacaq iqtisadi bərpa və quruculuq işlərinin son illərdə Azərbaycanın milli iqtisadiyyatının inkişaf perspektivlərini özündə əks etdirən 12 strateji yol xəritəsinə, yəni 2025-ci ilədək olan dövr üçün qısamüddətli tədbirlərə və 2025-ci ildən sonrakı dövr üçün strateji hədəflərə uyğunlaşdırılması daha düzgün və səmərəli nəticə verə bilər.

2019-cu ilin son aylarından özünü daha qabarıq göstərən COVID-19 qlobal pandemiya ilə əlaqədar Azərbaycan iqtisadiyyatına yatırılan daxili və xarici investisiyaların həcmi sabit qalsa da, son ildə enməyə də meyil edildiyindən ölkənin daxili investisiya fəallığının təşviqinə daha çox önəm verməli, dövlət maliyyəsi hesabına daxili investisiya yatırımları stimullaşdırılmalıdır.

**Иршад Каримли, Шамил Азизов, Рауф Сафаров**

**Потенциальные возможности промышленного производства Карабахского региона: новые требования к государственным и частным инвестициям**

**Резюме**

Инвестиционный климат ненефтяного сектора современной экономики Азербайджана, а также привлекательность внутренних и иностранных инвестиций будет зависеть от правильной реализации инвестиционной политики в направлении комплексной реабилитации и реконструкции освобожденного от оккупации Карабахского региона,

измеряемой существующими потребностями национальной экономики. Это требует нового подхода и направления в регулировании совместных иностранных и внутренних инвестиций для быстрого восстановления и проведения строительных работ на освобожденных территориях, а также для национального экономического развития страны в целом.

По нашему мнению, восстановление экономики и строительные работы будут проводиться во всем Карабахском регионе и осуществление их в соответствии с 12 стратегическими дорожными картами, отражающими перспективы развития национальной экономики Азербайджана, краткосрочные меры до 2025 года а стратегические цели на период после 2025 года может дать более точный и эффективный результат.

Из-за глобальной пандемии COVID-19, которая стала более выраженной в последние месяцы 2019 года, остававшиеся стабильными внутренние и внешние инвестиции в экономику Азербайджана стабильными и даже снизились в прошлом году, поэтому следует уделять более важное значения стимулированию внутренних инвестиций за счет государственных средств.

**Irshad Karimli, Shamil Azizov, Rauf Safarov**

**Potential opportunities of industrial production in the Kharabakh region: new requirements for public and private investment**

**Summary**

The investment climate of the non-oil sector of the modern Azerbaijani economy will depend on the correct implementation of investment policy in the direction of comprehensive rehabilitation and reconstruction of the liberated Kharabakh region, measured by the existing requirements of the national economy. This requires a new approach and direction in the regulation of joint foreign and domestic investments for the rapid recovery and construction work in the liberated territories, as well as for the national economic development of the country as a whole.

In our opinion, Adaptation of economic restoration and construction works to be carried out on the whole territory of the Karabakh region to 12 strategic road maps reflecting the development prospects of the national economy of Azerbaijan in recent years, i.e. short-term measures for the period up to 2025 and strategic targets for the period after 2025 can give more accurate and efficient result.

Although the volume of domestic and foreign investment in Azerbaijan's economy remains stable in connection with the global pandemic of COVID-19, which has become more prominent in the last months of 2019, since the country is also prone to decline in the last year, it should pay more attention to the promotion of domestic investment activity and stimulate domestic investment at the expense of Public Finance.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. Bakı: Statkom, 2018.
2. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. 22 dekabr 2020-ci il.
3. Azərbaycan qəzeti. 2020, 08 dekabr №207 (8573)
4. Azərbaycanın milli iqtisadi inkişaf modeli: Nəzəriyyə və təcrübə. Bakı: “Elm”, 2015
5. Kərimli İrşad. Beynəlxalq iqtisadiyyatın müasir problemləri. Bakı-2006.
6. İşğal olunmuş ərazilərin azad edilməsi Azərbaycan iqtisadiyyatına nə vəd edir? Azərtac 03 dekabr 2020-ci il
7. Qarabağın böyük iqtisadi potensialı var. https://iqtisadiislahat.org/news
8. Qarabağın cənubunda strateji obyekt “Xudafərin” SES. Azərtac. 31 dekabr 2020-ci il
9. https://ordu.az.news

Məqalə redaksiyaya daxil olmuşdur: 22.01.2021
Təkrar işlənməyə göndərilmişdir: 27.01.2021
Çap üçün qəbul olunmuşdur: \. \.

UOT: 338:24.01
DOI:

# DEMOQRAFİK GÖSTƏRİCİLƏRİN STATİSTİK TƏDQİQİ

***Rza Allahverdiyev***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Əhali statistikası şöbəsinin müdiri*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: rza.allahverdiyev@stat.gov.az*

***Səadət Rəhimova***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin*
*Statistik innovasiyaların tətbiqi şöbəsinin rəis müavini*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: saadat.rahimova@stat.gov.az*

**Açar sözlər:** əhalinin sayı, doğum, ölüm, nikah, boşanma, ölkəyə gələnlərin sayı, ölkədən gedənlərin sayı, əhalinin siyahıyaalınması, doğum cədvəli.
**Ключевые слова:** численность населения, рождаемость, смертность, брак, развод, количество прибывших, количество выбывших, перепись населения, таблицы рождаемости.
**Keywords:** population, birth, death, marriage, divorce, number of arrivals, number of departures, census, birth schedule.

Qraunt - doğum və ölüm sayı haqqında məlumatlar əsasında əhalinin sayını və yaş tərkibini təyin etmək imkanını aşkar etmişdir. Bu, əhalinin demoqrafik parametrləri arasındakı riyazi əlaqənin nümunəsidir.

Hazırkı dövrdə demoqrafiyada əhalinin riyazi modellərindən geniş istifadə olunur ki, bunların da köməyi ilə birbaşa müşahidələr nəticəsində əldə edilmiş fraqmentar və qeyri-dəqiq məlumatlar əsasında əhali artımının həqiqi vəziyyəti barədə kifayət qədər tam və etibarlı bir fikir əldə etmək mümkündür. Bəzi hallarda, riyazi modellərdən istifadə edərək birbaşa statistik uçotdan daha etibarlı məlumat əldə etmək olar. Həmçinin Qraunt adı ilə əlaqəli artıq bizə məlum olan ölüm ehtimalı cədvəlləri və riyazi modelləşdirmə növlərindən biri olan demoqrafik proqnozlar da demoqrafiyada riyazi modelləşdirmə kateqoriyasına aiddir və demoqrafiyada demoqrafik davranışları öyrənmək üçün sosioloji metodlardan istifadə olunur. Belə ki, insanların, ailələrin, sosial qrupların həyatının demoqrafik cəhətləri ilə əlaqəli subyektiv münasibətləri, ehtiyacları, fikirləri, planları, qərar qəbuletmələri və s. öyrənilir [4].

Demoqrafik statistikanın əsas göstəricilərinə, ilk növbədə, əhalinin sayının və tərkibinin, doğum, ölüm, nikah, boşanma, ölkəyə gələnlərin və ölkədən gedənlərin sayını, habelə ölkə daxilində və bölgə daxilində əhalinin və miqrasiyanın sayını göstərən göstəricilər daxildir. Onların əsasında əhalinin tərkibini və hərəkətini, sosial-demoqrafik prosesləri hərtərəfli xarakterizə etməyə imkan verən törəmə və hesablanmış göstəricilər formalaşır.

Bu göstəricilərin hər birini ayrılıqda nəzərdən keçirək.

Əhalinin sayı və tərkibi, demoqrafik proseslər haqqında ən dəqiq məlumatlar əhali siyahıyaalınması ilə təmin olunur. Əhalinin siyahıyaalınması bir ölkənin və ya ərazinin hər bir sakinini müəyyən bir zaman kəsiyində xarakterizə edən demoqrafik və sosial məlumatların toplanması prosesidir. Qeyd olunan vaxtdan əvvəl ölənlər və ya dünyaya gələnlər əhali sayına daxil edilmir. Beləliklə, əhalinin siyahıyaalınması əhalinin bir növ anlıq görüntüsünü təmin edir.

Siyahıyaalma proqramına, bir qayda olaraq, demoqrafik (cinsi, doğum tarixi və doğulduğu yer, ailə vəziyyəti və s.), iqtisadi (məşğuliyyəti, təsərrüfat sahəsi və iqtisadi fəaliyyət növü, dolanışıq mənbəyi və s.) xüsusiyyətlər daxil olmaqla hər bir şəxs haqqında kifayət qədər geniş məlumatlar, həmçinin ümumi və ya peşə təhsili xüsusiyyətləri (təhsil illərinin sayı və ya təhsil səviyyəsi, təhsil

müəssisəsində iştirak və s.), etnik mənsubiyyətlər (milliyyət, ana dili, danışıq dili) və s. daxildir. Bu zaman ev təsərrüfatlarının və ailələrin tərkibi də nəzərə alınır.

Siyahıyaalma öz müqəddəratını təyinetmə prinsipi kimi qəbul etmişdir, yəni məlumat sənədlərdən deyil, insanların sözlərindən əldə edilir. Bu, yalnız müsahibin özünün verə biləcəyi məlumatları əldə etməyə imkan verir. Siyahıyaalma formalarında toplanan və qeydə alınan fərdi məlumatlar dövlət statistika orqanları tərəfindən siyahıyaalmada nəzərə alınan xüsusiyyətlərin müəyyən dəyərlərinə malik olan insanların sayı barədə fərdi yekun cəmlərinə çevrilir.

**Doğum** – əhalinin təkrar istehsalı prosesidir. Hər hansı bir ölkədə doğumun aşağı göstəriciləri depopulyasiyanın əsas səbəbidir. Lakin doğulanların və ölənlərin sayının mütləq göstəriciləri, ümumi doğum və ölüm əmsalları, əhalinin sayından və cins-yaş strukturundan asılıdır və həmişə uyğun proseslərin intensivliyini əks etdirmir.

Doğum əmsalı (15-49 yaş qrupundakı bir qadına düşən doğulan uşaqların sayı) ölkədə doğumun intensivliyini daha adekvat əks etdirir və əhalinin yaş strukturundan asılı deyil. Doğumun daha dolğun xarakteristikasını doğumun yaş əmsalları verir. Son illərdə doğum əmsalları kiçik yaşlarda azalmağa davam etmiş, lakin yuxarı yaşlarda da əhəmiyyətli dərəcədə artmağa başlamışdır.

**Ölüm** göstəricisi sağlamlığa təsir edən bütün əsas amilləri özündə cəmləşdirən ən vacib göstəricidir, sosial-iqtisadi, bioloji, sağlamlığın qorunmasında səhiyyə sisteminin səviyyəsini, ətraf mühitin vəziyyətini və doğulanda gözlənilən ömür uzunluğunu əks etdirən həyat keyfiyyətidir. Bu göstərici əhalinin yaş strukturundan asılı olmayaraq, ölüm göstəricisini ümumiləşdirən qiymətləndirmədir.

**Nikah** – bir kişi və bir qadın arasında cəmiyyət tərəfindən qəbul edilmiş və tənzimlənən, bir-birinə və övladlarına qarşı hüquq və vəzifələrini müəyyənləşdirən bir münasibət formasıdır. Tarixən, nikah uzun əsrlər boyu formalarının əvəzlənməsi yolu ilə inkişaf yolu keçmişdir. Eyni zamanda demoqrafiya nikahın qanuni forması ilə də maraqlanır, çünki bu konsepsiya nikahdankənar doğulanlar kimi bir anlayışla əlaqələndirilir. Nikah münasibətlərinin rəsmi qeydiyyatının olması və ya olmaması, qanuni qeydiyyatı ailənin sosial bir qurum kimi vəziyyətinin son dərəcə əhəmiyyətli bir göstəricisidir. Son onilliklərdə müşahidə olunan rəsmi nikah qeydiyyatından imtina halları, birlikdə yaşamağın yayılması halları, ailənin dərinləşən böhranına, sosial problemlərin kəskinləşməsinə, sosial davranışın əksi olan ailə dəyərlərinin deqradasiyasına dəlalət edir. Məsələ təkcə dünyanın bir çox ölkəsində nikahdankənar doğulanların sayında və nisbətindəki artımda deyil, belə ailələrdən olan uşaqların qeyri-adekvat ictimailəşməsi çoxsaylı sosial problemlərə səbəb olur. Nikah münasibətlərinin qanuniləşdirilməməsi ilə birlikdə yaşayış şəraitində yaşamaq ehtimalı, bir çox insanın qanuni nikah və ailənin sosial institutlar kimi dəyərini birlikdə yaşamağın yeganə normativ formalarını içərisindən dağıdır [1].

Azərbaycan Respublikasında nikaha daxil olmaq üçün qanuni yaş kişilər və qadınlar üçün 18-dir.

**Boşanma –** sosial termin kimi hüquq, sosiologiya və sosial psixologiyada öyrənilir.

Demoqrafiya sahəsində isə əhali arasında (və ya koqortda) boşanma əmsalının əhalinin təbii artımına, fərdi demoqrafik proseslərə və ailə quruluşunun formalaşmasına təsir araşdırılır.

Demoqrafiyada boşanma əmsalının doğum və ölüm səviyyəsinə təsirini öyrənməyə xüsusi diqqət yetirilir. Fərdi boşanma halları demoqraflar üçün xüsusi maraq doğurmur.

**Əhalinin miqrasiyası** - son illər ərzində əhalinin artımı, əsasən, doğulanların sayının yüksək olması, orta ömür uzunluğunun artması və ölənlərin sayının azalması hesabına baş vermişdir. Bununla yanaşı, bu prosesə əhalinin miqrasiya hərəkəti də öz müsbət təsirini göstərir.

Koqortda bir və ya bir neçə demoqrafik prosesin gedişatını xarakterizə edən kəmiyyət göstəriciləri sistemi demoqrafik cədvəldir. Cədvəl həm real, həm də hipotetik koqortda (qrupda) prosesi xarakterizə edə bilər.

Cədvəlin bütün göstəriciləri cədvəlin vahid bir şkalası üçün hesablanır. Cədvəlin şkalası, koqortun meydana gəlməsindən sonra olan müddətdir - məsələn, yaş (doğulduğu vaxtdan başlayaraq), evlilik müddəti (evləndikdən sonrakı müddət) və s. Cədvəlin şkalasındakı vaxt illər, aylar və ya günlərlə ölçülür. Addımdan asılı olaraq, cədvəllər tam - bir il addım ilə, qısa - bir neçə il (ümumiyyətlə, 5 və ya 10 il) addımla və ətraflı isə bir ildən az addım ilə bölünür. Hər hansı bir proses

üçün tam və qısa cədvəllər qurula bilər, ümumiyyətlə yalnız uşaq ölümü və növbəti uşağın dünyaya gəlməsi üçün ətraflı cədvəllər qurulur; digər prosesləri öyrənərkən ətraflı cədvəllər tətbiq olunmur. Şkala cədvəlin ən sol sütununda yerləşdirilir və cədvəldə bir çox göstərici varsa, rahatlıq üçün şkala sağdakı son sütunda yerləşdirilir. Şkala 0-dan başlayır və şkalanın sıfır anı koqortun meydana gəlmə anına - yaşa görə şkalada doğum tarixinə, nikah müddəti şkalasında evlənmə tarixinə və s. uyğundur.

Hər bir göstərici şkalanın addımı üçün hesablanır və cədvəlin xüsusi sütununa yerləşdirilir. Göstəricilər yalnız cədvəl şəklində qurulsa da, nəzəri olaraq ümumiyyətlə analitik ifadəsi olmayan bir şkalanın funksiyaları (demometrik funksiyalar) kimi qəbul edilir. Göstəricilər arasındakı münasibətlər, bütün demometrik funksiyaların davamlı və fərqləndirilə biləcəyi fərziyyəsi altında analitik olaraq əldə edilir. Bu fərziyyə reallıqla ziddiyyət təşkil etmir, baxmayaraq ki, əhali sayı və hadisələrin sayı diskret kəmiyyətdir.

Demoqrafik vəziyyət müəyyən bir ərazidə (ölkədə, bölgədə, yaşayış məntəqəsində) baş verən demoqrafik proseslərin və əhalinin cins və yaş strukturunun dinamikada vəziyyətidir. Hər hansı bir bölgədəki demoqrafik vəziyyət iki əsas proses - doğum və ölümlə müəyyən edilir.

**Doğum cədvəlləri.** Doğum cədvəli real və ya hipotetik koqortda (nəsil) doğumu xarakterizə edən göstəricilər sistemidir. Doğum cədvəlləri, ümumiyyətlə qadınlar üçün hesablanır. Doğum cədvəlləri ya bütün qadınlar üçün qurulur, bu zaman doğum bütövlükdə xarakterizə olunur, ya da yalnız evli qadınlar üçün nikah məhsuldarlığı qiymətləndirilir. Digər demoqrafik cədvəllər kimi, doğum cədvəllərinin iki növü var - ümumi və xüsusi. Ümumi doğum cədvəlləri, doğuş ardıcıllığı nəzərə alınmadan bütün doğum halları üçün qurulur. Xüsusi doğum cədvəlləri doğuş ardıcıllığı nəzərə alınmaqla qurulur. Hər iki növ doğum cədvəlləri həm bütün qadınlar üçün, həm də ailəli olanlar üçün ayrı-ayrılıqda hesablana bilər. Lakin doğum sayının birinci halda, yaşa görə artımı nəzərdən keçirilir, ikinci halda isə, evliliyin müddətinə görə prosesin inkişafı qiymətləndirilir.

Ümumi doğum cədvəllərində doğumlar təkrarlanan hadisələr kimi qəbul edilir və hər yaş intervalında prosesin intensivliyinin əsas göstəricisi müəyyən bir yaş intervalı üçün hadisələrin orta tezliyidir.

Bu doğum cədvəlləri tam - birillik yaş qruplarına və ya evlilik müddətinə görə, çox vaxt isə qısa doğum cədvəlləri - beş və ya daha böyük yaş intervalında və ya evlilik müddətinə görə qurulur.

Bütün doğuşlar üçün yaş şkalasına görə doğumun ümumi cədvəli qurulduğu halda, burada birinci əsas göstərici yaşa görə doğum əmsalı göstərilir.

Yaşa görə doğum əmsalı, həmin yaşdakı qadınların sayında il ərzində baş verən orta doğuş sayını göstərir. Bu göstərici aşağıdakı düsturla müəyyən olunur:

$$f_{x/x+k} = N_{x/x+k} /(W_{x/x+k}*T*K)$$

Burada, $f_{x/x+k}$ –x-dən x + k yaşadək doğum əmsalı;

$N_{x/x+k}$ – x-dən x + k yaşadək qadınlarda doğum sayı;

T – doğum sayını əhatə edən müddət;

$W_{x/x+k}$–T müddətində x-dən x+k yaşadək qadınların orta sayı;

К – yaş intervalının uzunluğudur.

Doğum prosesi, doğumları təkrarlanan hadisələr kimi qəbul edərkən qadınların kontingentini dəyişdirməsə də, orta saydan bəhs etməliyik, çünki T dövrü üçün bu kontingent başqa səbəblərdən dəyişə bilər. Doğum əmsalı x ilə x+k yaş intervalına aid edilir və beləliklə, həmin yaş intervalında doğumun orta intensivliyinin ölçüsünü ifadə edir. Yaşa görə doğum əmsalının mənası, dəqiq yaş intervalı üçün doğum əmsalının həddi kimi təyin olunan dəqiq x yaşında doğum əmsalı ilə aşkarlanır.

Ümumi doğum cədvəlinin ikinci əsas göstəricisi aşağıdakı düsturla hesablanmış kumulyativ doğum əmsalıdır.

$$F_x \approx \sum_{15}^{x+k} f_{x/x+k} \cdot K$$

Bu göstərici verilən yaşdakı qadınların doğulan uşaqlarının orta sayıdır.

**Ölüm,** doğuşdan sonra ikinci ən vacib demoqrafik prosesdir. Ölümün tədqiqi mövzu olaraq ölümün əhaliyə, onun sayına və strukturuna təsirini göstərir.

Demoqrafiyada ölüm, bir nəslin yoxolma prosesi kimi başa düşülür və fərqli yaşlarda baş verən, cəmi olaraq həqiqi və ya şərtli bir nəslin yoxolma sırasını təyin edən çoxsaylı tək-tək ölümlərdən ibarət olan kütləvi bir statistik proses olaraq qəbul edilir.

**Ölüm göstəricisi** sağlamlığa təsir edən bütün əsas amilləri özündə cəmləşdirən ən vacib göstəricidir; sosial-iqtisadi, bioloji, sağlamlığın qorunmasında səhiyyə sisteminin səviyyəsini, ətraf mühitin vəziyyətini və doğulanda gözlənilən ömür uzunluğunu əks etdirən həyat keyfiyyətidir. Bu göstərici əhalinin yaş strukturundan asılı olmayaraq, ölüm göstəricisini ümumiləşdirən qiymətləndirmədir. Ölüm sosial bir mühitdə ölüm tezliyidir [5]. Ölümü ölçmək üçün bir göstərici sistemindən istifadə olunur. Bunlardan ilk və ən sadə olan ölümün mütləq sayıdır. Statistika orqanları illik, son vaxtlarda daha qısa müddət ərzindəki ölənlərin sayı barədə məlumatları toplayır və dərc edir. Bununla yanaşı, bu göstərici, bütün mütləq demoqrafik göstəricilər kimi, həm ümumi əhali sayından, həm də strukturundan, ilk növbədə yaşdan və cinsdən çox asılıdır.

Ölüm səviyyəsinin birinci nisbi əmsalı ölümün ümumi əmsalıdır (CMR). Ümumiyyətlə, bu T müddətindəki ölüm sayının, əhalinin bu dövrdə yaşadığı adam-illərin sayının nisbətinə bərabərdir:

$$CMR=(D/(P*T))*1000‰,$$

Burada, D – T zamanı ərzində ölüm hallarının sayı;

P*T əhalinin T dövrü ərzində yaşadığı adam-illərin ümumi sayıdır.

Əgər T dövrü 1 ilə bərabərdirsə, onda ölümün ümumi əmsalı sadəcə olaraq aşağıdakı düsturla hesablanacaq:

$$CMR=(D/P)*1000‰.$$

Ümumi ölüm əmsalı, həmçinin onun xüsusi əmsalıdır, belə ki, bütün insanlar ölümə məhkumdur [1]. Bir neçə illik ölümün ümumi əmsalının dinamikası ölüm səviyyəsinin dəyişməsini təyin etməyə imkan verəcəkdir.

**Cədvəl 1**

**Ölümün ümumi əmsalının dinamikası, Azərbaycan Respublikası 2000-2019-cu illər, ‰ [6]**

| İllər | Bütün əhali | Şəhər əhalisi | Kənd əhalisi |
|---|---|---|---|
| 2000 | 5.9 | 5.8 | 6.0 |
| 2001 | 5.6 | 5.7 | 5.6 |
| 2002 | 5.7 | 5.7 | 5.8 |
| 2003 | 6.0 | 5.9 | 6.1 |
| 2004 | 6.0 | 6.0 | 6.0 |
| 2005 | 6.2 | 6.2 | 6.2 |
| 2006 | 6.2 | 6.2 | 6.1 |
| 2007 | 6.2 | 6.2 | 6.3 |
| 2008 | 6.0 | 6.0 | 6.1 |
| 2009 | 5.9 | 5.9 | 6.0 |
| 2010 | 6.0 | 6.0 | 6.0 |
| 2011 | 5.9 | 6.0 | 5.9 |
| 2012 | 6.0 | 6.1 | 5.9 |
| 2013 | 5.8 | 5.8 | 5.9 |
| 2014 | 5.9 | 6.0 | 5.8 |
| 2015 | 5.7 | 5.9 | 5.6 |
| 2016 | 5.9 | 6.1 | 5.6 |
| 2017 | 5.9 | 6.1 | 5.7 |
| 2018 | 5.8 | 6.1 | 5.6 |
| 2019 | 5.6 | 5.8 | 5.4 |

Yalnız ümumi ölüm əmsalı ilə kifayətlənmək düzgün olmaz, çünki bu göstərici ölümün təqribi ölçülməsidir. Onun qiymətinə əhalinin cins-yaş tərkibi kəskin təsir edir. Bundan başqa,

ölümün ümumi əmsalı həm də doğumun səviyyəsindən asılıdır. Eyni zamanda ümumi ölüm əmsalının aldığı qiymət doğum əmsalından da asılıdır: digər bərabər şərtlər daxilində, doğum əmsalı nə qədər yüksəkdirsə, ümumi ölüm əmsalı da bir o qədər yüksəkdir.

Doğum göstəricisinin araşdırılmasında olduğu kimi, xüsusi ölüm əmsalları arasında da ən vacib yer cinsə görə ayrılıqda hər yaş üzrə ölüm sayının həmin yaşdakı kişi və ya qadınların ortaillik sayına nisbəti olaraq ayrı-ayrılıqda hesablanan yaşa görə əmsallarına aiddir:

$$_nASMR_x=(_nD_x/_nP_x)*1000‰,$$

Burada, $_nASMR_x$ – yaşa görə ölüm əmsalı;

$_nD_x$ – (x+n) yaş intervalında ölənlərin sayı;

$_nP_x$ – (x+n) yaş intervalında əhalinin ortaillik sayıdır (hər iki cins, kişi və qadın).

Yaşa görə ölüm əmsalının təhlili ayrılıqda yaş qrupları üçün ölüm göstəricisinin fərqlərini müəyyənləşdirməyə imkan verir. Ölüm göstəricisinin təhlili, yaşa görə ölüm əmsallarının rolunu və dinamikasını, daha sonra digər amilləri müəyyənləşdirməklə başlanmalıdır. Mütəxəssislər yaşa görə ölüm əmsallarını demoqrafik prosesi analiz etmək üçün ən yaxşı vasitə hesab edirlər. Çatışmazlıq, bəlkə də onların böyük (yüzə qədər) sayında, həmçinin yaş akkumulyasiyasının təsirinə bəzi həssaslıqlarından ibarətdir. Ancaq bu çatışmazlıqlar birilliklər üçün deyil, beşillik intervallar üçün əmsalları hesablamaqla aradan qaldırılır. Beşillik əmsallar birillik çatışmazlıqlardan azaddır və dəqiqliyi əksər praktik məqsədlər üçün kifayətdir [1].

Yaşa görə ölüm əmsalları arasında, uşaq ölümü əmsalı xüsusi yer tutur. Bu göstərici vasitəsilə bir yaşadək uşaq ölümü qiymətləndirilir. Bir yaşadək ölüm, bir tərəfdən ən yaşlılar istisna olmaqla, digər yaşlarda ölümü kəskin şəkildə üstələyir. Digər tərəfdən körpə ölümünün ölçüsü bir ölkənin sosial-iqtisadi inkişaf səviyyəsinin güclü və çox məlumatlı bir göstəricisi kimi xidmət edir.

Nikahın nisbi göstəriciləri arasında birincisi, nikah sayının müəyyən bir müddət ərzində əhalinin yaşadığı adam-illərin ümumi sayına nisbətinə və ya ortaillik (ortaillik, bir ildən bəhs olunur) əhalinin sayının nisbətinə bərabər olan ümumi nikah əmsalı:

$$CNR=(N/(P*T))*1000‰,$$

Burada, CNR – ümumi nikah əmsalı;

N – qeydə alınmış nikahların sayı;

P*T – əhalinin T müddəti ərzində yaşadığı adam-illər;

P – ortaillik əhalinin sayıdır.

Əgər T=1olarsa, onda ümumi nikah əmsalı sadəcə olaraq aşağıdakı düsturla hesablanır;

$$CNR=(N/P)*1000‰.$$

Ümumiyyətlə, orta nikah yaşı müəyyən bir yaşda evlənmiş insanların mütləq saylarına görə hesablanır, lakin bu cür hesablamaların nəticələrinə struktur amillər təsir göstərir.

**Boşanma əmsalı** göstəricilər sistemi ilə ölçülür ki, bunlardan da birincisi, bir müddət ərzində, ümumiyyətlə bir il ərzində boşanmaların mütləq sayıdır. Bu göstəricinin əhalinin sayından asılılığı boşanmanın nisbi göstəricilərinə, yəni boşanma əmsalına keçməyi zəruri edir.

Boşanmanın ilk göstəricisi ümumi boşanma əmsalıdır. Bu, bir müddət üçün boşanmaların ümumi sayının ortaillik əhali sayına nisbətinə və ya bu dövrdə əhalinin yaşadığı adam-illərin sayına nisbətinə bərabərdir:

$$CDR=(D/(P*T))*1000‰,$$

Burada, CDR – ümumi boşanma əmsalı;

D – müəyyən müddət ərzində boşanmaların sayı;

P – ortaillik əhalinin sayı;

T – müddətin illərlə ifadəsi;

P*T – əhalinin T müddəti ərzində yaşadığı adam-illəridir.

Adətən, ümumi boşanma əmsalı 1il müddətinə hesablanır. Bu halda T=1.

Rəsmi qeydə alınmış nikah və boşanmaların sayı və ümumi əmsalları aşağıdakı cədvəldə əks olunmuşdur.

**Cədvəl 2**

**Rəsmi qeydə alınmış nikah və boşanmaların sayı və ümumi əmsalları, Azərbaycan Respublikası 2000-2019-cu illər [6]**

| İllər | Nikahların sayı | Boşanmaların sayı | Əhalinin hər 1000 nəfərinə | |
|---|---|---|---|---|
| | | | Nikahların sayı | Boşanmaların sayı |
| 2000 | 39611 | 5478 | 5.0 | 0.7 |
| 2001 | 41861 | 5382 | 5.2 | 0.7 |
| 2002 | 41661 | 5738 | 5.1 | 0.7 |
| 2003 | 56091 | 6671 | 6.8 | 0.8 |
| 2004 | 62177 | 6914 | 7.5 | 0.8 |
| 2005 | 71643 | 8895 | 8.5 | 1.1 |
| 2006 | 79443 | 7817 | 9.4 | 0.9 |
| 2007 | 81758 | 8340 | 9.5 | 1.0 |
| 2008 | 79964 | 7933 | 9.2 | 0.9 |
| 2009 | 78072 | 7784 | 8.8 | 0.9 |
| 2010 | 79172 | 9061 | 8.9 | 1.0 |
| 2011 | 88145 | 10747 | 9.7 | 1.2 |
| 2012 | 79065 | 11087 | 8.6 | 1.2 |
| 2013 | 86852 | 11730 | 9.3 | 1.3 |
| 2014 | 84912 | 12088 | 9.0 | 1.3 |
| 2015 | 68773 | 12764 | 7.2 | 1.3 |
| 2016 | 66771 | 13114 | 6.9 | 1.4 |
| 2017 | 62923 | 14514 | 6.5 | 1.5 |
| 2018 | 62484 | 14857 | 6.4 | 1.5 |
| 2019 | 63869 | 17148 | 6.4 | 1.7 |

Cədvəldən göründüyü kimi, əhalinin hər min nəfərinə düşən rəsmi qeydə alınmış nikah və boşanmaların ümumi əmsalı demək olar ki, rəsmi qeydə alınmış nikah və boşanmaların sayına nisbətində uyğun olaraq dəyişir.

## Nəticə

Rəsmi məlumatlara əsasən ölkəmiz bir çox MDB və qonşu ölkələrin boşanma göstəricilərindən aşağı səviyyədədir. Göründüyü kimi, dövlətimiz tərəfindən həyata keçirilən sosial-iqtisadi islahatlar bu sahəyə də öz təsirini göstərmişdir. Müəyyən sosial qruplarda ailə quranlara dəstəklərin göstərilməsi ilə nikahların sayına təsir etmək olar. Bunun nəticəsi olaraq, cəmiyyətimizdə bir sıra problemlərin qarşısı alına bilər. Çünki cəmiyyətin istənilən sahəsində baş verən hadisələr boşanma hadisəsinə bilavasitə təsir edə bilər. Bu da boşanma səbəblərinin hərtərəfli öyrənilməsini tələb edir. Boşanma hallarının artması insanların ailəyə baxışlarının dəyişməsinə gətirib çıxaran amillərdən biridir.

**Rza Allahverdiyev, Səadət Rəhimova**
**Demoqrafik göstəricilərin statistik tədqiqi**
**Xülasə**

Məqalədə demoqrafik proseslərin ayrılmaz hissəsi olan göstəricilər: əhalinin sayı, doğum, ölüm, nikah, boşanma, gələnlərin sayı, gedənlərin sayı, əhalinin siyahıyaalınması haqqında geniş məlumat verilmişdir. Məqalədə hadisələrin və onların potensial iştirakçılarının sayına söykənən demoqrafik prosesin gerçək intensivliyinin fakta əsaslanan qiymətləndirilməsi üçün nisbətən sadə formullar təklif edilmişdir. Ölümün ümumi əmsalının dinamikası cədvəl şəklində təqdim olunmuşdur. Həmçinin rəsmi qeydə alınmış nikah və boşanmaların sayı və ümumi əmsallarının dinamikası cədvəl şəklində verilmişdir.

**Рза Аллахвердиев, Саадат Рагимова**
**Статистическое исследование демографических показателей**
**Резюме**

В статье представлена обширная информация о показателях, которые являются неотъемлемой частью демографических процессов: численность населения, рождаемость, смертность, браки, разводы, прибытие, отъезд, перепись. В статье предлагаются относительно простые формулы для фактической оценки реальной интенсивности демографического процесса с учетом количества событий и их потенциальных участников. Динамика общей смертности представлена в табличной форме. Также в табличной форме приводится количество официально зарегистрированных браков и разводов и динамика общих соотношений.

**Rza Allahverdiyev, Saadat Rahimova**
**Statistical study of demographic indicators**
**Summary**

The article provides extensive information on indicators that are an integral part of demographic processes: population, births, deaths, marriages, divorces, arrivals, departures, censuses. The article proposes relatively simple formulas for a fact-based assessment of the real intensity of the demographic process based on the number of events and their potential participants. The dynamics of the overall mortality rate is presented in tabular form. Also, the number of officially registered marriages and divorces and the dynamics of the overall ratios are given in tabular form.

## Ədəbiyyat

1. В.М.Медков Демография. Москва 2004 г.
2. Н.В.Зверева, В.В.Елизаров, И.Н.Веселкова. Основы демографии. Москва 2004
3. Л.Е.Дарский, М.С.Тольц. Демографические таблицы: Учебное пособие / Под редакцией М.Б. Денисенко. Москва 2013
4. Д.И.Валентей. (ред.) Демографический энциклопедический словарь, 1985
5. В.А.Борисов. Демография: Учебник для вузов. М., 1999
6. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi: www.stat.gov.az
7. В.А.Борисов, А.Б.Синельников. Брачность и рождаемость в России: демографический анализ. М., 1995.
8. В.Ф. Воронин, Ю.В.Жильцова. Статистика. Москва 2012
9. Л.Г.Батракова. Теория статистики. Москва 2010.

Məqalə redaksiyaya daxil olmuşdur: 25.01.2021
Təkrar işlənməyə göndərilmişdir: 29.01.2021
Çap üçün qəbul olunmuşdur: \. \.

UOT: 33:303.7; 330.44
DOI:

# AZƏRBAYCANIN İDXALDAN ASILILIĞININ AZALDILMASI VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİNİ

***Jalə Dadaşova***
*"Azərbaycan Hava Yolları"Qapalı Səhmdar Cəmiyyəti*
*Milli Aviasiya Akademiyasının "İqtisadiyyat" kafedrasının müəllimi*
*AZ 1045, Bakı şəhəri, Mərdəkan prospekti 30*
*e-poçt: j.ala@inbox.ru*

**Açar sözlər:** xarici ticarət, iqtisadi təhlükəsizlik, idxal rüsumu, idxal, kvota
**Ключевые слова:** внешняя торговля, экономическая безопасность, импортная пошлина, импорт, квота.
**Keywords:** foreign trade, economic security, import duty, import, quota

İnzibati amirlik sistemindən kənarlaşan respublikamız bazar iqtisadiyyatı modelinə keçid dövründə iqtisadi təhlükəsizlikdə problemlərlə qarşılaşmışdır. Çünki ölkənin iqtisadiyyatında baş verən belə köklü dəyişikliklərə uyğunlaşma yetərincə zaman tələb edirdi. Azərbaycanda 1992-1995-ci illər ərzində inflyasiyanın illik həddi dörd rəqəmlə ifadə olunurdu. Bildiyimiz kimi, inflyasiyanın belə ifrat həddə olması ölkə iqtisadiyyatına həddən artıq mənfi təsir göstərir ki, bu zaman müəssisələr maliyyələşmədə ağır çətinliklərlə üzləşir.

Demək olar ki, ölkəmizin iqtisadi təhlükəsizlik göstəriciləri müstəqilliyin ilk illərində çox aşağı olmuşdur [1, səh. 80].

Ölkənin təhlükəsizliyi milli iqtisadiyyatın inkişafından, milli mənafeyin əsas götürülməsindən, millətin mənəviyyatının sağlam səviyyəsindən, həmçinin sosial inkişaf səviyyəsindən, müdafiə potensialından necə istifadə etməsindən və s. asılıdır.

İqtisadi təhlükəsizlik maddi əsasa malik olmalıdır. O ölkənin texniki, texnoloji potensialının insan amilinin inkişaf səviyyəsi ilə əlaqədardır. Ölkədə geniş təkrar istehsal elə təşkil edilməlidir ki, ölkə öz tələbatını daxili istehsal məhsulları ilə ödəyə bilsin. Bunun nəticəsində ölkə xarici ölkələrin asılılığından azad ola bilər.

Bildiyimiz kimi, Azərbaycan yeni müstəqil inkişaf yoluna düşdüyü üçün onun ümumi iqtisadi inkişafı tədricən artmaqdadır. Respublikamız inkişaf etmiş ölkələrin təcrübələrindən istifadə edərək öz iqtisadi təhlükəsizliyini təmin edə bilər.

Coğrafi məkan və tarixi amillər respublikamızın iqtisadi təhlükəsizliyinin formalaşmasında xüsusi rola malikdir. Azərbaycanın Avrasiya məkanında yerləşməsi və əlverişli iqlim şəraitinə malik olması hər zaman iddialı ölkələrin marağına səbəb olmuşdur. Bu gün ölkəmizin təbii sərvətlərindən sənayecə inkişaf etmiş ölkələr yetərincə bəhrələnmək istəyirlər ki, bu ölkələrdən də ABŞ və Qərbi Avropa ölkələri xüsusi olaraq diqqəti cəlb edir [2, səh. 109,114].

Azərbaycan Respublikasının əsas iqtisadi təhlükə yaradan proseslərindən biri kimi tədiyə balansının xammal hesabına ixracyönümlü olması, ərzaqla təminatın idxaldan asılıolma göstəricisinin yüksək olmasıdır. Çünki bunun nəticəsində milli iqtisadiyyat qeyri-sağlam inkişaf edir, sahibkarlığın inkişafında problemlər yaranır, ölkədə sosial geriləmə baş verir. Ümumiyyətlə, dünya ölkələrinin təcrübəsinə əsaslanaraq demək olar ki, daxili istehlakın 20-25%-dən çoxu idxal hesabına ödənərsə, bu ölkədə təhlükəyə gətirib çıxara bilər.

Məhz buna görə də ölkəmizin idxaldan asılılıq və özünütəminetmə göstəricilərini təhlil etmək zəruridir.

Dövlət Gömrük Komitəsinin məlumatlarına görə, qida məhsullarının idxalı 2015-ci ildə ümumi idxalın 10,62%, 2016-cı ildə 15,49%, 2017-ci ildə 15,99%, 2019-cu ildə isə ümumi idxalın 12,03%-ni təşkil etmişdir. Deməli, məlumatlardan göründüyü kimi, 2015-2019-cu illər ərzində yeyinti məhsulları üzrə idxalda azalma baş vermişdir. Bunu isə müsbət göstərici kimi qeyd etmək olar.

Respublikada illər üzrə ərzaq balanslarını nəzərdən keçirsək, aydın olar ki, buğda cəmi idxalda 2005-ci ildə 1006,1 min ton olmuşdursa da, 2016-cı ildə isə bu göstərici 593,5 min ton artaraq, 1599,6 min tona çatmışdır. 2017-ci ildə isə əvvəlki illə müqayisədə azalaraq, 1274,4 min ton olmuşdur ki, bu da cəmi idxalın 2,6 faizi deməkdir. 2019-cu ildə 1585 min ton buğda idxal olunmuşdur.

Aşağıdakı cədvəl 1 və cədvəl 2-də ölkənin bəzi kənd təsərrüfatı məhsulları üzrə özünütəminetmə səviyyəsi və idxaldan asılılıq göstərilmişdir.

**Cədvəl 1**

**2010-2019-cu illər ərzində Azərbaycanın əsas kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə səviyyəsi (faizlə) [3]**

| Məhsulun adı | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Dənli bitkilər | 56,5 | 64,8 | 64,3 | 63,9 | 60,6 | 64,5 | 63,8 | 66,3 | 74,1 | 67,3 |
| Kartof | 100,5 | 101,6 | 98,2 | 97,6 | 89,7 | 89,1 | 85,5 | 89,2 | 90,8 | 87,8 |
| Bütün növ tərəvəzlər | 97,6 | 95,7 | 98,9 | 102,3 | 103,4 | 103,4 | 105,4 | 115,2 | 115,0 | 112,0 |
| Meyvə və giləmeyvə | 107,9 | 116,8 | 125,7 | 121,8 | 120,1 | 113,7 | 116,4 | 122,4 | 123,2 | 123,1 |
| Süd | 70,4 | 70,9 | 72,5 | 76,0 | 76,3 | 84,3 | 87,7 | 86,1 | 86,7 | 86,3 |
| Mal əti | 95,5 | 88,0 | 92,6 | 86,3 | 87,7 | 91,8 | 93,5 | 86,3 | 85,1 | 86,1 |
| Qoyun əti | 99,7 | 99,8 | 98,5 | 97,7 | 97,9 | 99,3 | 98,7 | 98,0 | 98,1 | 97,6 |
| Quş əti | 70,6 | 79,9 | 87,8 | 98,5 | 98,0 | 98,6 | 79,1 | 79,7 | 75,9 | 74,6 |
| Yumurta | 97,9 | 77,4 | 96,2 | 100,0 | 99,7 | 99,7 | 98,8 | 100,5 | 101,5 | 101,8 |

Yuxarıdakı göstəricilərə baxdıqda görmək olar ki, ərzaq məhsulları ilə özünütəminetmə qənaətbəxşdir. Belə ki, respublikada kartofla özünütəminetmə səviyyəsi aşağı enmişdir, həmçinin qoyun və quş əti ilə özünütəminat səviyyəsində də eyni hal müşahidə olunmuşdur.

Təhlil göstərir ki, 2010-2019-cu illər 2019-cu ilin 2018-ci illə müqayisədə ölkəmizin dənli bitkilərlə özünütəminetmə səviyyəsi 6,8% aşağı düşmüşdür. Bu göstərici həmçinin tərəvəz və meyvə məhsullarında da yüksək olmuşdur.

Göründüyü kimi, mal əti ilə ölkəmizin özünütəminetmə faizi yüksəkdir, lakin təəssüflə qeyd etmək lazımdır ki, heyvandarlığın yem ilə təmin olunması idxal əsasında həyata keçirilir.

**Cədvəl 2**

**2010-2018-ci illər ərzində Azərbaycanın müəyyən növ məhsullar üzrə idxaldan asılılıq səviyyəsi (faizlə) [3]**

| Məhsulun adı | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Dənli bitkilər | 43,5 | 35,2 | 35,7 | 36,1 | 39,4 | 35,5 | 36,5 | 33,7 | 26,9 |
| Kartof | 6,9 | 8,3 | 7,8 | 7,7 | 15,7 | 14,8 | 18,1 | 16,5 | 16,0 |
| Bütün növ tərəvəzlər | 7,0 | 9,5 | 5,7 | 3,1 | 3,4 | 3,4 | 5,1 | 3,8 | 2,8 |
| Meyvə və giləmeyvə | 22,4 | 12,3 | 10,1 | 4,9 | 3,6 | 9,6 | 12,6 | 12,7 | 16,8 |
| Süd | 29,6 | 29,1 | 27,5 | 24,3 | 23,9 | 16,0 | 12,6 | 14,6 | 13,8 |
| Mal əti | 5,5 | 12,9 | 8,9 | 14,8 | 13,2 | 8,8 | 6,6 | 13,8 | 15,0 |
| Qoyun əti | 0,3 | 0,2 | 1,5 | 2,3 | 2,1 | 0,7 | 1,3 | 2,4 | 2,1 |
| Quş əti | 29,8 | 20,3 | 12,2 | 1,5 | 2,1 | 1,4 | 20,9 | 20,5 | 24,4 |
| Yumurta | 2,1 | 22,6 | 4,2 | 0,1 | 0,3 | 0,3 | 1,2 | 0,0 | 1,1 |

2 saylı cədvəlin məlumatlarından aydın olur ki, 2010-2018-ci illərdə dənli bitkilərin idxaldan asılılıq səviyyəsi aşağı enmişdir, quş ətində bu göstərici dəyişkən olmuş, 2018-ci ildə artım baş vermişdir.

Sənaye emalından keçmiş əsas növ ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin ardıcıl təhlili məqsədilə aşağıdakı şəkillərə diqqət yetirmək kifayətdir.

Təhlil dövründə Azərbaycanda bütün növlərdən olan unun idxalında nisbi azalma müşahidə olunmuş və özünütəminetmə səviyyəsi qənaətbəxş (2018-ci ildə 95,9 faiz) olmuşdur. Makaron

məmulatları ilə özünütəminetmə səviyyəsində 2010-cu ildəki 72,7 faizdən 2019-cu ildə 24,7 faizə qədər enmişdir. Bunun əksinə olaraq, təmizlənmiş düyü və yarma ilə özünütəminetmə səviyyəsində artım qeydə alınmışdır.




Şəkil 1. Təmizlənmiş düyü, un, yarma və makaron məmulatları ilə özünütəminetmə səviyyəsi (faizlə)

Ölkəmizin şəkər istehsalında özünütəminetmə səviyyəsinin yüksək olmasına baxmayaraq şəkər istehsalı yerli xammalın hesabına ödənilmir. Bu da əlavə xammalın idxalına görə xaricə valyuta axınına səbəb olur. Çay ilə özünütəminetmə səviyyəsini nəzərdən keçirsək, 2010-2019-cu illər ərzində bu göstərici yüksəlmişdir və bununla da idxaldan asılılığın aşağı düşməsini görə bilərik.




Şəkil 2. Meyvə-tərəvəz şirələri və konservləri, şəkər, çay və duzla özünütəminetmə səviyyəsi (faizlə)

Azərbaycanda daxili istehsal hesabına bitki və kərə yağları ilə özünütəminat səviyyəsi qənaətbəxş səviyyədə olmasa da, onun yüksəldilməsi üçün potensial imkanlar mövcuddur.




| | 2010 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| Bitki yağları | 74,3 | 67 | 60,5 | 36,9 | 37,1 | 34,3 | 33,6 |
| marqarin | 108,2 | 99,3 | 292,3 | 105,7 | 101,5 | 98,8 | 98,2 |
| kərə yağı | 50 | 51,9 | 69,2 | 75,6 | 71 | 71,3 | 69,5 |
| bütün növ pendirlər | 85,7 | 80,4 | 84,2 | 88,3 | 89,8 | 87,9 | 87,7 |

Şəkil 3. Bitki və kərə yağları, marqarin və bütün növ pendirlərlə özünütəminetmə səviyyəsi (faizlə)

Təmizlənmiş düyü, bitki və kərə yağları, yarmalar, makaron məmulatları və çay üzrə idxaldan asılılıq səviyyəsi hələ də yüksək olaraq qalmaqdadır.




Şəkil 4. Sənaye emalından keçmiş əsas növ ərzaq məhsullarının idxaldan asılılıq səviyyəsi



Şəkil 5. Sənaye emalından keçmiş əsas növ ərzaq məhsullarının idxaldan asılılıq səviyyəsi

Ölkədaxili bazarı kənar təsirlərdən qorumaq, iqtisadi təhlükəsizliyi təmin etmək üçün düzgün gömrük siyasəti yeridilməlidir. Bildiyimiz kimi, gömrük siyasəti tarif dərəcələrinin tənzimlənməsinə əsaslanır. Bu gün ölkəmiz öz iqtisadiyyatını bazar prinsipləri əsasında quraraq qloballaşmış dünyaya inteqrasiya olunmasını qarşısına məqsəd qoymuşdur. Belə ki, daxili istehsalı artırmaq, ölkədə rəqabətqabliyyətli məhsullar istehsal edə bilmək, sahibkarlıq fəaliyyətini kənar təsirlərdən qorumaq məqsədi ilə ölkəmizdə gömrük-tarif tənzimləmələri üzrə bir sıra işlər görülmüşdür.

Bu gün ölkəmizdə iqtisadiyyatı qorumaq məqsədi ilə yerli istehsala zərər vuran dempinqli, subsidiyalaşdırılmış idxala qarşı antidempinq və mühafizə tədbirləri tətbiq edilmişdir. Bu, "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir". Bununla yerli istehsal məhsullarının qiymətləri qorunur [5].

İqtisadi Təhlükəsizliyin təmin edilməsinin digər bir üsulu qeyri-tarif tənzimlənməsidir. Bu zaman xarici ticarət kvotası tətbiq edilir ki, bu da idxalın və ya ixracın həcminə tətbiq edilən məhdudiyyətlərdir. Yuxarıda qeyd edilən idxal rüsumundan fərqli olaraq kvotadan istifadə zamanı idxalın (ixracın) həcminin məhdudlaşdırılmasının daha dəqiq həyata keçirilməsinə şərait yaradır.

Məhz bu gün ölkəmiz qeyd edilənlərə əsaslanaraq iqtisadi təhlükəsizliyi təmin etmək və idxalı azaltmaq məqsədi ilə tarif qiymətlərində yetərincə dəyişikliklər etmişdir.

## Nəticə

Azərbaycan iqtisadiyyatının enerji xammalı yönümündən əhəmiyyətli konyunktur asılılığı mövcud iqtisadi mexanizmdə əsaslı dəyişikliklərin aparılmasının məqsədəuyğunluğunu sübut edir.

Araşdırmalar göstərir ki, milli iqtisadiyyatın emal sektorunun genişləndirilməsi onun davamlı inkişafını təmin edəcək və beynəlxalq bazarda rəqabət qabiliyyətini gücləndirəcək. Bu, onun yalnız enerji iri xammal təchizatçılarından biri kimi deyil, həmçinin qlobal dəyər zəncirinin yaradılmasında əsas iştirakçılardan biri olaraq tanınmasına imkan verəcək.

Aparılan təhlildən görmək olar ki, bu gün Azərbaycanda özünütəmetmə səviyyəsi göstəriciləri o qədər də ürək açan deyil, bu isə idxaldan asılılıq səviyyəsinin yüksək həddə olması deməkdir. Məhz hazırda ölkəmizdə qeyri-neft sektorunun, sənayenin, kənd təsərrüfatının inkişafı reallıqları idxaldan asılılığın azaldılmasına gətirib çıxaracaqdır. Daxili bazarı yerli məhsullarla təmin etmək üçün ölkədə yeni addımlar atılır ki, bu həm işsizliyin qarşısını alır, həm də daxili bazarı xarici məhsullardan qoruyur, ixrac qabiliyyətli məhsullar istehsalını artırır ki, bu da gələcək dövrlərdə özünütəminat göstəricilərinin yüksəlməsinə səbəb olacaqdır.

**Jalə Dadaşova**

**Azərbaycanın idxaldan asılılığının azaldılması və iqtisadi təhlükəsizliyinin təmini**

**Xülasə**

İqtisadi təhlükəsizlik probleminin həlli yolları hər bir ölkə üçün əsas xüsusiyyət olsa da, onun təminat göstəriciləri bütün ölkələr üçün eyni deyildir. Bu onunla bağlıdır ki, hər bir ölkənin xarici və daxili amilləri bərabər şəkildə bölüşdürülməmişdir.

Məqalədə Respublikamızda iqtisadi təhlükəsizliyin təmin edilməsində xarici ticarət əlaqələrinin rolundan bəhs edilir. Məhz buna əsaslanaraq idxaldan asılılıq, özünütəminetmə göstəriciləri təhlil edilmiş və idxaldan asılılğının azaldılması yolları göstərilmişdir.

**Жаля Дадашова**

**Снижение зависимости Азербайджана от импорта и обеспечение экономической безопасности**

**Резюме**

Хотя решение проблемы экономической безопасности является ключевым моментом для каждой страны, показатели ее безопасности не одинаковы для всех стран. Это связано с тем, что внешние и внутренние факторы каждой страны распределены неравномерно.

В статье рассматривается роль внешнеторговых отношений в обеспечении

экономической безопасности нашей страны. На основании этого были проанализированы показатели импортной зависимости и самодостаточности, показаны пути снижения зависимости от импорта.

**Jale Dadashova**

**Reducing Azerbaijan's dependence on imports and ensuring economic security**

**Summary**

Although the solution to the problem of economic security is a key feature for each country, its security indicators are not the same for all countries. This is due to the fact that the external and internal factors of each country are not evenly distributed.

The article discusses the role of foreign trade relations in ensuring economic security in our country. Based on this, the indicators of import dependence and self-sufficiency were analyzed and ways to reduce dependence on imports were shown.

## Ədəbiyyat

1. A.Ş.Şəkərəliyev. Z.A.Şəkərəliyeva. "Xarici iqtisadi fəaliyyətin Gömrük tarif tənzimlənməsi" Bakı-2006, səh. 80
2. M.Bərxudarov, N.Məmmədov. "İqtisadi təhlükəsizlik". Bakı: İqtisad Universiteti nəşriyyatı. Bakı-2006, səh.28, 109-114
3. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəsmi internet səhifəsi. www.customs.gov.az
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. www.stat.gov.az
5. http://www.e-qanun.az/framework/33306

Məqalə redaksiyaya daxil olmuşdur: 26.01.2021
Təkrar işlənməyə göndərilmişdir: 29.01.2021
Çap üçün qəbul olunmuşdur: \. \.

UOT: 330.341.44
DOI:

# İXRACIN DİVERSİFİKASİYASININ NƏZƏRİ MƏSƏLƏLƏRİNƏ DAİR

***Aynurə İsmayılova***
*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin*
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktor müavini, dissertantı*
*AZ 1011, Bakı şəhəri, Həsən Bəy Zərdabi prospekti, 88a*
*e-poçt: a-ismayilova@hotmail.com*

**Açar sözlər:** ixracın diversifikasiyası, Herfindal-Hirşman indeksi (HHI), ixrac məhsulu təmərküzləşmə indeksi, ixracın diversifikasiya indeksi, ixrac məhsulu.
**Ключевые слова:** диверсификация экспорта, индекс Херфиндаля-Хиршмана (HHI), индекс концентрации экспортной продукции, индекс диверсификации экспорта, экспортный продукт.
**Keywords:** export diversification, Herfindahl-Hirschman Index (HHI), export product concentration index, export diversification index, export product.

## 1. Giriş

Müasir iqtisadçı alimlərin demək olar ki, yekdilliklə gəldikləri qənaət ondan ibarətdir ki, məqsədyönlü, hərtərəfli təhlil edilmiş ixrac siyasəti ixtiyari ölkənin inkişafında mütləq mənada həyata keçirilən iqtisadi siyasət xəttidir. Demək olar ki, heç bir təbii resursa sahib olmayan dünya "nəhəng"lərinin özlərini "təsdiq etdikləri" dövrlərdə karbohidrogen ixracatçılarının resurs ixrac gəlirlərindən səmərəli istifadə etmədən sosial-iqtisadi problemlərin həllini bir kənara qoymaqla yeni yataqların, hazır təbii mənbələrin axtarışına dair cəhdləri ziddiyyət dolu sualların aktuallığını qorumasına şərait yaradır. Bu məqamda "resursların lənəti"nə yoluxmamaq üçün neft-qaz ixracatçılarının atdıqları addımlar, xüsusilə qeyri-neft ixracı və onun yüksəldilməsi üzrə iqtisadi siyasət çərçivəsi, yürüdülən strategiyalar, ixracın artırılması metod və mexanizmləri, habelə "neft" statusuna malik ölkələrin dövlət dəstək mexanizmləri, dövlət proqramları, ixraca yönəlik sənayeləşmə və s. məsələləri xüsusi həssaslıqla araşdırılır və təhlil edilir.

Xüsusilə inkişaf etməkdə olan ölkələr üçün xarakterik olan hal zəruri həddə şaxələndirilməmiş ixrac portfeli, əsasən, yüksək həddə diqqətin cəmləndiyi məhdud sənaye sektorları və bazarlardır. Məhsulların və bazarların şaxələndirilməsindəki çatışmazlıq ixtiyari halda iqtisadi artıma və çoxsaylı makroiqtisadi problemlərə şərait yaradan maneələrdən biridir. İxrac şaxələndirilməzsə, bu zaman hədəf bazarlarda baş verən ixtiyari dəyişmələr (şoklar) bilavasitə ticarət tərəfdaşlarına təsir edir ki, bu da ixracda dayanıqlılığın təmin olunmasına təhlükə yaradır.

## 2. Ədəbiyyat xülasəsi

Aparılan təhlillər göstərir ki, inkişaf etməkdə olan ölkələrin iqtisadi taleyində artımın ixracyönümlü inkişafı və diversifikasiyasının roluna dair təhlillər son əlli ildən çox dövrü əhatə etmişdir.

Diversifikasiya latınca "dəyişiklik, müxtəliflik" mənasını ifadə edən bu söz, iqtisadi fayda əldə etmək məqsədilə məhsulların çeşidinin genişləndirilməsi və satış bazarlarının istiqamətləndirilməsi ilə iqtisadi səmərənin artırılması və yeni istehsal növlərinə əsaslanmaqdır. Müasir iqtisadi ədəbiyyatlarda diversifikasiya anlayışına dair müxtəlif yanaşmalar vardır. İqtisadi lüğətdə "*Diversifikasiya - firmanın fəaliyyət sferasının müxtəlif çeşidli məhsulların istehsalını və ya müxtəlif bazarları əlavə etməsidir* [1,səh.85,154]. Böyük iqtisadi lüğətdə bu anlayış (1) şaxələndirilmiş inkişaf, (2) mümkün itkilərin riskini azaltmaq üçün kapitalın müxtəlif obyektlər arasında bölüşdürülməsi [2, səh.132]; Macmillanın Çağdaş İqtisadi Nəzəri Lüğətində isə daha konkret tərif verilərək diversifikasiyanın (1) bölgədəki sənaye sahələrinin müxtəlifliyi, (2) müəssisə tərəfindən təqdim edilən məhsulların çeşidliliyi [3, səh.136]; İqtisadi-riyazi ensiklopedik lüğətdə isə iqtisadiyyatın diversifikasiyası iqtisadi fəaliyyətin səmərəliliyini artırmaq üçün çoxşaxəli inkişaf

prosesi kimi tanınmışdır [4,səh.82]; diversifikasiya anlayışına dair maraqlı bir yanaşma isə müəlliflər qrupu tərəfindən hazırlanmış bir məqalədə verilmişdir.

Diversifikasiyanın qeyd edilən təriflərini nəzərə alaraq, qeyd etmək olar ki, məsələ heç də konkret bir sənaye sahəsi, məhsul, müəssisə, istehsal prosesindən asılı deyil, yalnız rəqabətə davamlı olanlardan gedir. Bu o deməkdir ki, sistemin inkişafını uzunmüddətli iqtisadi artım üçün şəraitin təmin edilməsi istiqamətində duran ən rəqabətçi elementləri seçməliyik. Məhz bu iqtisadi diversifikasiya siyasəti ilə əldə edilir. Bu səbəbdən iqtisadiyyatın diversifikasiyası davamlı iqtisadi artım üçün şərait yaratmağa dair sahələrin və sənayenin, texnologiyaların və məhsulların inkişafında rəqabətqabliyyətli bir müxtəliflik seçmə prosesi olaraq təyin edilməlidir. Mövcud yanaşmalara görə diversifikasiya, əsasən, bütövlükdə iqtisadiyyatın, sənayenin, müəssisələrin, məhsulların, ixracatın, investisiyaların, texnologiyanın bankçılıq, qiymətli kağızlara yatırımların və s. diversifikasiyası kimi təsnif edilir. İqtisadi sistemlərin təhlilini aparan müəlliflər əsasən makroiqtisadi, mezoiqtisadi və mikroiqtisadi olmaqla 3 səviyyədə diversifikasiya ayırırlar [5].

İxracın diversifikasiyası istər müəssisə, istərsə də dövlət səviyyəsində ixrac olunan malların sayının artmasına səbəb olan iqtisadi bir prosesi, yeni imkanların axtarışı, malların növlərinin və onların miqdarının artması, yeni ixrac bazarlarına çıxış deməkdir. İxrac risklərinin diversifikasiyası müxtəlif alətlərin investisiyalaşdırılmasıdır ki, bu zaman bir və yaxud bir neçə ixrac kanallarının fayda gətirməsi dayanarsa, digər investisiyalar işə düşməyə başlayır, kapitalın müxtəlif investisiya obyektləri arasında paylanmasına nail olunur. Nəhayət, qısa şəkildə desək, ixracın diversifikasiyası ölkələrə görə (I) ölkənin mövcud ixrac məhsullarının çeşidliliyi və ya (II) ixracın hədəf nöqtəsi, yaxud (III) müxtəlif sektorlar üzrə istehsalın paylanması kimi fərqli formalarda müəyyən edilir.

Ayrı-ayrı müəlliflərin yanaşmasına görə iqtisadiyyatın şaxələndirilməsi mövcud sahələrin modernləşdirilməsi və yeni sahələrin inkişafı ilə əlaqədar olaraq, iqtisadiyyatın konsentrasiyasının azalması deməkdir [6,7]. İxracın diversifikasiyası dar məhsulların, yaxud ticarət tərəfdaşlarının genişləndirilməsi halında baş verir.

1950, 1960 və 1970-ci illərə dair aparılan təhlillərdə Latın Amerikası, Afrika və Cənubi Asiyanın inkişaf etməkdə olan ölkələrində iqtisadi diversifikasiya üçün idxalı əvəzetmə və məhdudlaşdırıcı ticarət siyasətlərinin geniş tətbiqinin faydalı olması müşahidə edilmişdir. Daha sonradan 1980, 1990, 2000-ci illərdən etibarən Çinin, Hindistanın, Asiya "nəhəngləri"nin müvəffəqiyyəti qarşısında iqtisadi diversikasiyaya yanaşma idxalın əvəzlənməsindən ixracın təşviqi və dünya bazarlarına istiqamətlənmə üzrə inkişaf etməyə başlayır [8].

Məsələn, Alvanq və Bertheleminin həmmüəlliflik yolu ilə aparılan tədqiqatın nəticələrinə istinad etsək, ixrac əsaslı iqtisadi artım strategiyasının əsas götürən bir çox inkişaf etməkdə olan ölkələr üçün ixracın diversifikasiyası bu strategiyanın bir hissəsi olmaqla, ənənəvi ixracdan qeyri-ənənəvi ixraca keçid kimi qəbul edilir. Daha geniş ixrac bazasını təmin edərək diversifikasiyanın ixracdan daxil olan gəlirlərdə qeyri-stabilliyi azalır, ixrac gəlirləri genişlənir, əlavə dəyər artır və alternativ imkanların yaranmasına şərait yaratmaqla iqtisadi artım yüksəlir. Buraya geniş elmi-texniki hazırlıqlar (o cümlədən təlimlər) yolu ilə texnoloji imkanların yaxşılaşdırılması, bir-sıra fəaliyyətlər çərçivəsində əlaqələndirmə, artan bazarların mürəkkəbliyi, genişmiqyaslı iqtisadiyyat və xarici təsirlər, qiymətin aşağı düşməsinə imkan verən məhsullar üçün müsbət qiymət yanaşması ilə əvəzetmə daxil edilmişdir [9,10].

BVF-nin təhlillərində inkişafın ilkin mərhələsində struktur dəyişikliyi ilə diversifikasiya sıx əlaqələndirilir. Bu xüsusilə inkişaf etməkdə olan təbii resurs – məhdud sayda, bir neçə əmtəənin ixracından yüksək asılılıq payına malik ölkələrin nümunəsində inkişaf naminə diversifikasiya struktur dəyişikliyindən bilavasitə sıx asılılıqla qiymətləndirilir, lakin inkişafın daha yuxarı irəli mərhələlərində bu asılılıq struktur asılılından uzaqlaşaraq, məhsul və xidmətlərin istehsalına fokuslanmaqla əvəz olunur [11, səh.11].

### 2.1. İxracın diversifikasiyasının forma və səviyyələri

İxracın diversifikasiyanın müxtəlif formalarına gəldikdə isə elmi mənbələrdə bunun üçün müxtəlif ölçünün ola bilməsi və müxtəlif səviyyələrdə təhlil edilə bilməsi vurğulanır. Onlardan ən çox yayılanı ixracın üfüqi (horizontal) və şaquli (vertikal) diversifikasiyasıdır.

Üfüqi (horizontal) diversifikasiya eyni bir sektorun daxilində baş verir (ilkin, ikinci dərəcəli və yaxud üçüncü dərəcəli), həmin sektorda mənfi iqtisadi təsirlərə (beynəlxalq qiymət sabitliyinə və ya düşməyə qarşı) və siyasi risklərə qarşı mövcud ixrac səbətinə yeni məhsulların əlavə edilməsi yolu ilə ölkənin ixrac qarışığında tənzimləməni tələb edir. Şaquli (vertikal) diversifikasiya isə ənənəvi sənaye mallarının emalından ilkin və ya üçüncü dərəcəli sektora keçməyə səbəb olur. Bu, nəticə etibarilə mövcud malların təkmilləşdirmə, marketinq və digər xidmətlər yolu ilə əlavə dəyərinin yüksəldilməsi məqsədilə istifadəsidir. Şaquli diversifikasiya xammalın artımına və dayanıqlılığın yüksəldilməsinə kömək edərək bazar imkanlarını genişləndirə bilər. Belə ki, ixtiyari halda emal edilmiş məhsullar xammala nisbətdə qiymətdə daha yüksək sabitliyə malikdir. Diaqonal üzrə diversifikasiya bəzən ədəbiyyatlarda qeyd olunur. Bu idxal olunan xammaldan ikinci və üçüncü dərəcəli sektorlara keçidi əks etdirir.

Uğurlu üfüqi, şaquli və diaqonal diversikasiyalar üçün tələblər bacarıqlar və kapital qoyuluşu, texnologiyalar, idarəetmə səriştəsi və marketinq bacarıqları cəhətdən bir-birilərindən əhəmiyyətli dərəcədə fərqlənə bilərlər. Dayanıqlı uzunmüddətli ixrac artımı üfüqi (məs., mövcud ixrac səbətinə yeni məhsulların əlavə edilməsi kimi) və şaquli (məs., xammaldan əlavə dəyəri yüksək istehsala keçid kimi) diversifikasiyanın hər iki formasını tələb edir. Bu isə göründüyü kimi, ya mövcud ixrac səbətinə yeni məhsulların əlavə edilməsini, yaxud da mövcud olanlar üzrə zəruri təkmilləşdirmələrin aparılmasını tələb edir.

Diversifikasiyanın səviyyələrinə gəldikdə burada təhlil (təsərrüfat, zavod, region, ölkə və yaxud regional kimi) müxtəlif səviyyələrdə aparıla bilər. Hər bir səviyyə üçün yuxarıda adları sadalanan şaquli, üfüqi və diaqonal diversifikasiya formalarının ixtiyari biri əsas götürülə bilər. Merkantalizm dövründən etibarən ixracın artımının ixtiyari ölkə üçün müxtəlif səbəbləri vardır.

Makro səviyyədə ixrac (I) xarici valyutanın yaranması, (II) ixracdan daxilolmalar idxalın və ixracın maliyyələşdirilməsi üçün həyati əhəmiyyət daşıyır, (III) bir çox inkişaf etməkdə olan ölkələrin kiçik həcmi və onların alıcılıq qabiliyyətinin az olması daha böyük bazarların axtarışı zərurətini tələb edir, (IV) ixrac məşğulluğa və milli məhsulun artımına töhfə verir. Mikro səviyyədə isə ixrac (I) daxili bazarlarda fəaliyyət göstərən tərəfdaşlarına nisbətən ixracatçı şirkətlərin xarici bazarlarda daha səmərəli fəaliyyət göstərməsinə və (II) ixracatçı şirkətlər texnologiyaların ötürülməsinə bələdçilik edirlər ki, bu isə texnoloji cəhətdən ikinci təsirlərin əmələ gəlməsinə və daxili bazarda bilavasitə müsbət təsir yaranmasına imkan verir. Xüsusilə kapital, xam mallar və işçi qüvvəsi kimi yerli resurslar hesabına sənaye ixracı, xüsusilə yüksək məşğulluq cəhətdən son dərəcə vacibdir. Bu zaman xüsusən ixracatçı şirkətlər yerli bazarı hədəf götürən şirkətlərlə müqayisədə daha məhsuldar olur və yerli müəssisələrin inkişafına təkan verirlər.

## 2.2. İxtisaslaşma əleyhinə diversifikasiya

Belə bir fikir vardır ki, ixracın diversifikasiyasına dair konsepsiya ölkənin açıqlığı və beynəlxalq ticarətdə iştirak etdiyi səviyyə nə qədər yüksəkdirsə, həmin ölkə bir o qədər ixtisaslaşmış olduğunu irəli sürən müqayisəli üstünlüyə dair konsepsiyaya ziddiyyət təşkil edir. Bir çox tədqiqatçılar bu qənaətdədirlər ki, müqayisəli üstünlüyə malik əmtəə üzrə ixtisaslaşmış ölkələr resursların səmərəli bölüşdürülməsi yolu ilə daha yüksək səmərə əldə edə bilərlər, qısası, beynəlxalq rəqabətqabliyyətlilikdə yüksəliş ixracda daha yüksək həddə ixtisaslaşma tələb edir, nəinki yaxşı diversifikasiya.

Presbiş-Zinqerin fərziyyəsinə əsasən dar qrupda ixtisaslaşmış ixrac məhsulları ölkənin ixracdan daxilolmalarında qeyri-sabitlik səviyyəsinə qaldırır, bu isə beynəlxalq ticarət şərtləri məhz bu məhsullara tətbiq edildikdə ağırlaşma ilə müşayiət oluna bilər. Qeyd edək ki, inkişafın bu asılılıq nəzəriyyəsi öz əsasını 1949-cu ildən Xansa Zinqerin və Raulya Prebişanın əsərlərindən götürür. Adı çəkilən müəlliflər az inkişaf etmiş ölkələrin inkişafındakı bu mənfi amilin səbəblərini təhlil edərək belə bir hipotezi irəli sürürlər ki, inkişaf etmiş ölkələrlə müqayisədə inkişaf etməkdə olan ölkələrin xarici ticarət balansı zaman keçdikcə daha da pisləşmişdir. Belə ki, onların özlərinin tükənən təbii ehtiyatlarına qarşı daha az sənaye malları istehsal etmiş olmaları müşahidə edilmişdir. Prebiş aparılan təhlillərdən belə qənaətə gəlir ki, inkişaf etməmiş ölkələr asılılıq vəziyyətindən çıxmaq üçün ixraca yönəlik sənayeləşmə deyil, idxalı əvəzedən sənayeləşmə ilə sərbəst inkişafın optimal

strategiyasına üstünlük verməli, inkişafın qorunma (proteksionist) siyasətindən istifadə etməlidirlər [12-13].

İxracın bir neçə əsas məhsula hədəflənməsi ixtiyari ölkənin gələcəyi üçün iqtisadi və siyasi risklərin daşıyıcısıdır. İxracın diversifikasiyası həm də ***iqtisadi** və **siyasi riskləri*** azaltmaq məqsədi daşıyır. *İqtisadi risklərin azaldılması qısamüddətli dövrdə*, mənfi makroiqtisadi təsirlərə (artım, məşğulluq, investisiyaların planlaşdırılması, idxal və ixrac potensialı, xarici valyutada kapitalın hərəkəti, inflyasiya, riskli investisiya qoyuluşlarının azaldılması, borcların qaytarılması) və *uzunmüddətli dövrdə*, ticarətdə dünyəvi və gözlənilməz azalma meyillərinin qısamüddətli təsirlərini daha da artırır. *Siyasi risklərə* zəif dövlət idarəetməsi, vətəndaş müharibəsi riski, həmçinin son illərdə aparılan tədqiqatların nəticələrinə istinad edilərək əmtəədən asılılığın zəif dövlət idarəetməsinin müxtəlif formaları ilə əlaqəli olduğu göstərilir. Buradakı münaqişə riski bir neçə (az sayda) əmtəənin ixracından asılı olan gəlirin səviyyəsi və artım və onun strukturu ilə bilavasitə bağlıdır. Diversifikasiyanın digər bir məqsədi ixracın məhdud sayda coğrafi bölgüsündən asılılığın azaldılmasından ibarətdir. Bundan əlavə, diversifikasiya ixrac imkanlarını genişləndirmək məqsədilə yanaşı, həm də ölkədaxili resurs və xidmətlərlə qarşılıqlı əlaqələrin yaxşılaşdırılması məqsədi daşıya bilər. Eyni zamanda az sayda xammal ixracından güclü şəkildə asılılıq dünya bazarlarında həmin məhsulların qiymətləri, tələb və təkliflə bağlı baş verən dəyişmələrdə güclü təsir altında qalmaq kimi riskin daşıyıcısıdır. Ənənəvi ixracın diversifikasiyası aşağı gəlir elastikliyi, ticarət dövriyyəsinin azalması, ənənəvi ixracın məruz qaldığı məhdud tələb və ənənəvi ixracın artım tempinin azalması kimi xüsusi ekzogen zərbələrə qarşı çox həssasdır.

Sual yaranır ki, ixracın diversifikasiyasını necə etməli? Dünya təcrübəsində bu sualın vahid və sadə cavabı yoxdur. İstehsala əsaslanan diversifikasiya inkişaf etməkdə olan ölkələr üçün alternativsiz yanaşma olmamalı, diversifikasiya siyasətini tətbiq etmək niyyətində olan siyasətçilər, hökumət burada xarici bazarlara çıxışa dair hərtərəfli və çoxtərəfli siyasət qovluğuna malik olmalıdırlar. Burada idxal və ixracda tarif və qeyri-tarif məhdudiyyətləri, yaxşı təşkil edilmiş gömrük imkanları, müvafiq makroiqtisadi çərçivə (aşağı inflyasiya, real məzənnə, aşağı maliyyə çatışmazlıqları və xarici borc) fonunda, anti-ixrac istiqamətli yanaşma, daxili qiymətlərin beynəlxalq qiymətlərə uyğunlaşdırılması üzrə mənfi sosial nəticələrin azaldılması tədbirləri; sərhədlərdən kənara çıxmaqda məhdudiyyətlərin aradan qaldırılmasına əsasən təklif tərəfi üzrə məhdudiyyətlərin (infrastruktur, institusional (ticarət əsaslı)); siyasətə dair məhdudiyyətlər (müvafiq biznes tənzimləmə çərçivəsi, investisiya siyasətinə dair rejim); rəqabətqabliyyətliliyə dair məhdudiyyətlərin (standartlar, qablaşdırma, keyfiyyət və vaxtında çatdırılma) və zəruri dəstək təşəbbüsləri (maliyyələşmə ilə stimullaşdırma və kredit subsidiya təşəbbüsləri kimi); habelə ikitərəfli, regional və çoxtərəfli səmərəli danışıqların aparılması bacarıqları; eləcə də ticarətə dair yaxşı düşünülmüş siyasətlə məşğul olan ixtisaslaşmış qurumların olmasını şərtləndirir.

Sözügedən istiqamətdə çoxsaylı təhlil və tədqiqatlar sadalamaq, istinad etmək olar, lakin onların əsas fərqləndirici xüsusiyyəti konkret seçilmiş ölkədə seçilmiş sahə, müəssisə və s. kimi tədqiqat obyektlərinin və spesifik məqsədlərin fərqli olmasıdır.

### 2.3. İxracın diversifikasiyanın ölçülməsi

İxracın diversifikasiyasının ölçülməsinə gəldikdə iqtisad elmi mənbələrində müxtəlif yolların olduğu görünür və ümumilikdə burada ölçü meyarlarının müxtəlif tərifləri diversifikasiyanın səviyyələri, formaları və ölçülərinə görə fərqlənirlər.

Onlardan Birləşmiş Millətlər Təşkilatı (BMT) Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD) tərəfindən geniş istifadə olunan Herfindal-Hirşman indeksi (HHI) və İxrac məhsulu üzrə təmərküzləşmə indeksi (Export Product Concentration Index) standart ölçmə alətlərinə istinad edilmişdir [14].

Bu iki alət bazar səhmləri əsasında bazarın konsentrasiyasının ənənəvi struktur aləti kimi tanınır. Seçilmiş sektorda müəssisələrin konsentrasiyası iqtisadçılarla yanaşı, dövlət qurumlarının və biznes strukturlarının əsas maraq dairəsində olan məsələlər sırasına daxildir.

Herfindal-Hirşman İndeksi (HHI) **(***ingiliscə Herfindahl-Hirschman index, Export Diversification Index, DX):*

- müəyyən bir bazarın inhisarlaşma dərəcəsini qiymətləndirmək üçün istifadə edilir;

- 0 və 1 arasında qiymət alan bu göstəricinin ən aşağı qiyməti (0-a yaxın olması) ixracın daha yüksək diversifikasiya, 1-ə yaxın olması isə ixracın daha zəif diversifikasiya olunmasını göstərir. Başqa sözlə desək, Hj-nin vahidə bərabər olması j ölkəsinin bütün ixracının ancaq bir məhsuldan asılı olduğunu, sıfıra bərabər olması isə j ölkəsinin ixracı bütün məhsullar arasında bərabər bölünməsini ehtiva edir;

$$H_j = \frac{\sqrt{\sum_{i=1}^{N}\left(\frac{X_{i,j}}{X_j}\right)^2} - \sqrt{\frac{1}{N}}}{1 - \sqrt{\frac{1}{N}}}$$

Burada Hj – j ölkəsi üçün ixracatın əmtəə konsentrasiyası indeksi, Xi,j və j ölkəsinə ixrac olunan i məhsulun ixrac dəyəri, Xj – j ölkəsinin ümumi ixrac dəyəri, eləcə də N isə Standart Beynəlxalq Ticarət Təsnifatına [15] əsasən 3 rəqəmli səviyyədə ixrac olunan məhsulların sayıdır.

Sözügedən indikatorlar hazırda UNCTAD məlumat bazasında ölkələr və ölkə qrupları üzrə 1995-ci ildən etibarən əlyetəndir.

İxrac məhsulu üzrə təmərküzləşmə indeksi (Export Product Concentration Index) ölkə səviyyəsində ixrac məhsulundan asılılıq səviyyəsini ölçür (məsələn, seçilmiş A ölkəsinin ixracının bir neçə məhsul üzərində təmərküzləşməsini göstərir).

**3. Azərbaycan üzrə qiymətləndirmə**

UNCTAD məlumat bazasına istinadən Azərbaycan üçün yuxarıda adları çəkilən indekslərin 1995-2019-cu illər üzrə dinamikası aşağıdakı cədvəldə verilmişdir (cədvəl 1).

**Cədvəl 1**

**1995-2019-cu illərdə Azərbaycan üzrə ixracın diversifikasiya və məhsulların təmərküzləşmə indeksləri [16]**

| İllər | Təmərküzləşmə indeksi | Diversifikasiya indeksi |
|---|---|---|
| **1995** | 0,42 | 0,71 |
| **1996** | 0,55 | 0,76 |
| **1997** | 0,45 | 0,74 |
| **1998** | 0,37 | 0,72 |
| **1999** | 0,50 | 0,78 |
| **2000** | 0,57 | 0,79 |
| **2001** | 0,71 | 0,82 |
| **2002** | 0,68 | 0,82 |
| **2003** | 0,68 | 0,81 |
| **2004** | 0,61 | 0,79 |
| **2005** | 0,57 | 0,77 |
| **2006** | 0,70 | 0,77 |
| **2007** | 0,74 | 0,77 |
| **2008** | 0,90 | 0,79 |
| **2009** | 0,85 | 0,80 |
| **2010** | 0,87 | 0,80 |
| **2011** | 0,89 | 0,80 |
| **2012** | 0,87 | 0,78 |
| **2013** | 0,86 | 0,79 |
| **2014** | 0,86 | 0,79 |
| **2015** | 0,77 | 0,81 |
| **2016** | 0,81 | 0,84 |
| **2017** | 0,82 | 0,84 |
| **2018** | 0,83 | 0,83 |
| **2019** | 0,78 | 0,83 |

## Nəticə

Göründüyü kimi, diversifikasiyanın ölçüsü ölkəmiz üçün uzun illər 1-ə yaxın qiymətə uyğunlaşmışdır. Ölkəmizin ixracının məhdud məhsul və məhdud bazarlardan yüksək asılılıq həddi demək olar ki, bu illər ərzində dəyişməz olaraq qalmışdır. Bu isə iqtisadi inkişaf üçün əmtəənin

ixracından asılılığın yüksək həddə risk daşıyıcısı olaraq, qalmaqda davam etməsini xarici şoklara, qiymətin dəyişkənliyinə qarşı zəifliyi ixracın diversifikasiyanın tətbiqinə dair təcili zərurəti göstərmiş olur.

Diversifikasiya zamanı iqtisadi bazanın möhkəmləndirilməsi üçün yeni imkanlar yaranır, iqtisadiyyat güclənir və xarici amillərin mənfi təsirləri azalır. Adətən, iqtisadiyyatın diversifikasiyası təsir sahələrini və istehsal həcmlərini genişləndirmək üçün digər tədbirlərlə birgə kompleks şəkildə həyata keçirilir. Baxmayaraq ki, aparılan təhlillər göstərmişdir ki, ixracın diversifikasiyasının vahid və universal trayektoriyası, metod və alətləri yoxdur, lakin ixracın uğurlu inkişaf strategiyası üçün çoxtərəfli bir yanaşma, ixracın inkişafı və diversifikasiyası üzrə uğurlu strategiyanın formalaşdırılması üçün digər ölkələrin təcrübələrindən geniş istifadə olunması məqbul hesab edilən şərtlərdəndir.

Bununla belə, aparılan təhlillərə və gəlinən nəticəyə əsasən xüsusilə təbii resurs ixracından asılılığın azaldılmasına istiqamətlənməklə, ixracın diversifikasiyası üzrə iki əsas strategiyanın tətbiqi daha məqbul hesab edilə bilər. Müxtəlif növ məhsulların ixracının istinad edilən üfüqi diversifikasiya, əlavə dəyər yaratmaq yolu ilə digər – şaquli diversifikasiya istiqamətinin seçilməsi məqsədə müvafiqdir.


**Aynurə İsmayılova**

**İxracın diversifikasiyasının nəzəri məsələlərinə dair**

**Xülasə**

Təqdim olunan məqalədə ixracın diversifikasiyanın forma və səviyyələri, ona dair arqumentlər, ölçülməsinə dair nəzəri konseptual əsasları araşdırılmış, xarici təcrübədə həyata keçirilən işlərin qısa xülasələri verilmişdir. Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf üzrə Konfransı tərəfindən 1995-ci ildən etibarən tətbiq edilən Herfindal-Hirşman indeksi (HHI) və İxrac məhsulu üzrə təmərküzləşmə indeksi kimi ixracın diversifikasiyasının ölçmə alətləri tədqiq, eləcə də 1995-2019-cu illərdə Azərbaycan üzrə ixracın diversifikasiya və təmərküzləşmə əmsalının dəyişmə dinamikası şərh edilmişdir.



**Айнура Исмаилова**

**К теоретическим вопросам диверсификации экспорта**

**Резюме**

В статье рассмотрены формы и уровни диверсификации экспорта, приведены аргументы, теоретические и концептуальные основы измерения, а также дается краткое изложение работ, из зарубежной практики. Были изучены такие инструменты измерения диверсификации экспорта, как индекс Херфиндаля-Хиршмана (HHI), применявшийся Конференцией Организации Объединенных Наций по Торговле и Развитию с 1995 года, и индекс концентрации экспортной продукции, а также интерпретирована динамика изменения коэффициента диверсификации и концентрации экспортной продукции по Азербайджану в 1995-2019 годах.



**Aynura Ismayilova**

**On theoretical issues of export diversification**

**Summary**

The presented article examines the theoretical and conceptual bases for forms and levels, arguments against it, and its measurement of export diversification, and also provides a summary of the work performed in foreign practice. The United Nations Conference on Trade and Development (UNCTAD) has studied export diversification instruments such as the Herfindahl-Hirschman Index (HHI) and the Export Concentration Index, which have been applied since 1995. The dynamics of the index of concentration of export products, and the export products concentration index for Azerbaijan in 1995-2019 years was interpreted.

## Ədəbiyyat


1. C.Mövsümov. İqtisadi lüğət. 484 səh. https://achiqkitab.aztc.gov.az/Books/Read/2377/Iqtisadi-Luget-Movsumov-?sa=X&ved=2ahUKEwib6sadqonAhWyx4UKHeuWBB4QFjAOegQIARAB
2. А.Н.Азрилияна. Большой экономический словарь. М., 1997.
3. Словарь современной экономической теории Макмиллана. М.: ИНФРА-М. 2003.
4. Л.И.Лопатников. Экономико-математический словарь. Словарь современной экономической науки. 5-е изд., перераб. и доп. М.: Дело, 2003. 520 стр. // https://may.alleng.org/d/econ/econ268.htm
5. В.А.Русановский, И.К.Бабайцева, теоретические основы исследования диверсификации экономики и структурных сдвигов на постиндустриальной стадии развития, стр. 30-35 // https://cyberleninka.ru/article/n/teoreticheskie-osnovy-issledovaniya-diversifikatsii-ekonomiki-i-strukturnyh-sdvigov-na-postindustrialnoy-stadii-razvitiya
6. Проблемы диверсификации экономики России / авт. колл. под рук-вом Е. Литвак // Общество и экономика. 2009. № 7 – 8.
7. Диверсификация в России. Европейский банк реконструкции и развития (EBRD) // https://www.ebrd.com/downloads/research/economics/publications/specials/diversifying-russia-russian.pdf
8. Salomon SAMEN, Ph.D, A Primer on Export Diversification: Key Concepts, Theoretical Underpinnings And Empirical Evidence, Growth and Crisis Unit World Bank Institute, May, 2010 // http://blogs.worldbank.org/files/growth/EXPORT_DIVERSIFICATION_A_PRIMER_May2010(1).pdf
9. Ali, Alwang and Siegel, (1991): “Is export Diversification the best way to achieve export growth and Stability? A look at three African Countries” World Bank Working Papers No. 729, 1991 // http://documents.worldbank.org/curated/en/635281468774612514/pdf/multi0page.pdf
10. Jean-Claude Berthélemy and Sophie Chauvin (2000): “Structural Changes in Asia and Growth prospects after the crisis” CEPII Working papers, No. 00-09, 2000, http://www.cepii.fr/PDF_PUB/wp/2000/wp2000-09.pdf
11. IMF Policy Paper Sustaining Long-Run Growth and Macroeconomic Stability in Low-Income Countries—The Role of Structural Transformation and Diversification, March, 2014 // https://www.imf.org/external/np/pp/eng/2014/030514.pdf
12. Singer, H.W. (1950), “The distribution of Trade between Investing and Borrowing Countries” American Economic Review, Vol. 40, May 1950, pp.531-548 // https://www.rrojasdatabank.info/pioneers10.pdf
13. Presbish, R (1950), “The Economic Development of Latin America and its Principal problems” United Nations, New-York // http://m.rrojasdatabank.info/prebisch_theec-development.pdf
14. Indicators Explained №3, Export Product Concentration Index, UNSTAD/STAT/IE/2019/1 // https://unctadstat.unctad.org/en/IndicatorsExplained/statie2019d1_en.pdf
15. Standard International Trade Classification (SITC) Revision 3 // https://unctadstat.unctad.org/en/Classifications/DimSitcRev3Products_Official_Hierarchy.pdf
16. https://unctadstat.unctad.org/wds/TableViewer/tableView.aspx



Məqalə redaksiyaya daxil olmuşdur: 19.04.2021
Təkrar işlənməyə göndərilmişdir: 21.04.2021
Çap üçün qəbul olunmuşdur: \. \.

UOT: 33:002
DOI:

# MƏLUMATLARIN MƏXFİLİYİNİN MÜTƏXƏSSİSLƏRİN RƏYLƏRİNƏ ƏSASƏN HƏRTƏRƏFLİ QİYMƏTLƏNDİRİLMƏSİ

***Afət Süleymanova***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*İnformasiya texnologiyaları şöbəsinin baş məsləhətçisi*
*Bakı Dövlət Universitetinin*
*"İnformasiya texnologiyaları və proqramlaşdırma" kafedrasının dissertantı*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt:jafa25@mail.ru*

**Açar sözlər:** məxfilik amili, sənədin məxfilik səviyyəsi, qeyri-səlis çoxluq, qeyri-səlis nəticə.
**Ключевые слова:** фактор конфиденциальности, уровень секретности документа, нечёткое множество, нечёткий вывод.
**Keywords:** confidentiality factor, level of sensitivity of document, fuzzy set, fuzzy conclusion.

**Giriş.** Yaradılacaq sənədlərə daxil ediləcək məlumatların məxfilik dərəcəsinin müəyyənləşdirilməsi proseduruna mövcud yanaşmalar məxfilik qrifinin mənimsənilməsinə cavabdeh xidmət rəhbərinin və ya işçilərinin evristik biliklərindən (xüsusən də üstünlük sistemi) istifadəsinə əsaslanır. Bu cür sənədlərə daxil ediləcək məlumatın məxfiliyinin möhürlənməsinin vaxtında qurulması üçün şərait yaratmaq üçün şərtlər nəzərə alınır. Məxfilik səviyyələrini qiymətləndirmək üçün sənədləşdirilmiş məlumatlarda mövcud olan məxfilik faktorları ilə bağlı ekspert rəylərindən istifadə edərək qeyri-səlis bir nəticə mexanizmi istifadə edilmişdir. Bununla birlikdə, kontekstual biliklərin müəyyənləşdirilməsi proseduru, sənədlərin məxfiliyi çox mürəkkəbdir. Bu səbəbdən, bir sıra alternativ variantlardan qiymətləndirmə, sintez və həll seçimi prosesində bir məsləhətçinin iştirakını tələb edir. Gələcək sənədlərə daxil ediləcək məlumatların məxfilik möhürünün verilməsi üçün sənədlərin məxfiliyi rəhbərinin məlumatlarının, biliklərinin və seçim sisteminin aşkarlanması həcmi çox mənalı olduğu ortaya çıxan ekspert məlumatları həyata keçirilir. Eyni zamanda əldə edilməsi və işlənməsi lazım olan məlumatların məxfiliyinə dair ekspert məlumatlarının miqdarı nə qədər çox olarsa, qiymətləndirmə meyarlarının ölçüsü və məxfiliyi üçün müəyyənləşdiriləcək məlumatların miqdarı bir o qədər yüksək olur. Qiymətləndirilən sənədə daxil ediləcək məlumatın məxfilik dərəcəsi ilə bağlı qərarlar qəbul edilərkən nəzərdən keçirilən sənədlərin məxfilik dərəcəsinə dair bir çox ekspert qiymətləndirməsi hər cür ifadə edilə bilər ki, bu da öz növbəsində ola bilər uyğun üzv funksiyalarından istifadə edərək bərpa olunan qeyri-səlis çoxluq şəklində təsvir olunur [1, 2].

Qiymətləndirilən alternativləri və bu səbəbdən üstünlük dərəcələrini əks etdirən qeyri-səlis çoxluqları sıralamaq üçün qeyri-səlis münasibətlər zəncirinin düzəldilməsi və qurulması üsulları ilə bir-birindən fərqlənən müxtəlif qeyri-səlis metodlar mövcuddur [3]. Onlardan biri bu məqalənin əsasını təşkil etmişdir.

**Məxfilik faktorlarının təsirinin təhlili.** Verilən sənədə daxil ediləcək məlumatın məxfilik dərəcəsinin qiymətləndirilməsi, hər bir məxfilik faktoru (MF) üçün qiymətləndirmənin ümumiləşdirilməsi üçün kompozisiya qaydasının tətbiq edilməsini əhatə edən çox meyarlı bir prosedurdur: $x_1$ - *iqtisadi əhəmiyyət;* $x_2$ - *elmi əhəmiyyət;* $x_3$ - *qiymət əhəmiyyəti;* $x_4$ - *rəsmi səviyyə;* $x_5$ - *xarici ölkələrdən qarışmağa maraq;* $x_6$ - *bu cür məlumatların xarici ölkələrdə yayımlanmasına münasibət.* Buna görə də, bu təsiri qiymətləndirmək üçün 5 qiymətləndirmə konsepsiyası seçildi: $u_1$ – "ƏHƏMİYYƏTSİZ"; $u_2$ – "ƏHƏMİYYƏTLİ"; $u_3$ – "ÇOX ƏHƏMİYYƏTLİ"; $u_4$ – "DAHA ÇOX ƏHƏMİYYƏTLİ"; $u_5$ - sənədin məxfilik səviyyəsinə təsir dərəcələrini xarakterizə edən "ÇOX BÖYÜK". Sadəcə olaraq, çoxluq ($u_1$, $u_2$, $u_3$, $u_4$, $u_5$) məxfilik amilinin əhəmiyyətinin təsnif edildiyi bir sıra xüsusiyyətlər kimi başa düşülməlidir. Daha sonra məxfilik amilinin sənədin məxfilik səviyyəsinə təsirinin qiymətləndirilməsini təsnif etmək üçün kifayət qədər qeyri-müəyyən

formalı implikativ qaydalar toplusu istifadə edildi: *"Əgər ..., onda ..."* və onların gələcək qiymətləndirmələrin müvafiq dərəcələndirilməsinin əsasını təşkil etmişdir. Beləliklə, qiymətləndirmə şkalasının qurulması üçün aşağıdakı ardıcıl əsaslandırma əsas götürüldü:

$r_1$- "Sənəddə $x_1$, $x_2$ və $x_3$ məxfilik faktoru varsa, onların məxfilik səviyyəsindəki məcmu təsiri əhəmiyyətlidir";

$r_2$ - "Yuxarıda göstərilən məxfilik amillərinə əlavə olaraq $x_6$ faktoru varsa, ümumilikdə onların məxfilik səviyyəsindəki təsiri daha əhəmiyyətli olacaq";

$r_3$ - "$r_2$-də göstərilən şərtlərə əlavə olaraq $x_5$ faktoru varsa, bütün amillərin birgə təsiri çox əhəmiyyətli olacaq";

$r_4$ - "Sənəddə bütün məxfilik faktorları varsa, yəni. $x_1 \div x_6$, onda onların məcmu təsiri çox əhəmiyyətli olacaq ";

$r_5$ – "Sənəddə $x_1$, $x_2$, $x_3$ və $x_4$ amilləri varsa, qalanları: $x_5$ və $x_6$ yoxdursa, məxfilik faktorlarının məxfilik səviyyəsindəki məcmu təsiri yenə də əhəmiyyətli olacaq";

$r_6$ – "Sənəddə $x_1$, $x_2$, $x_4$ və $x_5$ faktorları yoxdursa, məxfilik amilinin təsiri əhəmiyyətsiz olacaqdır".

Yuxarıdakı ifadələrdə giriş xüsusiyyətləri $x_k$ məxfilik faktorunun mövcudluğu (və ya olmaması) (k = 1 ÷ 6) və çıxma y onların sənədin məxfilik səviyyəsinə təsir dərəcəsidir. Sonra $x_k$ ($k$=1÷6) və ya dil dəyişkənlərinin uyğun şərtlərini təyin etdikdən sonra yuxarıdakı ifadələr əsasında qeyri-səlis implikativ qaydalar aşağıdakı şəkildə qurulur:

$r_1$: "Əgər $x_1$ = VARSA VƏ $x_2$ = VARSA VƏ $x_3$ = VARSA, y = ƏHƏMİYYƏTLİ";

$r_2$: "Əgər $x_1$ = VARSA VƏ $x_2$ = VARSA VƏ $X_3$ = VARSA VƏ $x_6$ = VARSA, y = ÇOX ƏHƏMİYYƏTLİDİR";

$r_3$: «Əgər $x_1$= VARSA və $x_2$= VARSA və $x_3$ VARSA və $x_5$= VARSA və $x_6$= VARSA, onda $y$=ÇOX ƏHƏMİYYƏTLİDİR »;

$r_4$: «Əgər $x_1$= VARSA və $x_2$= VARSA və $x_3$= VARSA və $x_4$= VARSA və $x_5$= VARSA və $x_6$= VARSA, onda $y$=HƏDDİNDƏN ÇOX ƏHƏMİYYƏTLİDİR »;

$r_5$: «Əgər $x_1$= VARSA və $x_2$= VARSA və $x_3$= VARSA və $x_4$= VARSA və $x_5$= YOXDURSA və $x_6$= YOXDURSA, onda $y$= ƏHƏMİYYƏTLİDİR»;

$r_6$: «Əgər $x_1$= YOXDUR və $x_2$= YOXDUR və $x_4$= YOXDUR və $x_5$= YOXDURSA, onda $y$= ƏHƏMİYYƏTSİZDİR».

Çıxış linqvistik dəyişən olan y ayrı-ayrılıqda $J$={0; 0.1; …; 1} çoxluğunda verilmişdir. Sonra $x \in J$ üçün $r_1 \div r_6$ qaydalarında istifadə olunan şərtlər uyğun üzvlük funksiyaları olan qeyri-səlis çoxluqlarla təsvir edilə bilər [1,4]: $Y_1$=ƏHƏMİYYƏTLİ: $\mu_{Y1}(x)=x$; $Y_2$=DAHA ÇOX ƏHƏMİYYƏTLİ: $\mu_{Y2}(x)=\sqrt{x}$ ; $Y_3$= ÇOX ƏHƏMİYYƏTLİ: $\mu_{Y3}(x)=x^2$; $Y_4$= HƏDDİNDƏN ÇOX ƏHƏMİYYƏTLİ: $\mu_{Y4}(x)=1$, əgər $x$=1, и $\mu_{Y4}(x)=0$, əgər $x$<1; $Y_0$=ƏHƏMİYYƏTSİZ: $\mu_{Y0}(x)=1-x$. Qaydaların sol hissəsində fazzifikasiya (qeyri-dəqiq nəticə) şərtlərini Qaus mənsubiyyət funksiyalarından istifadə etməklə həyata keçirəcəyik:$\mu(u)=\exp\{-(u-1)^2/\sigma_j^2\}(j=1\div5)$, ($u_1$, $u_2$, $u_3$, $u_4$, $u_5$) qeyri-səlis diskret altçoxluğunu bərpa edən, hansı ki, $u_i=(d_{i-1}+d_i)/2$ ($i$=1÷5) olur (şəkil 1). Bu vəziyyətdə σj, bir "öyrənmə" parametri olmasına baxmayaraq, bu halda müvafiq məxfilik faktorunun əhəmiyyət dərəcəsinə əsasən müəyyən edilir:




Şəkil 1. Məxfilik amillərinin vahid dərəcələndirilməsi

Şəkil 1-də tətbiq olunan dəyişikliklərin qiymətləndirmə səviyyələrinin dərəcəsi ümumi hal üçün təqdim olunur. Lakin sadə bir $x=d_0+t(d_5-d_0)$ ($t \in [0; 1]$) çevrilməsi ilə seqment [$d_0$; $d_5$] asanlıqla [0; 1] vahid seqmentinə çevrilə bilər. Bu səbəbdən, məxfilik faktorlarının əhəmiyyətini nəzərə alaraq tək bir seqment miqyasında qiymətləndirildiyini nəzərə alsaq, haradakı $d_i=0.2i$ ($i$=0÷5), $r_1 \div r_6$ qaydalarının sol tərəfindəki bütün şərtlər aşağıdakı qeyri-səlis çoxluqlar kimi yazıla bilər:

YERİ VAR ($x_1$ və $x_2$ faktorları):

$$A=\frac{0.0392}{u_1}+\frac{0.1409}{u_2}+\frac{0.3679}{u_3}+\frac{0.6977}{u_4}+\frac{0.9608}{u_5};$$

YERİ VAR (faktor $x_3$):

$$B=\frac{0.0183}{u_1}+\frac{0.0889}{u_2}+\frac{0.2910}{u_3}+\frac{0.6412}{u_4}+\frac{0.9518}{u_5};$$

YERİ VAR (faktor $x_4$):

$$C=\frac{0.0063}{u_1}+\frac{0.0468}{u_2}+\frac{0.2096}{u_3}+\frac{0.698}{u_4}+\frac{0.9394}{u_5}$$

YERİ VAR ($x_5$ və $x_6$ faktorları):

$$D=\frac{0.0013}{u_1}+\frac{0.0183}{u_2}+\frac{0.1299}{u_3}+\frac{0.4797}{u_4}+\frac{0.9216}{u_5}$$

Qaydaların bu formatda tərtibatını nəzərə alsaq, $r_1 \div r_6$ aşağıdakı kimi yazılacaq:

$r_1$: «Əgər $x_1=A$ и $x_2=A$ и $x_3=B$, то $y=Y_1$»;

$r_2$: «Əgər $x_1=A$ и $x_2=A$ и $x_3=B$ и $x_6=D$, то $y=Y_2$»;

$r_3$: «Əgər $x_1=A$ и $x_2=A$ и $x_3=B$ и $x_5=D$ и $x_6=D$, то $y=Y_3$»;

$r_4$: «Əgər $x_1=A$ и $x_2=A$ и $x_3=B$ и $x_4=C$ и $x_5=D$ и $x_6=D$, то $y=Y_4$»;

$r_5$: «Əgər $x_1=A$ и $x_2=A$ и $x_3=B$ и $x_4=C$ и $x_5=\neg D$ и $x_6=\neg D$, то $y=Y_1$»;

$r_6$: «Əgər $x_1=\neg A$ и $x_2=\neg A$ и $x_4=\neg C$ и $x_5=\neg D$, то $y=Y_0$».

Bundan əlavə, bu qaydaların sol tərəfləri üçün qeyri-səlis çoxluqların kəsişmə qaydasını [2] tətbiq edərək uyğun üzv funksiyaları müəyyən edilir:

$$M_1=\frac{0.0392}{u_1}+\frac{0.1409}{u_2}+\frac{0.3679}{u_3}+\frac{0.6977}{u_4}+\frac{0.9608}{u_5}$$

$$M_2=\frac{0.0183}{u_1}+\frac{0.0889}{u_2}+\frac{0.2910}{u_3}+\frac{0.6412}{u_4}+\frac{0.9518}{u_5}$$

$$M_3=\frac{0.0063}{u_1}+\frac{0.0468}{u_2}+\frac{0.2096}{u_3}+\frac{0.5698}{u_4}+\frac{0.9394}{u_5}$$

$$M_4=\frac{0.0013}{u_1}+\frac{0.0183}{u_2}+\frac{0.1299}{u_3}+\frac{0.4797}{u_4}+\frac{0.9216}{u_5}$$

$$M_5=\frac{0.0013}{u_1}+\frac{0.0183}{u_2}+\frac{0.1299}{u_3}+\frac{0.3023}{u_4}+\frac{0.0390}{u_5}$$

$$M_6=\frac{0.9608}{u_1}+\frac{0.8591}{u_2}+\frac{0.6321}{u_3}+\frac{0.3023}{u_4}+\frac{0.0392}{u_5}$$

Nəticədə qaydalar daha kompakt formada yazılacaq:

$r_1$: “Əgər X = $M_1$ olarsa, Y = $Y_1$”; $r_2$: “Əgər X = $M_2$ olarsa, Y = $Y_2$”;

$r_3$: “X = $M_3$ olarsa, Y = Y3”; $r_4$: “Əgər X = $M_4$ olarsa, Y = $Y_4$”;

$r_5$: “Əgər X = $M_5$ olarsa, Y = $Y_1$”; $r_6$: “Əgər X = $M_6$ olarsa, Y = $Y_0$”.

Lukaseviç ifadəsindən istifadə edərək bu qaydaların çevrilməsi: μ (u) = min {1, 1-μ (x) + μ (y)} [5], qeyri-səlis əlaqələrin (matrislər) $R_1$, $R_2$, .. ., $R_6$ matris şəklində kəsişməsi aşağıdakı ümumi funksional həll verdi:

$R =$

| | 0 | 0.1 | 0.2 | 0.3 | 0.4 | 0.5 | 0.6 | 0.7 | 0.8 | 0.9 | 1 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| $n_1$ | 0.9608 | 0.9937 | 0.9937 | 0.9492 | 0.8792 | 0.7892 | 0.6792 | 0.5492 | 0.3992 | 0.2292 | 0.0392 |
| $n_2$ | 0.8591 | 0.9532 | 0.9532 | 0.9532 | 0.9532 | 0.8909 | 0.7809 | 0.6509 | 0.5009 | 0.3309 | 0.1409 |
| $n_3$ | 0.6321 | 0.7321 | 0.7904 | 0.7904 | 0.7904 | 0.7904 | 0.7904 | 0.7904 | 0.7279 | 0.5579 | 0.3679 |
| $n_4$ | 0.3023 | 0.4023 | 0.4302 | 0.4302 | 0.4302 | 0.4302 | 0.4302 | 0.4302 | 0.4302 | 0.4302 | 0.6977 |
| $n_5$ | 0.0392 | 0.0606 | 0.0606 | 0.0606 | 0.0606 | 0.0606 | 0.0606 | 0.0606 | 0.0606 | 0.0606 | 0.9608 |

Sənəddəki məlumatın məxfilik səviyyəsi barədə R matrisinin k-ci sırası (k=1÷5) təsir dərəcəsindən asılı olaraq məxfilik faktorunun mövcudluğunun k-ci səviyyəsi ilə bağlı qeyri-səlis bir nəticə olacaqdır. Yəni, məsələn, məxfilik faktorunun mövcudluğunun 1-ci səviyyəsi aşağıdakı qeyri-səlis çoxluğu əks etdirir:

$$E_1 = \frac{0.9608}{0} + \frac{0.9937}{0.1} + \frac{0.9937}{0.2} + \frac{0.9492}{0.3} + \frac{0.8792}{0.4} + \frac{0.7892}{0.5} + $$

$$+ \frac{0.6792}{0.6} + \frac{0.5492}{0.7} + \frac{0.3992}{0.8} + \frac{0.2292}{0.9} + \frac{0.0392}{1.0}.$$

Defazzifikasiya qaydası tətbiq edildikdən sonra qeyri-səlis çıxış qiymət $E_1$-in ədədi şərhi və ya nöqtə qiymətləndirməsi $F(E_1) = 0.3268$ alınır.

Qalan nəticələr üçün qiymətlər oxşar qaydada qiymətləndirmə konsepsiyası səviyyəsində təyin edilir: $u_2 - F(E_2)$=0.3714; $u_3 - F(E_3)$=0.4578; $u_4 - F(E_4)$=0.6431; $u_5 - F(E_5)$=0.9608.

Sonra qəbul edilmiş fərziyyələrdə məxfilik amilinin sənəddəki məlumatın məxfilik səviyyəsinə təsir dərəcəsini qiymətləndirmək üçün son cədvəl cədvəl 1-də göstərildiyi kimi görünəcəkdir.

Tətbiq olunan qeyri-səlis modelin qeyri-müəyyənləşdirilmiş çıxışı olan 0.3268 dəyəri, bu qiymətləndirmənin “Əhəmiyyətsiz təsir göstərmişdir” kimi xarakterizə olunduğu intervalın yuxarı sərhəddidir.

Uyğun olaraq: 0.3714 “Əhəmiyyətli təsir göstərir” qiymətləndirməsi üçün yuxarı sərhəddir; 0.4578 “Əhəmiyyətli dərəcədə çox təsir göstərir” qiymətləndirməsi üçün yuxarı sərhəddir; 0.6431 “Çox əhəmiyyətli bir təsirə malikdir” qiymətləndirməsi üçün yuxarı sərhəddir; 0.9608 “Həddindən artıq əhəmiyyətlidir” üçün yuxarı sərhəddir.

**Cədvəl 1**

**Sənəddə məlumatın təhlükəsizliyi üçün məxfilik faktor təsnifatları**

| **Xüsusiyyət adı** | **İnterval** |
|---|---|
| 1. Əhəmiyyətsiz təsir göstərir | [0; 0.3268] |
| 2. Əhəmiyyətli təsir göstərir | (0.3268; 0.3714] |
| 3. Əhəmiyyətli dərəcədə çox təsir göstərir | (0.3714; 0.4578] |
| 4. Çox əhəmiyyətli təsir göstərir | (0.4578; 0.6431] |
| 5. Həddindən artıq əhəmiyyətli təsir göstərir | (0.6431; 0.9608] |

**Mütəxəssis qiymətləndirmələrinin birləşdirilməsi**

Mütəxəssislərin sənəddəki məlumatın məxfilik səviyyəsinə təsiri baxımından məxfilik faktorunun olması ilə bağlı nəticələrini ümumiləşdirmək üçün aşağıdakı əsaslar əsas götürüldü:

$r_1$ - “Mütəxəssis qiymətləndirilən sənəddə məxfilik faktorunu müəyyən etmişdirsə: $x_1$, $x_2$ və $x_3$, o zaman qiymətləndirilən sənədə daxil ediləcək məlumatın məxfilik səviyyəsi əhəmiyyətli olacaqdır”;

$r_2$ – Mütəxəssis məxfiliyin 4 faktorunu müəyyən etmişdirsə: $x_1$, $x_2$, $x_3$ və $x_6$, o zaman qiymətləndirilən sənədə daxil ediləcək məlumatın məxfilik səviyyəsi əhəmiyyətli dərəcədən çox olacaqdır”;

$r_3$ – “Mütəxəssis məxfiliyin 4 faktorunu müəyyən etmişdirsə: $x_1$, $x_2$, $x_3$ və $x_6$, o zaman qiymətləndirilən sənədə daxil ediləcək məlumatın məxfilik səviyyəsi əhəmiyyətli dərəcədən çox olacaqdır”;

$r_4$ – "Təhlil prosesində mütəxəssis bütün növ məxfilik faktorlarını müəyyənləşdiribsə, qiymətləndirilən sənədə daxil ediləcək məlumatların məxfilik səviyyəsi həddindən artıq əhəmiyyətli olacaqdır";

$r_5$ – "Mütəxəssis tərəfindən müəyyən edilmiş məxfilik faktorları arasında yalnız $x_1$, $x_2$, $x_3$ və $x_4$ əhəmiyyətlidirsə, qalanları, yəni $x_5$ və $x_6$ əhəmiyyətsizdir, məlumatın məxfilik səviyyəsi yenə də əhəmiyyətli olacaq";

$r_6$ – "Bir mütəxəssisin nəzərdən keçirməsi zamanı məxfilik faktoru aşkarlanmırsa: $x_1$, $x_2$, $x_3$ və $x_6$, o zaman məlumatın məxfilik səviyyəsi əhəmiyyətsiz olacaq".

Bu mülahizələrin təhlili $x_k(k=1\div6)$ şəklində təqdim olunan 6 qiymətləndirmə meyarını seçməyə imkan verir və $y$ - çıxışı, sənədə daxil ediləcək məlumatın məxfilik səviyyəsidir.

Bu ifadələrə əsasən, aşağıdakı formada qeyri-səlis implikativ qaydaları qurmaq olar:

$r_1$: «Əgər $x_1$= GÖRÜNƏN və $x_2$= GÖRÜNƏN və $x_3$= GÖRÜNƏN, onda $y$=ƏHƏMİYYƏTLİ»;

$r_2$: «Əgər $x_1$= GÖRÜNƏN və $x_2$= GÖRÜNƏN və $x_3$= GÖRÜNƏN və $x_6$= GÖRÜNƏN, onda $y$=DAHA ƏHƏMİYYƏTLİ »;

$r_3$: «Əgər $x_1$= GÖRÜNƏN və $x_2$= GÖRÜNƏN və $x_3$= GÖRÜNƏN и $x_5$= GÖRÜNƏN və $x_6$= GÖRÜNƏN, onda $y$= DAHA ÇOX ƏHƏMİYYƏTLİ »;

$r_4$: «Əgər $x_1$= GÖRÜNƏN və $x_2$= GÖRÜNƏN və $x_3$= GÖRÜNƏN и $x_4$= GÖRÜNƏN и $x_5$= GÖRÜNƏN və $x_6$= GÖRÜNƏN, onda $y$=HƏDDƏN ÇOX ƏHƏMİYYƏTLİ »;

$r_5$: «Если $x_1$= GÖRÜNƏN və $x_2$= GÖRÜNƏN və $x_3$= GÖRÜNƏN və $x_4$= GÖRÜNƏN və $x_5$= GÖRÜNMƏZ və $x_6$= GÖRÜNMƏZ, onda $y$= ƏHƏMİYYƏTLİ »;

$r_6$: «Если $x_1$= GÖRÜNMƏZ və $x_2$= GÖRÜNMƏZ və $x_4$= GÖRÜNMƏZ və $x_5$= GÖRÜNMƏZ, onda $y$=ƏHƏMİYYƏTSİZ».

Çıxış linqvistik dəyişən olan y, həmçinin J = {0; 0.1; 0.2; ...; 1} diskret çoxluqda və onun şərtləri - əvvəlki hissədə təqdim olunan $Y_0$, $Y_1$, $Y_2$, $Y_3$ и $Y_4$ üzvlük funksiyalarından istifadə etməklə verilir.

Qaydaların sol hissəsində fazzifikasiya (qeyri-dəqiq nəticə) şərtlərini Qaus mənsubiyyət funksiyalarından istifadə etməklə həyata keçirəcəyik: $\mu(u)=\exp\{-(u-100)^2/\sigma_j^2\}$ ($j$=1÷8), ($e_1$, $e_2$, …, $e_{18}$) vektor boyunca qeyri-səlis çoxluqları təsvir edən, hardakı $\sigma_j^2$ –ətraf elementlərin yerləşməsinin sıxlığıdır, bütün hallar üçün eyni qəbul edilir, yəni $\sigma_j^2$=2500; $e_j$- yüz ballıq sistemə uyğun olaraq $x_k$ ($k$=1÷6) dəyərinin $j$-ci ekspertin qiymətləndirməsidir. İndi $x_k$ ($k$=1÷6) məxfilik faktorunun əhəmiyyəti ilə bağlı bütün mütəxəssislərin rəyləri cədvəl 2 şəklində verilmişdir.

**Cədvəl 2**

**Məxfiliyin vacibliyi faktoru barədə mütəxəssis qiymətləndirməsi**

| MF | Mütəxəssis qeydi | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | $e_1$ | $e_2$ | $e_3$ | $e_4$ | $e_5$ | $e_6$ | $e_7$ | $e_8$ | $e_9$ |
| $x_1$ | 0 | 0 | 25 | 100 | 20 | 50 | 90 | 80 | 100 |
| $x_2$ | 0 | 0 | 25 | 100 | 20 | 50 | 90 | 80 | 100 |
| $x_3$ | 0 | 0 | 25 | 100 | 20 | 100 | 90 | 85 | 100 |
| $x_4$ | 0 | 0 | 25 | 100 | 20 | 100 | 90 | 80 | 100 |
| $x_5$ | 0 | 0 | 25 | 100 | 20 | 10 | 90 | 20 | 80 |
| $x_6$ | 0 | 0 | 0 | 70 | 0 | 0 | 0 | 30 | 80 |
| MF | Mütəxəssis qeydi | | | | | | | | |
| | $e_{10}$ | $e_{11}$ | $e_{12}$ | $e_{13}$ | $e_{14}$ | $e_{15}$ | $e_{16}$ | $e_{17}$ | $e_{18}$ |
| $x_1$ | 100 | 100 | 50 | 50 | 100 | 100 | 80 | 80 | 80 |
| $x_2$ | 100 | 100 | 50 | 50 | 100 | 100 | 90 | 80 | 80 |
| $x_3$ | 100 | 100 | 100 | 100 | 100 | 100 | 90 | 100 | 100 |
| $x_4$ | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| $x_5$ | 100 | 85 | 100 | 100 | 100 | 100 | 100 | 80 | 80 |
| $x_6$ | 100 | 85 | 50 | 50 | 100 | 100 | 100 | 75 | 75 |

Xüsusilə belə bir fazzifikasiyadan sonra "GÖRÜNƏN" (MF – $x_1$) termini aşağıdakı qeyri-səlis çoxluq kimi təmsil olunur:

$$X_1 = \frac{0.0183}{e_1} + \frac{0.0183}{e_2} + \frac{0.1054}{e_3} + \frac{1}{e_4} + \frac{0.0773}{e_5} + \frac{0.3679}{e_6} +$$
$$+ \frac{0.9608}{e_7} + \frac{0.8521}{e_8} + \frac{1}{e_9} + \frac{1}{e_{10}} + \frac{1}{e_{11}} + \frac{0.3679}{e_{12}} + \frac{0.3679}{e_{13}} +$$
$$+ \frac{1}{e_{14}} + \frac{1}{e_{15}} + \frac{0.8521}{e_{16}} + \frac{0.8521}{e_{17}} + \frac{0.8521}{e_{18}};$$

Sonra tətbiq olunan formalizmlər nəzərə alınmaqla, $r_1 \div r_6$ qaydaları aşağıdakı kimi formalaşacaqdır:

$r_1$: «Əgər $x_1=X_1$ и $x_2=X_2$ и $x_3=X_3$, то $y=Y_1$»;
$r_2$: «Əgər $x_1=X_1$ и $x_2=X_2$ и $x_3=X_3$ и $x_6=X_6$, то $y=Y_2$»;
$r_3$: «Əgər $x_1=X_1$ и $x_2=X_2$ и $x_3=X_3$ и $x_5=X_5$ и $x_6=X_6$, то $y=Y_3$»;
$r_4$: «Əgər $x_1=X_1$ и $x_2=X_2$ и $x_3=X_3$ и $x_4=X_4$ и $x_5=X_5$ и $x_6=X_6$, то $y=Y_4$»;
$r_5$: «Əgər $x_1=X_1$ и $x_2=X_2$ и $x_3=X_3$ и $x_4=X_4$ и $x_5=X_5$ и $x_6=X_6$, то $y=Y_1$»;
$r_6$: «Əgər $x_1=X_1$ и $x_2=X_2$ и $x_4=X_4$ и $x_5=X_5$, то $y=Y_0$».

Əvvəlki vəziyyətdə olduğu kimi, sol hissələr üçün qeyri-səlis çoxluqların kəsişmə qaydasını tətbiq edərək müvafiq üzvlük funksiyaları müəyyən edilir:

$r_1$: $\mu_{M_1} = \min\{\mu_{X_1}(e), \mu_{X_2}(e), \mu_{X_3}(e)\}$;

$r_2$: $\mu_{M_2} = \min\{\mu_{X_1}(e), \mu_{X_2}(e), \mu_{X_3}(e), \mu_{X_6}(e)\}$;

$r_3$: $\mu_{M_3} = \min\{\mu_{X_1}(e), \mu_{X_2}(e), \mu_{X_3}(e), \mu_{X_5}(e), \mu_{X_6}(e)\}$;

$r_4$: $\mu_{M_4} = \min\{\mu_{X_1}(e), \mu_{X_2}(e), \mu_{X_3}(e), \mu_{X_4}(e), \mu_{X_5}(e), \mu_{X_6}(e)\}$;

$r_5$: $\mu_{M_5} = \min\{\mu_{X_1}(e), \mu_{X_2}(e), \mu_{X_3}(e), \mu_{X_4}(e), 1-\mu_{X_5}(e), 1-\mu_{X_6}(e)\}$;

$r_6$: $\mu_{M_6} = \min\{1-\mu_{X_1}(e), 1-\mu_{X_2}(e), 1-\mu_{X_4}(e), 1-\mu_{X_5}(e)\}$.

Bu qaydadan sonra ifadə daha da yığcam görünəcək, yəni:

$r_1$: «Əgər $X=M_1$, то $Y=Y_1$»; $r_2$: «Если $X=M_2$, то $Y=Y_2$»;
$r_3$: «Əgər $X=M_3$, то $Y=Y_3$»; $r_4$: «Если $X=M_4$, то $Y=Y_4$»;
$r_5$: «Əgər $X=M_5$, то $Y=Y_1$»; $r_6$: «Если $X=M_6$, то $Y=Y_0$».

Lukaseviç implikasiyası əsasında bu qaydaların icrası aşağıdakı matris şəklində ümumi funksional həlli verdi [5]:

| | 0 | 0,1 | 0,2 | 0,3 | 0,4 | 0,5 | 0,6 | 0,7 | 0,8 | 0,9 | 1 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| e1 | 0,9817 | 0,9183 | 0,8183 | 0,7183 | 0,6183 | 0,5183 | 0,4183 | 0,3183 | 0,2183 | 0,1183 | 0,0183 |
| e2 | 0,9817 | 0,9183 | 0,8183 | 0,7183 | 0,6183 | 0,5183 | 0,4183 | 0,3183 | 0,2183 | 0,1183 | 0,0183 |
| e3 | 0,8946 | 0,9817 | 0,9054 | 0,8054 | 0,7054 | 0,6054 | 0,5054 | 0,4054 | 0,3054 | 0,2054 | 0,1054 |
| e4 | 0,0000 | 0,1000 | 0,2000 | 0,3000 | 0,4000 | 0,5000 | 0,6000 | 0,6321 | 0,6321 | 0,6321 | 1,0000 |
| e5 | 0,9227 | 0,9773 | 0,8773 | 0,7773 | 0,6773 | 0,5773 | 0,4773 | 0,3773 | 0,2773 | 0,1773 | 0,0773 |
| e6 | 0,6321 | 0,7321 | 0,8321 | 0,9321 | 0,9817 | 0,9817 | 0,9817 | 0,9817 | 0,9817 | 0,9817 | 1,0000 |
| e7 | 0,0392 | 0,1392 | 0,2392 | 0,3392 | 0,4392 | 0,5392 | 0,6392 | 0,7392 | 0,8392 | 0,9392 | 0,9608 |
| e8 | 0,1479 | 0,2479 | 0,3479 | 0,4479 | 0,5479 | 0,6479 | 0,7479 | 0,8479 | 0,9479 | 0,9608 | 0,9139 |
| R= e9 | 0,0000 | 0,1000 | 0,2000 | 0,3000 | 0,4000 | 0,4727 | 0,4727 | 0,4727 | 0,4727 | 0,4727 | 1,0000 |
| e10 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 1,0000 |
| e11 | 0,0000 | 0,1000 | 0,2000 | 0,3000 | 0,3874 | 0,3874 | 0,3874 | 0,3874 | 0,3874 | 0,3874 | 1,0000 |
| e12 | 0,6321 | 0,7321 | 0,8321 | 0,9227 | 0,9227 | 0,9227 | 0,9227 | 0,9227 | 0,9227 | 0,9227 | 1,0000 |
| e13 | 0,6321 | 0,7321 | 0,8321 | 0,8946 | 0,8946 | 0,8946 | 0,8946 | 0,8946 | 0,8946 | 0,8946 | 1,0000 |
| e14 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 1,0000 |
| e15 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 0,0000 | 1,0000 |
| e16 | 0,1479 | 0,1479 | 0,1479 | 0,1479 | 0,1479 | 0,1479 | 0,1479 | 0,1479 | 0,1479 | 0,1479 | 1,0000 |
| e17 | 0,1479 | 0,2479 | 0,3479 | 0,4479 | 0,5479 | 0,6321 | 0,6321 | 0,6321 | 0,6321 | 0,6321 | 1,0000 |
| e18 | 0,1479 | 0,2479 | 0,3479 | 0,4479 | 0,5479 | 0,6321 | 0,6321 | 0,6321 | 0,6321 | 0,6321 | 1,0000 |

Məxfilik faktorunun təsir dərəcəsindən asılı olaraq mütəxəssislərin məcmu qiymətləndirməsini təyin etmək üçün qeyri-səlis mühitdə kompozisiya nəticəsi qaydasından istifadə edilmişdir. Bu qaydaya görə, məsələn, 1-ci mütəxəssisin ($e_1$) gələcək sənədə daxil ediləcək məlumatın məxfilik dərəcəsi ilə bağlı qeyri-səlis nəticəsi aşağıdakı qeyri-səlis dəst ($R$ matrisinin 1-ci sətri) olacaqdır:

$$E_1 = \frac{0.9817}{0} + \frac{0.9183}{0.1} + \frac{0.8183}{0.2} + \frac{0.7183}{0.3} + \frac{0.6183}{0.4} +$$
$$+ \frac{0.5183}{0.5} + \frac{0.4183}{0.6} + \frac{0.3183}{0.7} + \frac{0.2183}{0.8} + \frac{0.1183}{0.9} + \frac{0.0183}{1.0}.$$

Mütəxəssislərin gələcək sənədə daxil ediləcək məlumatın məxfilik dərəcəsi ilə bağlı aydın olmayan nəticələrinin ədədi şərhi üçün defazzifikasiya proseduru da tətbiq olunur, nəticədə aşağıdakı konsolidasiya olunmuş ekspert qiymətləndirmələri müəyyən edilmişdir:

$F(E_1)$=0.2385; $F(E_2)$=0.2385; $F(E_3)$=0.2861; $F(E_4)$=0.8002; $F(E_5)$=0.2725; $F(E_6)$=0.5491; $F(E_7)$=0.7454; $F(E_8)$=066910; $F(E_9)$=0.8318; $F(E_{10})$=1; $F(E_{11})$=0.8538; $F(E_{12})$=0.5672; $F(E_{13})$=0.5771; $F(E_{10})$=1; $F(E_{10})$=1; $F(E_{16})$=0.9261; $F(E_{17})$=0.7550; $F(E_{18})$=0.7550.

Xüsusilə yuxarıda göstərilən dərəcəyə əsasən (cədvəl 1-ə əsasən), 1-ci mütəxəssis $e_1$-in 0,2385 kimi qiymətləndirməsi onun aşkarladığı $x_k$ məxfilik faktorunu ($k$=1÷6) xarakterizə edir, bu, məlumatın məxfiliyi səviyyəsinə cüzi təsir göstərir.

## Nəticə

Qeyri-səlis məntiqi qaydalar sisteminin istifadəsi onsuz da ilkin mərhələdə məlumatların məxfilik dərəcələri ilə bağlı ekspert qiymətləndirmələrini yaradılacaq sənədə daxil etməyə imkan verir. Mütəxəssis rəylərin birləşdirilməsi üçün müvafiq məxfilik möhürünün seçilməsi ilə bağlı konsolidasiya edilmiş qərar qəbul edilməsinə imkan verən vahid reytinq ölçüsü formalaşdırılmışdır.

**Afət Süleymanova**

**Məlumatların məxfiliyinin mütəxəssislərin rəylərinə əsasən hərtərəfli qiymətləndirilməsi**

**Xülasə**

Yaradılacaq sənədə daxil ediləcək məlumatların adekvat təsnifatının vaxtında qurulmasına şərait yaratmaq üçün ilkin şərtlər məqalədə nəzərdən keçirilir. Məxfilik səviyyəsini qiymətləndirmək üçün sənədləşdirilmiş məlumatda mövcud olan məxfilik faktorları ilə bağlı ekspert rəylərindən istifadə edərək qeyri-səlis nəticə mexanizmi istifadə olunur. Mütəxəssislərin məcmu qiymətləndirməsini təyin etmək üçün qeyri-səlis mühitdə kompozisiya qaydası tətbiq edilmişdir. Gələcək sənədə daxil ediləcək məlumatın məxfilik dərəcəsi ilə bağlı aydın olmayan nəticələrinin ədədi şərhi üçün fazzifikasiya və defazzifikasiya proseduru da tətbiq olunur. Bu yanaşma gələcəkdə daxil ediləcək məlumatların məxfiliyinin daha obyektiv qiymətləndirilməsinə kömək edir.

**Афат Сулейманова**

**Всесторонняя оценка конфиденциальности сведений на основе экспертных заключений**

**Резюме**

В статье рассматриваются предпосылки для создания условий по своевременному установлению адекватного грифа конфиденциальности сведений, подлежащих включению в будущий документ. Для оценки уровней секретности использован механизм нечёткого вывода с использованием экспертных заключений относительно факторов конфиденциальности, присутствующих в документированной информации. Правило композиции применялось в нечеткой среде для определения общей оценки экспертов. Процедура фазификация и дефазификация также используется для количественной оценки последствий неоднозначности информации, которая будет включена в будущий документ. Такой подход помогает более объективно оценить конфиденциальность будущей информации.

**Afet Suleymanova**

**Integrated assessment of information confidentiality on the basy of expert opinions**

**Summary**

The prerequisites for creating conditions for the timely establishment of an adequate classification of data to be included in a future document to be developed are considered. To assess the confidentiality level, a fuzzy inference mechanism was used with the use of expert conclusions regarding confidentiality factors present in the documented information. The composition rule was applied in a fuzzy environment to determine the overall assessment of the experts. The procedure of fasification and defasification is also used to quantify the consequences of the ambiguity of the information to be included in the future document. This approach helps to more objectively assess the confidentiality of future information.

**Ədəbiyyat**

1. А.И.Алексенцев. О классификации конфиденциальной информации по видам тайны // Безопасность информационных технологий. 1999. №3. стр. 70–71.
2. А.И.Алексенцев. О составе защищаемой информации // Безопасность информационных технологий. 1999. №2. стр. 11–12.
3. Р.Р.Рзаев. Аналитическая поддержка принятия решений в организационных системах. – Saarbruchen (Germany): Palmerium Academic Publishing, 2016. стр. 306
4. Л.А.Заде. «Роль мягких вычислений и нечёткой логики в понимании, конструировании и развитии информационных/интеллектуальных систем», Новости Искусственного Интеллекта, № 2-3, стр. 7-11, 2001.
5. Р.Р.Рзаев. Аналитическая поддержка принятия решений в организационных системах, Palmarium Academic Publishing. 2016.

Məqalə redaksiyaya daxil olmuşdur: 02.03.2021
Təkrar işlənməyə göndərilmişdir: 05.03.2021
Çap üçün qəbul olunmuşdur: \. \.

UOT: 331.5
DOI:

# REGİONLARDA MƏŞĞULLUQ PROBLEMİNİN YARANMASINA SƏBƏB OLAN SOSİAL-İQTİSADİ AMİLLƏR

***Sevda Həsənova***
*Bakı Avrasiya Universitetinin doktorantı*
*AZ 1073 Bakı şəhəri, Ak. Həsən Əliyev küçəsi 135A*
*e-poçt: sevda.hesenova.73@mail.ru*

**Açar sözlər:** sosial-iqtisadi inkişaf, sosial infrastruktur, sosial bərabərsizlik, səmərəlilik, əmək bazarı, əmək ehtiyatları, kadr hazırlığı, məşğulluq.
**Ключевые слова:** социально-экономическое развитие, социальная инфраструктура, социальное неравенство, эффективность, рынок труда, трудовые ресурсы, подготовка кадров, занятость.
**Keywords:** socio-economic development, social infrastructure, social inequality, efficiency, labor market, labor resources, personnel training, employment.

**Giriş.** Müasir şəraitdə innovasiyayönümlü iqtisadiyyat və güclü sosial dövlət şəraitində əhalinin səmərəli məşğulluğunun formalaşdırılması aparıcı problemlərdəndir. Keyfiyyətli əmək potensialından səmərəli istifadə edilməsi, sahə və peşə strukturlarının əmək mobilliyinin formalaşdırılması, sahələr və bölgələr arasında işçi qüvvəsinin səmərəli paylanması ölkə iqtisadiyyatı üçün vacib məsələlərdəndir. Effektiv məşğulluq onun subyektləri, prinsipləri və əmək resurslarından maksimum səmərəli istifadə zamanı onun formalaşması amilləri vasitəsilə özünü göstərir. Əhalinin məşğulluğu onun təkrar istehsalı üçün zəruri şərt hesab edilir. Çünki insanların həyat səviyyəsi, kadrlar potensialının seçilməsi, hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması, onların işlə təmin edilməsi, işsizlərin maddi dəstəyi ondan asılıdır. Məşğulluq insanın əmək və əmək sahəsinə olan tələbatının ödənilməsi ilə bağlı sosial inkişafının ən mühüm aspektlərindən birini ortaya qoyur. O, vətəndaşların şəxsi və ictimai tələbatlarının ödənilməsi ilə bağlı, qanunvericiliyə zidd olmayan və onlara qazanc gətirən fəaliyyətidir. Məşğulluğu insanların daxil olduğu ictimai-iqtisadi münasibətlərin məcmusu kimi müəyyən etmək olar. Məşğulluq və onun effektivliyinin artırılması yolları həm makro, həm mikro səviyyədə, eyni zamanda dövlət, müəssisə, ayrı-ayrı fərdlər səviyyəsində hər bir subyektin vəzifələrinə uyğun olaraq müxtəlif şəkildə nəzərdən keçirilə bilər. Dinamik və rəqabətədavamlı iqtisadiyyatı təmin etmək üçün əmək bazarı yaxşı işləyən, sürətlə yeni bacarıqlara yiyələnə biləcək yüksək ixtisaslı işçi qüvvəsinin mövcudluğunu zəruri şərt kimi qəbul edir. Məşğulluq sosial-iqtisadi kateqoriya kimi işçi qüvvəsinə olan tələbatın ödənilməsi məqsədilə əməyin konkret kooperasiyasında iştirakına dair insanlar arasında istehsalat münasibətlərini ifadə edir. Ölkə iqtisadiyyatının cari vəziyyəti və struktur dəyişiklikləri haqqında təsəvvür əldə etmək üçün həmin ölkədə məşğulluq səviyyəsinin qiymətləndirilməsi əsas şərtdir. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə ən əsas problemlərdən biri işsizlikdir. Belə vəziyyətdə işsizliyə qarşı mübarizədə tətbiq olunacaq məşğulluq siyasəti ölkənin iqtisadi inkişafı istiqamətində aparılan əhəmiyyətli siyasət hesab olunur. Ölkədə işədüzəltmə imkanlarının artırılması iqtisadi tərəqqinin və sosial təminatın təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

**Təhlil.** Əmək bazarının inkişaf dinamikasını təhlil edərkən aydın olur ki, keçən əsrin sonlarından başlayaraq, Azərbaycan iqtisadiyyatda mövcud sabit artım tempi sosialyönümlü inkişafı təmin etmişdir. İnkişafın nəticəsi olaraq Azərbaycanda əhalinin həyat səviyyəsi yüksəlmiş, yeni iş yerləri açılmış və məşğulluğun artırılması üçün sağlam mühit yaradılmışdır. Ölkədə makroiqtisadi göstəricilərin yüksəlməsi əmək bazarına əsaslı təsir göstərmişdir. Sosial-iqtisadi inkişafla əhalinin məşğulluğu sahəsindəki bağlılıq bu istiqamətdə tədqiqatların aparılmasını tələb edir. Əmək bazarının sistemli monitorinqinin aparılması, tələblə təklif arasında nisbətin müəyyənləşdirilməsi, bazarın formalaşmasında və inkişafı istiqamətində yaranan problemlərin təhlili xüsusi diqqət tələb edir. Məlumdur ki, regionlar üzrə məşğulluq problemlərinin yaranma səbəbi sosial-iqtisadi amillərlə bilavasitə əlaqəlidir. Ölkədə yüksək iqtisadi inkişafa nail olunduğu bir dövrdə də əmək

resurslarından səmərəli istifadə olunmaması mənfi nəticələrə səbəb olur. Dövlətin apardığı sosial siyasət əhalinin həyat səviyyəsinin və sosial rifahının yaxşılaşmasına əsaslı təsir edir. Sosial siyasətin strateji istiqamətləri ölkədə mövcud olan sosial-iqtisadi problemlərin həlli, pul gəlirlərinin tənzimlənməsi, məşğulluğun təmin olunması, eyni zamanda əməkhaqqının yaşayış minimumuna çatdırılması, əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadrların yetişdirilməsi məqsədilə təhsildə keyfiyyətin artırılmasından ibarətdir. Regionlarda sosial rifahın yaxşılaşdırılması dedikdə, əsasən, sosial infrastrukturun təkmilləşdirilməsi və inkişaf etdirilməsi, səmərəli məşğulluğun təmin edilməsi, cəmiyyətdə insanların hüquqlarının müdafiəsi və aztəminatlı əhalinin sosial müdafiəsinin təşkili nəzərdə tutulur. Regionların sosial-iqtisadi inkişafı bir çox ölkələrin iqtisadi siyasətinin əsas istiqamətlərini müəyyən edir. Ölkəmizdə də regionların sosial-iqtisadi inkişafına dövlətin həyata keçirdiyi islahatlar nəticəsində nail olunmuşdur. Məqsədyönlü aparılmış sosial-iqtisadi siyasət nəticəsində son illərdə Azərbaycanın regionlarında infrastruktur formalaşmışdır. Regionlara yerli və xarici investisiyaların cəlb edilməsi üçün əlverişli infrastruktur yaradılmış, biznesin inkişafına nail olunmuş, yeni iş yerləri formalaşmış, yoxsulluq göstəricisi aşağı düşmüş və məşğulluğun səviyyəsində yüksəliş əldə edilmişdir. Ölkəmizdə aparılan uğurlu islahatların nəticəsidir ki, Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik İndeksi 2019" hesabatında Azərbaycan MDB məkanında yüksək nəticə qazanmışdır [5, səh.11].

Məşğul əhalinin ayrı-ayrı qrupları arasındakı sosial fərqlər sosial bərabərsizliyin əlamətlərinə görə tanınır. Hazırda dünyanın 72 ölkəsində əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə fondlar fəaliyyət göstərir. Ölkəmizdə 2018-ci il 1 yanvar tarixindən etibarən işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, onların aktiv məşğulluq tədbirlərinə cəlb olunması məqsədilə işsizlikdən sığorta sisteminin tətbiqinə başlanılmışdır. Bu fəaliyyət "İşsizlikdən sığorta haqqında Azərbaycan Respublikasının Qanunu" ilə tənzimlənir. 2019-cu il dövlət büdcəsinin layihəsi ilə birlikdə "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi hazırlanmışdır. Beş maddədən ibarət olan qanun layihəsində 2019-cu il üçün fondun gəlir və xərcləri 83451,4 min manat praqnozlaşdırılmışdır. Həmçinin növbəti il üçün də gəlirlərin formalaşdırılması mənbələri, xərclərin istiqamətləri müəyyənləşdirilmişdir [3, səh.4-5]. İşsizlikdən sığorta ödənişlərinin yalnız iki kateqoriya şəxslərə şamil edilməsi nəzərdə tutulmuşdur:

1. Hüquqi şəxslərin və ya dövlət orqanının ləğv edilməsi.
2. Ştatların və işçilərin sayının ixtisarı ilə əlaqədar əmək müqavilələrinə xitam verilmiş şəxslərə.

Bu kateqoriyadan olan işçilər "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada Məşğulluq İdarəsində işsiz kimi qeydiyyata alınmalıdırlar. Qanunun tələblərinə əsasən sığorta ödənişi almış şəxsə növbəti dəfə yenidən sığorta ödənişi təyin olunması üçün ən azı növbəti 12 ay sığorta stajı olması tələb olunur. Deyə bilərik ki, indiki dövrümüzdə də Azərbaycanda geniş tətbiq edilən işsizlik sığorta sisteminin yaratdığı maliyyə imkanları əsasında aktiv əmək bazarı tədbirləri genişləndirilməkdədir. Hal-hazırda ölkəmizdə səmərəli məşğulluğun təmin olunması üçün vacib hesab olunan işçi qüvvəsinin bacarığının təkmilləşdirilməsi, qeyri-formal məşğulluğun səviyyəsinin azaldılması, həssas sosial qruplara aid olan şəxslərin əmək bazarına inteqrasiyasının dəstəklənməsi və bir sıra mühüm məsələlərə xüsusi diqqət yetirilir. Göstərilən bu kimi məsələlər əsas hədəf olaraq Azərbaycan Respublikasında 2030-cu ilə qədər olan dövrü əhatə edən Məşğulluq Strategiyasının tədbirlər planında öz əksini tapmışdır. Məşğulluq strukturu sosial cəhətdən iqtisadiyyatda işləyənlərin sayının cins, yaş və təhsil səviyyəsinə görə bölüşdürülməsini əks etdirir. Bu baxımdan, deyə bilərik ki, ölkə əhalisinin məşğulluq quruluşunu xarakterizə edən əsas göstəricilərdən biri də iqtisadiyyatda məşğul olanların iqtisadi fəaliyyət növləri üzrə bölgüsüdür. İqtisadiyyatın maddi və qeyri-maddi istehsal dairəsində bir çox sahələr vardır ki, həmin sahələrdə kişilərə nisbətən daha çox qadınlar məşğul olmağa meyil edirlər. Belə sahələrə sosial və şəxsi xidmətlərin göstərilməsi, daşınmaz əmlakla bağlı əməliyyatlar, idarə və istehlakçılara xidmətlərin göstərilməsi, təhsil, səhiyyə və sosial xidmətlərin göstərilməsi və s. aiddir. Mövcud problemin tənzimlənməsi məqsədilə "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda sosial müdafiəyə ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən

vətəndaşlar da xüsusi diqqət önünə çəkilmiş, onların da cəmiyyətdə sosial durumlarının tənzimlənməsi istiqamətində qanunlar qəbul olunmuşdur. Bu kateqoriya vətəndaşlara 20 yaşadək olan gənclər, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı qadınlar, sağlamlıq imkanları məhdud uşaqları tərbiyə edən qadınlar, əlillər, pensiya yaşına 2 ildən az qalmış şəxslər, cəzaçəkmə yerlərindən azad edilmiş vətəndaşlar, məcburi köçkünlər, müharibə veteranları və şəhid ailələri aid edilmişdir.

Praktikada, əsasən, məşğulluğun effektivliyini əks etdirən dörd qrup göstəricilər sistemi tətbiq olunur:

1. Cəmiyyətin əmək resurslarının ictimai faydalı fəaliyyətdə iştirakının xarakterinə görə düzgün proporsiyalarla bölüşdürülməsi.
2. Sosial-iqtisadi sferada əməkqabiliyyətli əhalinin məşğulluq səviyyəsi. İqtisadi cəhətdən bu göstərici bir tərəfdən sosial-iqtisadi mühitdə işçilərə olan tələbatını, digər tərəfdən isə əhalinin iş yerlərinə olan tələbatını əks etdirir.
3. İqtisadi sahələr üzrə işləyənlərin bölgüsünün strukturu.
4. İşçilərin peşə-ixtisas strukturu. Məşğul əhalinin peşə-ixtisas qrupları üzrə bölüşdürülməsini və əmək bazarının tələbləri ilə peşəkar kadr hazırlığı sistemi arasındakı tarazlığın dərəcəsini əks etdirir.

Azərbaycanda həyata keçirilmiş sosial-iqtisadi layihələr nəticəsində qadınlar, gənclər arasında işsizlik probleminin aradan qaldırılması istiqamətində işlər görülmüşdür. Belə ki, gənclər ölkənin əsas innovativ potensialı hesab edilir. İlbəil gənclərin ali təhsil alması statistikasında artımın müşahidə olunmasına baxmayaraq, onların mütəxəssis olaraq işəgötürənlərin tələbləri və əmək bazarına cavab verməməsi məşğulluq sahəsində problemlərin yaranmasına səbəb olmuşdur. Uyğun peşə sahiblərinin azalması regionlarda əcnəbi işçi qüvvələrinin hərəkətə keçməsinə imkan yaradır. Ali təhsil alanların regionlarda işləməyə meyilli olmaması, kənd təsərrüfatı, emal sənayesi, yüksək texnologiyalar kimi ixtisaslara marağın az olması səbəbindən regionlarda kadr çatışmazlığı baş verir. Problemin həlli olaraq, peşə təhsilinin ölkənin iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması prosesini zərurətə çevirir [4,səh.4]. 2019-cu ildə ölkəmizin ümumtəhsil müəssisələrinin şagirdlərinə, məşğulluq mərkəzlərinə müraciət edən 134760 nəfər işaxtaran və işsiz şəxslərə peşə seçimində məsləhətlər verilmiş, 48 nəfər peşə təlimlərinə cəlb olunmuşdur [2, səh.6].

Sağlamlıq imkanları məhdud insanların hüququnun qorunması və cəmiyyətə inteqrasiya olunması təmin olunmuşdur. Sağlamlıq imkanları məhdud olan insanların əmək bazarına cəlb edilməsi yüksək məhsuldarlıq əldə etmək istəyən cəmiyyətin maraq dairəsində olmalıdır. İnkişaf etmiş Azərbaycan cəmiyyətində də bu sahəyə xüsusi diqqət yetirilmişdir. Bu qrup insanların əmək bazarına cəlb edilməsi Azərbaycan Respublikasının Məşğulluq Strategiyasında (2007-2015-ci illər) öz əksini taparaq dövlətin prioritet məqsədlərinə çevrilmişdir. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dövlət Məşğulluq Agentliyi tərəfindən sağlamlıq imkanları məhdud vətəndaşlar üçün peşə hazırlığı üzrə təhsil kursları təşkil edilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2019-cu il hesabatına göstərilmişdir ki, Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən ümumilikdə 3168 nəfər olmaqla, 92 nəfər əlilliyi olan vətəndaşlar belə kurslara cəlb edilmişlər [2, səh.6]. “BP” şirkəti ilə məşğulluq orqanlarının qarşılıqlı əməkdaşlığı çərçivəsində “Əlilliyi olan şəxslərin məşğulluq qabiliyyətlərinin artırılması” layihəsi çərçivəsində əlilliyi olan 100 nəfər vətəndaş cəlb olunaraq müxtəlif səpkidə təlimlər keçirilmişdir. Təlimlər əsasən logistika, kompüter bacarıqları, ingilis dili, sosial bacarıqlar və s. sahələri əhatə etmişdir. Əmək bazarında sağlamlıq imkanları məhdud vətəndaşlara əmək qanunvericiliyi çərçivəsində xüsusi imtiyazlar da verilir. Belə ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda əlil olmuş şəxslər attestasiyadan azad edilir, 18 yaşadək işçilərə 42 təqvim günündən az olmayaraq əmək məzuniyyəti verilir [6, səh.3].

Ölkənin sürətli iqtisadi inkişafı, maliyyə imkanlarının artması yeni iş yerlərinin yaradılması prosesini sürətləndirir. Respublikada iqtisadi fəallığın davamlı olaraq artımı fonunda yeni iş yerləri açılır. Təbii ki, bu proses insanların həyat səviyyəsinin yüksəlməsinə öz töhfəsini verir. Qlobal dünyanın bir parçası olan Azərbaycanda məşğulluğun təmin olunması və səmərəliliyin artırılması,

sosial-iqtisadi inkişafa nail olunmasının nəticəsidir ki, hazırkı dövrdə dövlətimiz işsizliklə mübarizə aparan inkişaf etmiş ölkələri belə qabaqlayır [1, səh.27].




Şəkil 1. Məşğul əhalinin mülkiyyət növü üzrə bölgüsü [1]

Aparılan statistik təhlil Azərbaycanda yoxsulluğun azaldılması, məşğulluğun artırılması istiqamətində atılmış uğurlu addımların əyani təsviridir. Belə ki, ölkəmizdə məşğul əhalinin sayı 2015-ci ildə 4671,6 min nəfər, 2016-cı ildə 4759,9 min nəfər, 2017-ci ildə 4822,1min nəfər, 2018-ci ildə 4879,3 min nəfər, 2019-cu ildə 4938,5 min nəfər olmuşdur. Dövlət mülkiyyəti və qeyri-dövlət mülkiyyəti üzrə göstəricilərin dinamikasına nəzər salsaq görərik ki, dövlət mülkiyyəti üzrə 2014-cü ildə 1178,2 min nəfər olduğu halda, qeyri-dövlət mülkiyyəti üzrə 3424,7 min nəfər olmuşdur. 2015-ci ildə dövlət mülkiyyəti üzrə 1176,1 min nəfər, qeyri-dövlət mülkiyyəti üzrə 3495,5 min nəfər, 2016-cı ildə dövlət mülkiyyəti üzrə 1171,4 min nəfər, qeyri-dövlət mülkiyyəti üzrə 3588,5 min nəfər, 2017-ci ildə dövlət mülkiyyəti üzrə 1158,4 min nəfər, qeyri-dövlət mülkiyyəti üzrə 3663,7 min nəfər, 2018-ci ildə dövlət mülkiyyəti üzrə 1154,9 min nəfər, qeyri-dövlət mülkiyyəti üzrə 3724,4 min nəfər təşkil etmişdir. Təhlillərdən aydın olur ki, qeyri-dövlət mülkiyyəti üzrə məşğulluq göstəriciləri daha yüksək olmuşdur. Əhalinin məşğulluğunun təmin olunması istiqamətində 2019-cu il ərzində ölkədə 192 min yeni iş yerləri açılmışdır. Yeni yaradılmış iş yerlərinin 27 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. O cümlədən 6,9% Gəncə-Qazax iqtisadi rayonunun payına düşmüşdür [9]. Ümumilikdə 2019-cu ildə işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən 103028 nəfər uyğun işlə təmin edilmişdir. 47599 nəfər vətəndaş haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur. Bundan əlavə, 3168 nəfər peşə hazırlığı kurslarında iştirak etmişdir. İşsizlikdən sığorta ödənişi isə 1711 nəfərə təyin edilmişdir. 2019-cu ildə Dövlət Məşğulluq orqanları tərəfindən işlə təmin olunanlar 2018-ci illə müqayisədə 99% artmışdır. Eyni zamanda ictimai işlərə cəlb olunanların da sayında artım müşahidə olunaraq ötən ilə nisbətdə 46,6 dəfə çox olmuşdur [2, səh.5]. 2020-ci ilin ilk altı ayı ərzində Dövlət Məşğulluq Agentliyi tərəfindən 54 min 137 nəfər işsiz və işaxtaran vətəndaşlar işlə təmin olunmuşdur [10].

Azərbaycanda daxili resurslardan səmərəli istifadə etməklə tələb-təklif münasibətlərinin tənzimləməsinə, inzibatçılığın aradan qaldırılmasına yönələn islahatlar arasında özünüməşğulluq proqramı xüsusi əhəmiyyətə malikdir. Dövlətin məşğulluq siyasətinin əsas prioritetləri əhalinin özünüməşğulluğunun inkişaf etdirilməsi üçün imkanların yaradılmasıdır. Bu istiqamətdə görülən işlər qeyri-formal məşğulluğun aradan qaldırılmasına və regionlarda işsizliyin səviyyəsinin minimuma endirilməsinə xidmət edir. Regionlarda işsizlərin məşğulluq imkanlarının artırılması strateji hədəflərdəndir. Bu məqsədlə məşğulluq siyasətində 2016-cı ildən başlayaraq əhalinin özünüməşğulluğunun təmin olunması istiqamətində tədbirlərin həyata keçirilməsi ilə yeni bir mərhələnin əsası qoyulmuşdur. Özünüməşğulluq siyasəti işsiz və işaxtaran şəxslərin əmək potensialının reallaşdırmasına şərait yaratmışdır. Bu isə öz növbəsində əhalinin gəlirlərinin artırılmasına və ölkədə yeni iş yerlərinin açılmasına səbəb olmuşdur. Kiçik və orta sahibkarlığın inkişafını sürətləndirmişdir. 2018-ci ildə bu proqrama 7267 nəfər, o cümlədən kiçik biznesini

qurmaq potensialı olan 1000 nəfərdən çox əlilliyi olan şəxs, 2019-cu ildə isə 10 min ailə özünüməşğulluq proqramına cəlb edilmişdir. Ümumilikdə Proqram iştirakçılarının 47 faizini sosial müdafiəyə xüsusi ehtiyacı olan həssas əhali qruplarına aid şəxslər təşkil etmişlər [10].

Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi hesab edilən qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi məşğulluq sahəsinin inkişafına və rayonların dotasiyadan asılılığının aradan qaldırılmasına stimul yaratmışdır. Belə ki, əvvəlki dövrlərdə kənd yerlərində məşğulluq xüsusilə kəskin bir vəziyyətdə idi ki, bu da aqrar sektorda səmərəliliyin azalmasına və kənd yoxsulluğu fenomeninin yaranmasına səbəb olmuşdur. Məlumdur ki, Azərbaycan ənənəvi olaraq aqrar ölkə hesab edilir. Ölkə əhalisinin 47 faizini kənd yerlərində yaşayan əhali təşkil edir. Onu da qeyd edək ki, son illərdə məşğul əhalinin 44 faizi aqrar sahənin payına düşür. Aqrar sahədə qarşıya qoyulan əsas hədəf kənd yerlərində məşğulluq imkanlarının genişləndirilməsidir. Son illərdə kənd təsərrüfatı sahəsində ümumi məhsulun artım tempi 2.5% təşkil etmişdir.

**Cədvəl 2**

**İqtisadi fəaliyyət növləri təsnifatı üzrə məşğul əhalinin sayı [1]**

| İqtisadi fəaliyyət növləri | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| İqtisadiyyat üzrə – cəmi | 4671.6 | 4759.9 | 4822.1 | 4879.3 | 4938.5 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 1698.4 | 1729.6 | 1752.9 | 1769.3 | 1777.7 |
| Mədənçıxarma sənayesi | 39.1 | 38.1 | 37.9 | 40.3 | 40.4 |
| Emal sənayesi | 229.8 | 242.2 | 249.1 | 254.8 | 262.6 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 27.1 | 27.3 | 27.5 | 27.5 | 30.5 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 25.4 | 30.6 | 30.8 | 41.1 | 30.2 |
| Tikinti | 336.4 | 343.8 | 347.9 | 354.5 | 366.2 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 693.7 | 699.6 | 705.9 | 706.1 | 712.0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 197.1 | 198.4 | 201.0 | 203.2 | 205.8 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 61.5 | 68.4 | 73.5 | 78.2 | 80.5 |
| İnformasiya və rabitə | 60.3 | 61.2 | 61.7 | 62.8 | 63.2 |
| Maliyyə və sığorta fəaliyyəti | 33.0 | 27.1 | 26.9 | 27.4 | 28.0 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 89.7 | 88.0 | 88.8 | 90.8 | 93.3 |
| Peşə, elmi və texniki fəaliyyət | 59.6 | 68.4 | 73.5 | 74.3 | 74.5 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 55.2 | 57.1 | 58.0 | 59.5 | 70.0 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 287.3 | 285.4 | 284.2 | 281.5 | 282.1 |
| Təhsil | 373.5 | 374.8 | 377.8 | 380.2 | 382.9 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 180.8 | 185.6 | 189.0 | 190.0 | 191.3 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 69.6 | 77.4 | 80.6 | 81.5 | 82.0 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 154.1 | 156.9 | 155.1 | 156.3 | 165.3 |

Cədvəl 2-də Azərbaycanda bir sıra iqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin sayının illər əsasında təsnifatı təsvir edilmişdir. Təhlil zamanı aydın olur ki, ölkədə iqtisadi fəaliyyət növləri sırasında kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə məşğul əhalinin sayı digər fəaliyyət növləri üzrə göstəriciləri üstələyir. Belə ki, 2015-ci ildə iqtisadiyyat üzrə 4671,6 min məşğul əhalinin 1698,4 min nəfəri kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 229,8 min nəfəri emal sənayesi, 61,5 min nəfəri turistlərin yerləşdirilməsi və ictimai iaşə, 60,3 min nəfəri informasiya və rabitə, yerdə qalanını isə digər sahələri təşkil etmişdir. 2016-cı ildə iqtisadiyyat üzrə 4759,9 min məşğul əhalinin 1729,6 min nəfəri kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 229,8 min nəfəri emal sənayesi, 61,5 min nəfəri turistlərin yerləşdirilməsi və ictimai iaşə, 60,3 min nəfəri informasiya və rabitənin, 2017-ci ildə iqtisadiyyat üzrə 4822,1 min məşğul əhalinin 1752,9 min nəfəri kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 249,1 min nəfəri emal sənayesi, 73,5 min nəfəri turistlərin yerləşdirilməsi və ictimai iaşə, 61,7 min nəfəri informasiya və rabitənin payına düşmüşdür. 2018-ci ildə 4879,3 min məşğul əhalinin 1769,3 min nəfəri kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 254,8 min nəfəri emal sənayesi, 78,2 min nəfəri turistlərin yerləşdirilməsi

və ictimai iaşə, 62,8 min nəfəri informasiya və rabitənin payına düşmüşdür. Həmçinin 2019-cu ildə 4938,5 min məşğul əhali qeydə alınmışdır. 1777,7 min nəfər kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 262,6 min nəfəri emal sənayesi, 80.5 min nəfəri turistlərin yerləşdirilməsi və ictimai iaşə, 63,2 min nəfəri informasiya və rabitə sahəsində çalışanlar olmuşlar. Təhlildən aydın olur ki, iqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin sayında kənd təsərrüfatı üstünlük təşkil etməklə, hər növbəti ildə bu göstərici artım dinamikası ilə inkişaf etmişdir. Belə ki, 2016-cı ildə kənd təsərrüfatında məşğul əhali sayı 1698,4 min nəfər, 2016-cı ildə 1729,6 min nəfər, 2017-ci ildə 1752,9 min nəfər, 2018-ci ildə isə 1769,3 min nəfər olmuşdur. Yalnız dövlət idarəetməsi və müdafiə; sosial təminat sahəsində məşğul əhalinin sayında hər növbəti ildə əvvəli illə müqayisədə azalma dinamikası müşahidə olunmuşdur. Digər sahələr də eyni artım tendensiyası ilə inkişaf etmişdir. Bu da ölkədə uğurla həyata keçirilən qeyri-neft sektoru üzrə sosial-iqtisadi siyasətin nəticəsini əks etdirir.

## Nəticə

Ölkəmizdə sənaye, turizm, kənd təsərrüfatı, nəqliyyat və digər sahələrin inkişafı Beynəlxalq maliyyə institutlarının da diqqətini çəkmişdir. Kənd əhalisinin məşğulluğunun və gəlirliliyinin yüksəldilməsinin mühüm amili kimi ərazilərin sosial-iqtisadi xüsusiyyətləri və yerli resurslar nəzərə alınmaqla, kəndlərdə alternativ məşğulluq formalarının inkişafı üçün güzəştli şəraitin yaradılması məqsədəuyğun olardı. Kəndlərdə istifadəsiz qalan torpaq sahələri müəyyən edilməli və iri fermer təsərrüfatlarının təsis edilməsi istiqamətində intensiv işlər aparılmalıdır. İri təsərrüfatların yaradılması məqsədilə torpaq mülkiyyətçilərinin pay torpaqlarını birləşdirmələri istiqamətində maarifləndirmə işləri həyata keçirilməlidir. Həmçinin qeyri-kənd təsərrüfatı sahələrində məşğulluğun səviyyəsinin artırılması üçün kiçik və orta sahibkarlıq inkişaf etdirilməlidir. Sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsinə güzəştli kreditlərin verilməsi biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə yanaşı, məşğulluğun və səmərəliliyin artırılmasına müsbət təsir göstərmiş olar. Digər tərəfdən qadınların, gənclərin əmək bazarında iştirakını təmin etmək, onlar üçün layiqli iş yeri yaratmaq demoqrafik dəyişikliklər nəticəsində baş verən işçi qüvvəsi çatışmazlığının aradan qaldırılmasına təkan verə bilər. Sağlamlıq imkanı məhdud şəxslərin istedad və bacarıqlarından səmərəli istifadə edilməsi, onların işçi qüvvəsinin tərkibində iştirak imkanlarının genişləndirilməsi – bütövlükdə iqtisadi fəallığın stimullaşdırılmasına təkan verər. Davamlı təhsil və karyera inkişafı təşəbbüsləri vasitəsilə işədüzəltmə imkanlarının genişləndirilməsi tədbirləri regionlarda məşğulluğun səmərəli təşkilini stimullaşdırır. [8, səh.129-131]. Ölkədə makroiqtisadi siyasətin məşğulluğa təsirinin təhlil edilməsi, əmək bazarının çevikliyinin artırılması, məşğulluq və sosial müdafiə münasibətlərinin gücləndirilməsi, sənayeləşmə siyasətinin inkişaf etdirilməsi əməkqabiliyyətli əhalinin aktivliyini sürətləndirər. Makroiqtisadi sabitliyin qorunması, regionlarda biznes mühitinin yaxşılaşdırılması, elmi-tədqiqat və innovasiyaların tətbiqi, investisiya axıcılığının formalaşdırılması qeyri-rəsmi iqtisadiyyatın azaldılmasına və ölkədə iqtisadi artıma səbəb ola bilər [7, səh.175-176].

**Sevda Həsənova**

## Regionlarda məşğulluq probleminin yaranmasına səbəb olan sosial-iqtisadi amillər

**Xülasə**

Məqalədə innovasiyayönümlü iqtisadiyyat və güclü sosial dövlət şəraitində əhalinin səmərəli məşğulluğunun formalaşdırılması problemi araşdırılmışdır. İqtisadiyyatın artım tempinin aşağı düşməsi, əmək ehtiyatlarının regionlar üzrə qeyri-bərabər bölgüsü, əməkqabiliyyətli əhalinin ixtisasının itirilməsi və s. səbəblər məşğulluq probleminin sosial nəticələridir. Məhz buna görə də məşğulluğun dövlət tənzimlənməsinin son dərəcə böyük əhəmiyyəti var. Regionlarda bu sahədə xeyli iş görülməsinə baxmayaraq, işsizliyin səbəblərini müəyyən etmək, eləcə də məşğulluğa təsir edən dövlət siyasətinin perspektiv istiqamətlərini təkmilləşdirmək üçün məşğulluğun araşdırılması vacib olan aktual problemlərdəndir. Məqalədə sosial-iqtisadi inkişafla əhalinin məşğulluğu sahəsindəki bağlılıq təhlil olunmuş, əmək bazarının sistemli monitorinqinin aparılması, tələblə təklif arasında nisbətin müəyyənləşdirilməsi prioritet məsələ olaraq diqqətə çatdırılmışdır. Bazarın formalaşmasında və inkişafı istiqamətində yaranan problemlər araşdırılmışdır. Yekunda təhlildən əldə olunan nəticələr öz əksini tapmışdır.

## Севда Гасанова
## Социально-экономические факторы, способствующие возникновению проблем с занятостью в регионах


**Резюме**

В статье рассматривается проблема формирования эффективной занятости в условиях инновационной экономики и сильного социального государства. Снижение темпов экономического роста, неравномерное распределение трудовых ресурсов по регионам, потеря квалификации трудоспособного населения и др. причины - социальные последствия проблемы занятости. Вот почему государственное регулирование занятости населения чрезвычайно важно. Несмотря на то, что в регионах ведется большая работа в этой сфере, важно изучить занятость, чтобы выявить причины безработицы, а также усоверщенствовать перспективные направления государственной политики, влияющей на занятость. В статье анализируется связь социально-экономического развития и занятости, рассматриваются вопросы систематического мониторинга рынка труда, определения соотношения спроса и предложения в качестве приоритетной задачи. Исследованы проблемы, возникающие при формировании и развитии рынка. В конце статьи отражены результаты полученные в ходе исследования.


## Sevda Hasanova
## Socio-economic factors that cause employment problems in the reions


**Summary**

The article deals with the problem of the formation of effective employment of the population in an innovative-oriented economy and a strong social state. Decrease in economic growth, uneven distribution of labor resources across regions, loss of qualifications of the able-bodied population, and other reasons – are the social consequences of the employment problem. This is why government regulation of employment is extremely important. Although there is a lot of work in this area in the regions, it is important to study employment in order to identify the causes of unemployment, as well as improve the prospects for public policies affecting employment. The article analyzes the relationship between socio-economic development and employment, systematic monitoring of the labor market, determining the balance of supply and demand as a priority task. The problems arising during the formation and development of the market are investigated. At the end, the results obtained during the study are reflected.


## Ədəbiyyat


1. Əmək bazarı. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı-2019, səh.168
2. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2019-cu il üzrə hesabatı, səh.27
3. "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi. Bakı-2018, səh.21
4. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası", Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 26 yanvar 2015-ci il, № 998. səh.10)
5. M.Quluzadə. "İnsan amili və Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi. Bakı-2015
6. İqtisadi və Sosial İnkişaf Mərkəzi (CESD), "Sağlamlıq imkanları məhdud insanlar; məşğulluq imkanları". Bakı-2016, səh.14
7. İbrahim Öztürk Bahadır Tuzcu. "Küresel Kriz ve İstiham", İstanbul, Kasım 2012
8. Международная конференция труда, "Занятость и социальная защита в новом демографическом контексте", 102-я сессия, 2013 г.
9. www.vergiler.az
10. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet səhifəsi. http://sosial.gov.az/



Məqalə redaksiyaya daxil olmuşdur: 25.01.2021
Təkrar işlənməyə göndərilmişdir: 27.01.2021
Çap üçün qəbul olunmuşdur: \. \.

UOT: 336.1; 336.22
DOI:

# AZƏRBAYCANDA GƏLİR BÖLGÜSÜNÜN ƏDALƏTLİ HƏYATA KEÇİRİLMƏSİ ÜÇÜN VERGİ ALƏTİNDƏN İSTİFADƏ VƏ BEYNƏLXALQ TƏCRÜBƏ

***Jalə Abbaszadə***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Qiymət statistikası şöbəsinin aparıcı məsləhətçisi*
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*İqtisadiyyat və idarəetmə kafedrasının magistrantı*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: jala.abbaszade@stat.gov.az*

**Açar sözlər**: gəlir bölgüsü, vergi alətləri, beynəlxalq təcrübə, bölgü ədaləti, maliyyə, ÜDM, vergi sistemi.
**Ключевые слова:** распределение доходов, налоговые инструменты, международный опыт, справедливость распределения, финансы, ВВП, налоговая система.
**Keywords:** income distribution, tax instruments, international experience, distribution justice, finance, GDP, tax system.

Gəlirlərin tənzimlənməsi bütün iqtisadi sistemlərdə dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsi kimi çıxış edir. Ona görə də əhali gəlirlərində baş verən dəyişikliklər dövlətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsinin səmərəliliyini qiymətləndirməyə imkan verir. Əhali gəlirlərinin tənzimlənməsində vergi sistemi mühüm yer tutur. Məhz büdcənin formalaşması vergilər hesabına baş verir. Büdcə vasitəsilə aztəminatlı ailələrə yardım, təhsil və səhiyyənin maliyyələşməsi həyata keçirilir. Bu baxımdan, dövlət perspektivli vergi siyasəti tətbiq etməlidir.

Vergilər maliyyə elminin əsas anlayışlarından biridir. Verginin mahiyyətini başa düşməkdə çətinlik verginin, eyni zamanda real həyatda iqtisadi və hüquqi bir fenomen olması ilə əlaqədardır. Nəzəri olaraq verginin iqtisadi mahiyyəti vergitutma mənbəyini və verginin nəticədə özəl sektora və bütövlükdə iqtisadiyyata təsirini müəyyən etməkdir. Nəticə etibarilə vergilərin iqtisadi mahiyyəti istehsal və ticarət sahəsində axtarılmalıdır. Bildiyimiz kimi, real vergi prosesi dövlət tərəfindən həyata keçirilir və onun demokratik formalarının inkişaf dərəcəsindən asılıdır. Cəmiyyətin maraqlarının sözçüsü halına gələn dövlət, vətəndaş cəmiyyəti kontekstində fəaliyyət istiqamətlərinə və buna görə funksional vəzifələrə çevrilən iqtisadi, sosial, ekoloji, demoqrafik və digər xarici və daxili siyasətlər formalaşdırır. Dövlət öz funksiyalarını həyata keçirmək üçün cəmiyyətdə müəyyən bir müddət ərzində yaradılan Ümumi Daxili Məhsulun (ÜDM) bir hissəsinə sahib olmalıdır. Müasir şəraitdə dövlətin bu hüququ bir çox ölkənin konstitusiyalarında təsbit edilmişdir. Bunun əsasında vergi ödəyiciləri tərəfindən dövlətin büdcəyə və büdcədənkənar fondlarına vergi, rüsumlar və digər ödənişlərin hesablanması və ödənilməsinin forma və metodlarını müəyyənləşdirən xüsusi vergi növləri üzrə qanunlar hazırlanır və qəbul edilir [4].

Beləliklə, dövlət tərəfindən cəmiyyətin xeyrinə məcburi töhfə şəklində Ümumi Daxili Məhsul dəyərinin müəyyən bir hissəsinin geri götürülməsi verginin mahiyyətini təşkil edir. Dövlət ilə vergi ödəyiciləri arasındakı münasibətlərdə özünü göstərir. Bu münasibətlər büdcəyə və büdcədənkənar fondlara vergi, rüsum və digər ödənişlərin ödənilməsindən yaranan pul münasibətləri kimi xarakterizə olunur.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi (I fəsil, maddə 11) vergini “Vergi dövlət və bələdiyyələrin fəaliyyətinə maddi dəstək vermək üçün vergi ödəyicilərinə məxsus olan vəsaitlərin özgəninkiləşdirilməsi şəklində dövlət və yerli büdcələrə köçürülən məcburi, fərdi və pulsuz ödənişdir” kimi təyin edir.

Vergi iqtisadi və hüquqi əhəmiyyətə malik olan kompleks bir kateqoriyadır. “Vergi” kateqoriyasını iqtisadi baxımdan nəzərə alaraq, onu digər dövlət güzəştlərinin tərkibindən ayırmaq,

rüsum və ödənişlərdən fərqini müəyyənləşdirmək olduqca çətindir. Buna görə vergilərin iqtisadi mahiyyətini təyin edərkən ən vacib meyar cəmiyyətin maliyyə və büdcə sisteminə aid olan mahiyyətidir. Vergilərin iqtisadi mahiyyəti dövlətlə hüquqi və fiziki şəxslər arasında inkişaf edən pul münasibətləri ilə xarakterizə olunur.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi (I Fəsil, maddə 12) aşağıdakı vergitutma elementlərini təsbit edir [1]:

- vergitutma obyekti;
- vergitutma bazası;
- vergi dövrü;
- vergi dərəcəsi;
- verginin hesablanması qaydası;
- verginin ödənilməsi qaydası və müddəti;

İqtisadi ədəbiyyatlarda vergilərin təsnifatına mühüm yer verilir. Müasir iqtisadiyyatda tətbiq olunan vergilərin tərkibi çox fərqlidir. Hər ölkədə tətbiq olunan vergilər həmin ölkənin vergi sistemini yaradır. Bu vergilərin fərqliliyi və hər vergi növünün özünəməxsus xüsusiyyətləri olduğu üçün təsnif edilməsinə ehtiyac var. Eyni xarakterli vergilər müəyyən meyarlara görə qruplaşdırılmalıdır.

Vergilərin müxtəlifliyi onların müəyyən meyarlara görə təsnif edilməsini tələb edir. Bu və ya digər verginin istənilən növə aid edilməsi bu verginin mahiyyətini və məzmununu daha dəqiq müəyyənləşdirməyə imkan verir. Çox sayda vergi təsnifatına və hər birinin özünəməxsus xüsusiyyətlərinə malik olmasına baxmayaraq, aralarındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirməyə imkan verir. Vergilərin spesifikliyi onların alınması və təyin edilməsi üçün xüsusi şərtlər tələb edir. Bu, vergilərin təsnifatının, yəni bu və ya digər meyara görə qruplaşdırılmasının böyük və praktik əhəmiyyətini izah edir.

İdarəetmə fəaliyyətinin ayrılmaz tərkib hissələrindən biri də vergi planlaşdırmasıdır. Çünki hər bir şəxsin ödənişlərinin böyük bir qismi vergi ödənişləri olduğu üçün vergi planlaşdırmasını da xərclərin planlaşdırılmasının tərkib hissəsi kimi hesab etmək olar. Bu xərclər hər bir müəssisə üçün istehsal məsrəflərini artıran və əsas gəlirin miqdarını azaldan xərclərdir.

Vergi planlaşdırmasının təşkil edilməsi vergi idarəetməsinin təşkilati quruluşunun formalaşdırılması, lazımlı kadrların seçilməsi, vergi planlaşdırmasının strateji hədəflərinə çatmaq üçün lazım olan maliyyə mənbələrinin ayrılmasıdır. O cümlədən vergi ödəmə planlaşdırması maliyyə planlaşdırma fəaliyyətinin ayrılmaz hissəsidir. Vergi planlaşdırması yalnız vergi idarəçiliyinin vəzifələrinə uyğun formada vergi ödəmələrini tənzimləmir, həmçinin vergi qanunvericiliyinin təklif etdiyi variantlardan istifadə edərək onları da optimallaşdırır [2].

Səmərəli vergi sistemi bir tərəfdən dövlətin maliyyə ehtiyatlarına olan tələbatını ödəməli, digər tərəfdən isə vergi ödəyicilərinin sahibkarliq fəaliyyətinə olan maraqlarını stimullaşdırmalıdır. Bu səbəbdən də vergi yükü göstəricisi ölkənin vergi sisteminin keyfiyyət ölçüsüdür. Elmi cəhətdən sübut edilmişdir ki, səmərəli vergi sistemi vergiödəyicilərinin gəlirlərinin 30 faizindən çoxunun tutulmasına imkan verməməlidir. Bir sıra ölkələrin vergi sistemi (məsələn, İsveç) elə qurulmuşdur ki, vergiödəyicisi öz gəlirinin 50 faizdən çoxunu dövlət büdcəsinə ödəyir. Burada heç bir qeyri-normal hal yoxdur, çünki əksər ölkələrdə vergiödəyicilərinin öz gəlirləri hesabına həll etdikləri sosial-iqtisadi xarakterli məsələləri bu ölkələrdə dövlət öz hesabına həll edir. Beləliklə, maraqlar balansı gözlənilmiş olur. Bütün bunlar vergi sisteminin mühüm göstəricisi olan vergi yükünün nəzəri və praktiki məsələlərinin hərtərəfli araşdırılmasının zəruriliyini doğurur. [11, səh.30].

Aşağıdakı cədvəldə xarici ölkələrin vergi yükünün səviyyəsi verilmişdir:

**Cədvəl 1**

**2019-cu ildə inkişaf etmiş ölkələrdə vergi yükünün səviyyəsi [6]**

| Ölkələr | Ümumi Daxili Məhsulda vergilərin xüsusi çəkisi, faizlə |
|---|---|
| Danimarka | 46,3 |
| Fransa | 45,4 |
| İsveçrə | 42,9 |
| Belçika | 42,9 |
| Avstriya | 42,4 |
| İtaliya | 42,4 |
| Finlandiya | 42,2 |
| Norveç | 39,9 |
| Almaniya | 38,8 |
| Yunanıstan | 38,7 |
| Kanada | 33,5 |
| Böyük Britaniya | 33,0 |

Azərbaycan Respublikasının 2019-cu ildə inamlı inkişafı, Ümumi Daxili Məhsulun artması öz növbəsində dövlət büdcəsinin icrasının göstəricilərində də özünü büruzə verib. Belə ki, 2019-cu ilin dövlət büdcəsinin mədaxil proqnozu 4,5 faiz artıqlaması ilə təmin edilməklə 23 milyard 168 milyon manata qarşı 24 milyard 200 milyon manat məbləğində icra olunmuşdur. 2019-cu ildə Azərbaycanın dövlət büdcəsinin kəsiri 205,2 milyon manat təşkil edib. Hesabat dövründə dövlət büdcəsinin gəlirləri 24 milyard 199,6 milyon manat təşkil etmişdir (2018-ci illə müqayisədə 7,5% artım). Qeyri-neft sektoru üçün dövlət büdcəsi 10,595 milyard manat (2018-ci illə müqayisədə 16,3% artım) təşkil etmişdir.

**Cədvəl 2**

**Azərbaycanın ÜDM-i və dövlət büdcəsinin gəlirləri (milyon manatla) [9]**

| İllər | Gəlirlər-cəmi | Vergi gəlirləri-cəmi | ÜDM | Vergi yükü |
|---|---|---|---|---|
| 2015 | 17498,0 | 8543,6 | 54380 | 0,16 |
| 2016 | 17505,7 | 8574,0 | 60393,6 | 0,14 |
| 2017 | 16516,7 | 8850,5 | 70131,1 | 0,13 |
| 2018 | 22508,9 | 11921,6 | 80092,0 | 0,15 |
| 2019 | 24398,5 | 12643,4 | 81896,2 | 0,15 |
| 2020 | 24134,5 | 12379,4 | 72432,2 | 0,17 |

2019-cu ildə gəlirlərin strukturunda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti vasitəsi ilə 7 milyard 672,1 milyon manat (2018-ci illə müqayisədə 3,5% artım), Dövlət Gömrük Komitəsi vasitəsi ilə 4 milyard 408,6 milyon manat (artım 28,4%) vəsait dövlət büdcəsinə köçürülüb.

Azərbaycan Dövlət Neft Fondu dövlət büdcəsinə 11 milyard 364,3 milyon manat köçürüb. Digər gəlirlər - 164,5 milyon manat, büdcə təşkilatlarının büdcədənkənar gəlirləri - 590,1 milyon manat təşkil etmişdir. 2019-cu ildə dövlət büdcəsinin xərcləri 24,408,8 milyard manat (artım 7,4%) təşkil edib. Beləliklə, 2019-cu ildə dövlət büdcəsi kəsiri xərclərin 0,84%-ni təşkil etmişdir. 2019-cu il dövlət büdcəsinin cari xərcləri 13 milyard 514,4 milyon manat və ya bütün büdcə xərclərinin 55,4%-ni, əsaslı xərclər - 9 milyard 366,1 milyon manat (ümumi xərclərin 38,4%), dövlətin borcuna və öhdəliklərinə xidmətlə bağlı xərcləri - 1 milyard 524,3 milyon manat təşkil etmişdir (ümumi xərclərin 6,2%-i). 2019-cu ildə icmal büdcə gəlirləri 33 milyard 818,3 milyon manat (artım 9,4%), xərclər 26 milyard 475,6 milyon manat, profisit - 7 milyard 342,7 milyon manat və ya icmal büdcənin gəlirlərinin 21,7%-ni təşkil edib. 2019-cu il üçün dövlət büdcəsinin gəlirləri 23 mlrd. 168 milyon manat, xərclər baxımından 25 milyard 190 milyon manat məbləğində təsdiq edilmişdir [8].




Şəkil 1. 2019-2020-ci illərdə Azərbaycanda vergi gəlirləri və ÜDM (milyon manatla) [9]

İlkin məlumatlara görə, 2020-ci ildə ölkənin Ümumi Daxili Məhsulu 72432,2 milyon manat təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz azdır. İqtisadiyyatın qeyri-neft və qaz sektorunda ÜDM 2,6 faiz, neft və qaz sektorunda isə 7,0 faiz azalmışdır. ÜDM-in 33,7%-i sənaye istehsalı, 11,5%-i ticarət və nəqliyyat vasitələrinin təmiri, 7,7%-i tikinti, 7,1% -i nəqliyyat və anbar təsərrüfatı, 6,9%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,0%-i informasiya və rabitə, 1,2%-i turistlər üçün yaşayış və yeməyin payına düşür, digər sektorlarda 20,2%, məhsula və idxala xalis vergilər ÜDM-in 9,7%-ni təşkil etmişdir. Azərbaycanda 2020-cu ildə adambaşına düşən ÜDM 7262,8 manata bərabər olmuşdur.

Hər bir ölkənin vəzifələri və məsuliyyətləri, habelə bu vəzifə və məsuliyyətlərin prioritet sahələrinin müxtəlifliyi ölkələrdə vergi sistemini fərqləndirir. Vergi sistemi müxtəlif vergi növlərindən və fərqli vergi dərəcələrindən ibarətdir. Bu baxımdan, inkişaf etmiş bir ölkə kimi Kanadanın vergi sistemini və gəlirlərin bölüşdürülməsinin gəlir vergisinin formalaşmasında rolunu öyrənmək faydalıdır. Bunun üçün dünya təcrübəsi kimi Kanadanın vergi sisteminə nəzər yetirə bilərik.

Federal bir quruluşa sahib olan Kanadada vergilərin üç səviyyəsi var: dövlət, əyalət və bələdiyyə. Ölkənin üçpilləli vergi sistemi səbəbindən yarana biləcək xaotik vəziyyətin qarşısını almaq üçün hər səviyyədə vergitutma gücünün hüdudları müəyyən edilir. Hökumət səviyyəsində bələdiyyələr vergiləri yalnız əyalətlərin onlara verdikləri səlahiyyətlər daxilində vergitutma gücünə sahibdirlər. Bu səbəbdən əyalətlər və bələdiyyələr arasında koordinasiyanın əldə edilməsi asandır. Digər hökumət səviyyələri, yəni dövlət və əyalətlər arasında belə bir əlaqə və koordinasiya yoxdur.

1867-ci ildən keçən zaman ərzində Kanadanın vergi sistemi inkişaf etmişdir. Əyalətlərin birbaşa vergi tətbiq etmək səlahiyyətinin olması və “birbaşa” sözünün mənasının geniş şərh edilə bilməsi nəticəsində əyalətlər bəzi vergilər istisna olmaqla tətbiq etdikləri vergi növlərini artırmışlar. Başqa bir ifadə ilə əyalətlər artıq dolayı vergi olaraq bilinən və günümüzün ən əhəmiyyətli vergi növü olan satış vergisini tətbiq edə bilirlər. Kanada Konstitusiyasına əsasən bələdiyyələrin vergitutma səlahiyyətində isə dəyişiklik olmamış və əyalətlərin onlara tətbiqi üçün icazə verdiyi vergiləri toplamaqla məhdud qalmışlar [10].

Ölkədəki ümumi vergi gəlirlərinin bölüşdürülməsinə nəzər saldıqda, illər ərzində ümumi əyalət vergi gəlirlərinin sürətlə artdığını və mərkəzi hökumətin vergi gəlirlərinə yaxınlaşdığını görmək olar.




Şəkil 2. Ümumilikdə dövlətin alt sektorlarının vergi gəlirləri, 2018 (ümumi vergi gəlirlərinin%-i) [6]

Şəkil 2-dən də göründüyü kimi, əyalətlər və bölgələr 2014-cü ildə vergi gəlirlərini artıraraq 39,1%-ə yüksəltmiş və mərkəzi hökumətlə (41,4) çox yaxın paya malik olmuşdur. 2018-ci ildə bu rəqəm 39,5% təşkil etmişdir. Hökumət səviyyələri arasındakı vergi gəliri miqdarındakı dəyişikliklərlə paralel olaraq toplanan vergi növlərində də dəyişikliklər olmuşdur. Bu dəyişikliklərdən ən başlıcası, keçmişdə vergi gəlirlərinin əhəmiyyətli bir hissəsini təşkil edən dolayı vergilərin birbaşa vergilərlə əvəzlənməsi və bu vergilərin ümumi vergi gəlirlərinin əsas mənbəyi olmasıdır [5, səh.63].

## Nəticə

Ölkəmizdə dövlət maliyyə idarəetməsinin keyfiyyətcə yeni mərhələsinə keçidlə əlaqədar olaraq, Azərbaycan hökumətinin prioritetlərindən biri dövlət idarəçiliyinin optimallaşdırılması, habelə maliyyə və borc intizamının gücləndirilməsinə yönəlmiş genişmiqyaslı maliyyə siyasəti islahatlarının həyata keçirilməsidir. 2021-ci il dövlət büdcəsi, dövlətin əsas funksiyalarının maliyyələşdirilməsini təmin etmək üçün keyfiyyətcə yeni çağırışların şərtləri nəzərə alınmaqla formalaşdırılmışdır. COVID-19 pandemiyası və onun daxili iqtisadi artıma, gəlir və investisiya mühiti, eləcə də artan səhiyyə və rifah xərcləri üzərindəki mənfi təsirləri nəzərə alınmaqla aparılan maliyyə siyasəti prioritet olmuşdur.

Kanada vergi sistemində ümumi vergi gəlirlərinin böyük bir hissəsini (36.3%) təşkil edən fərdi gəlir vergisi, vergi orqanı prinsipinə uyğun olaraq mütərəqqi olmuşdur və vergi yükünü bərabər şəkildə bölüşərək ədalətli bölüşdürmənin təmin edilməsində rol oynamışdır. Bütün bunlar göstərir ki, fərdlərdən tutulan federal və əyalət gəlir vergiləri gəlir bərabərsizliyini və gəlirin əsas bölgüsü olan bazar bərabərsizliyini azaldır və cəmiyyətin rifahını təmin etmək üçün istifadə olunur. Beləliklə, Kanadada fərdi gəlir vergisi əhalinin xərclərinin daha ədalətli bir səviyyəyə gətirməyə kömək etdi.

**Jalə Abbaszadə**

**Azərbaycanda gəlir bölgüsünün ədalətli həyata keçirilməsi üçün vergi alətindən istifadə və beynəlxalq təcrübə**

**Xülasə**

Məqalədə qeyd edilir ki, vətəndaşların rifahını qorumaq üçün hökumətlər gəlirləri ədalətli şəkildə bölüşdürür və bazarda yaradılan gəlirin müxtəlif formalarda və miqyasda bölüşdürülməsinə təsir göstərir. Dövlətin müdaxilə səviyyəsi əsasən rifahın ictimai borc sayıldığı səviyyədən asılı olaraq dəyişir. Nəticə etibarilə, hər ölkədə istifadə olunan alət və ya eyni alətin istifadə qaydası fərqlənə bilər. Göstərilir ki, bu gün gəlirin bölüşdürülməsinə təsir göstərmək üçün istifadə olunan vasitələrdən biri də vergidir. Vergilər gəlirin ədalətli bölüşdürülməsini tənzimləmək və cəmiyyət üzvləri arasında gəlir boşluqlarının qarşısını almaq üçün istifadə olunan vasitələrdən biridir. Bu məqalədə ölkəmizdə gəlir bölgüsünün ədalətli bölüşdürülməsi üçün həyata keçirilən vergi alətindən istifadə və Kanada vergi sisteminə ümumi baxış verilir və daha sonra gəlirlərin bərpa edilməsində tətbiq olunan fərdi gəlir vergisinin roluna toxunulur.

**Жала Аббасзаде**

**Использование налогового инструмента и международного опыта для справедливого распределения доходов в Азербайджане**

**Резюме**

В статье отмечается, что обеспечить благосостояние своих граждан, правительства справедливо распределяют доходы между ними влияют на распределение доходов, получаемых на рынке, в различных формах и масштабах. Уровень государственного вмешательства варьируется в основном в зависимости от уровня, на котором благосостояние считается государственным долгом. В результате инструмент, используемый в каждой стране, или способ использования одного и того же инструмента могут отличаться. Показано, что налоги - это один из инструментов, используемых сегодня для воздействия на распределение

доходов. Налоги являются одним из инструментов, используемых для регулирования справедливого распределения доходов и предотвращения разрыва в доходах между членами общества. В этой статье дается обзор использования налогового инструмента для справедливого распределения дохода в нашей стране и в налоговой системе Канады, а также затрагивается роль индивидуального подоходного налога в возмещении дохода.

**Jala Abbaszade**

**Use of a tax instrument and international experience for the fair distribution of income in Azerbaijan**

**Summary**

The article notes that, to protect the well-being of their citizens, governments distribute income fairly and influence the distribution of income generated in the market in various forms and scales. The level of government intervention varies mainly depending on the level at which welfare is considered a public debt. As a result, the tool used in each country or the way the same tool is used may differ. It is shown that, taxes are one of the tools used today to influence the distribution of income. Taxes are one of the tools used to regulate the fair distribution of income and to prevent income gaps among members of society. This article provides an overview of the use of the tax instrument for the fair distribution of income in our country and the Canadian tax system, and then touches on the role of individual income tax in the recovery of income.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi.
2. Y.A.Kəlbiyev, “Vergilər və vergiqoyma“. Ali məktəblər üçün dərs vəsaiti. Bakı-2016. “Poliqraf”, 432 səh.
3. Y.A.Kəlbiyev, T.M.Hümbətov. “Vergilərin hesabları”. “Elm və təhsil”, Bakı-2018
4. Y.A.Kəlbiyev, R.B.Məhərrəmov, P.Q.Rzayev. “Xarici ölkələrin vergi sistemi”. Dərslik. “İqtisad Universiteti” Nəşriyyatı. Bakı-2013.
5. Z.Zeynalova. Kanadada fiziki şəxslərin gəlir vergisinin gəlirin yenidən bölgüsünə təsiri. İPƏK YOLU, No.3, (2017).səh.60-70.
6. Revenue Statistics 2020 Tax revenue trends in the OECD.
7. http://lib.bbu.edu.az/files/book/549.pdf-
8. http://interfax.az/view/789204/az.
9. https://www.stat.gov.az/source/system_nat_accounts/.
10. J.Fleming. UFE Tax: A Guide to Understanding the Basics of Canadian Income Taxation, Ontaro, Carswell. 2010
11. P.Q.Rzayev. “İqtisadiyyatın vergi tənzimlənməsi mexanizminin stimullaşdırıcı rolunun artırılması istiqamətləri”. Monoqrafiya. “İqtisad Universiteti” Nəşriyyatı. Bakı-2013

Məqalə redaksiyaya daxil olmuşdur: 21.04.2021
Təkrar işlənməyə göndərilmişdir: 22.04.2021
Çap üçün qəbul olunmuşdur: \. \.

UOT: 33.022
DOI:

# RƏSMİ STATİSTİKADA KEYFİYYƏTİN İDARƏ EDİLMƏSİNİN SƏMƏRƏLİ ALƏTLƏRİ

**Yusif Yusifov**
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini, i.ü.f.d.*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: yusif.yusifov@stat.gov.az*

**Vüqar Məmmədəlizadə**
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Keyfiyyətin idarə edilməsi və metaməlumatlar şöbəsinin müdiri*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: vugar.mammadalizade@stat.gov.az*

**Açar sözlər:** keyfiyyətin idarə olunması, keyfiyyətin təmin olunması, ISO 9001, keyfiyyət standartları, GSBPM.
**Ключевые слова:** управление качеством, обеспечение качества, ISO 9001, стандарты качества, GSBPM.
**Keywords:** quality management, quality assurance, ISO 9001, quality standards, GSBPM.

Rəsmi statistikanın əhəmiyyətinin artdığı müasir dövrdə istifadəçilərin keyfiyyətli statistik məlumatlarla təmin edilməsinin əsasını heç şübhəsiz ki, səmərəli idarəetmənin təşkili baxımından beynəlxalq aləmdə qəbul edilmiş keyfiyyətin idarə edilməsinə dair standartların tətbiqi mühüm əhəmiyyət daşıyır. Rəsmi statistikada keyfiyyətin idarə edilməsi sisteminin səmərəli alətləri kimi Beynəlxalq Standartlaşdırma Təşkilatının tələblərini özündə əks etdirən ISO 9001 keyfiyyəti idarəetmə sistemini, Keyfiyyətin idarə edilməsi üzrə Avropa Fondunun təkmilləşmə modeli (EFQM - European Foundation for Quality Management), Avropa ölkələrində daha çox tətbiq olunan Qiymətləndirmənin Ümumi Çərçivəsi (CAF - Common Assessment Framework) kimi beynəlxalq aləmdə qəbul edilmiş və ayrı-ayrı ölkələrdə, müxtəlif qurumlar, təşkilatlar tərəfindən tətbiqi həyata keçirilən bir çox standartlar mövcuddur. Statistik məlumatların dəqiqliyi, keyfiyyəti, onların cəmiyyətdə baş verən sosial-iqtisadi hadisələrə uyğunluğu mühüm əhəmiyyət kəsb etdiyindən dövlət statistika orqanlarında təşkil olunan inzibati və statistik proseslərin, həmçinin hazırlanan statistik məhsulların keyfiyyətinin təmin olunması üçün dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanın rəsmi statistika sistemində də keyfiyyətin təmin olunması son dövrün aktual məsələlərindən birinə çevrilmişdir. Bu baxımdan, statistika proseslərinin təkmilləşdirilməsi, rəsmi statistika məlumatlarının istehsalı və yayılması sahəsində keyfiyyətin artırılması, beynəlxalq standartlara inteqrasiyaya tam nail olunması Dövlət Statistika Komitəsinin qarşısında duran prioritet məsələlərdəndir. Komitə statistika sistemində səmərəli idarəetmə sisteminin təşkili, məlumatların keyfiyyətinin təmin olunması üçün beynəlxalq təcrübəyə əsaslanaraq ümumi qayda və standartların müəyyənləşdirilməsi məqsədilə öz fəaliyyətində ISO 9001:2015 beynəlxalq standartı əsasında keyfiyyətin idarə edilməsi sisteminin (KİS) tətbiqinə başlamış, nəzərdə tutulan bir çox tədbirlər həyata keçirmiş və təkmilləşdirmə işləri davamlı olaraq görülməkdədir. ISO 9001 beynəlxalq standartının tələbləri əsasında keyfiyyət sahəsində siyasət və məqsədlər bəyan edilmiş, bilavasitə Komitə sədrinə tabe olan, keyfiyyətin idarə edilməsi sisteminin işlənib tamamlanmasının təmin edilməsi, keyfiyyətin idarə edilməsi sisteminin sertifikatlaşmaya hazırlanması və sistemin işlək vəziyyətdə saxlanması və s. səlahiyyətləri olan rəhbərliyin keyfiyyət üzrə nümayəndəsi təyin edilmiş, zəruri qərarların qəbul edilməsi üçün Keyfiyyət üzrə Əlaqələndirmə Şurası yaradılmışdır.

Həmçinin görülən işlərin ardıcıllığını və sistemliliyini təmin etmək üçün bir çox nəzəri-metodoloji əsaslar (keyfiyyətin idarə olunmasının nəzəri aspektləri, sənədlərin idarə olunmasından rəhbərlik tərəfindən təhlil məsələlərinə qədər tələbləri müəyyənləşdirən "Keyfiyyət üzrə vəsait", "İnformasiyanın sənədləşdirilməsi", "Daxili auditlər", "Uyğunsuzluqların və təshihedici tədbirlərin idarə edilməsi", "Rəhbərlik tərəfindən təhlil", "Risklərin və imkanların idarə edilməsi", "İstifadəçilərlə əks-əlaqələrin idarə edilməsi" sənədləşdirilmiş prosedurlar açıq şəkildə izah edilmiş, aparatın hər bir şöbəsi və KİS-in tətbiq edildiyi yerli statistika orqanlarının fəaliyyətlər ilə bağlı proseslərinin xəritələri yazılmışdır) hazırlanmış, praktiki addımlar (sənədlərin idarə olunması prosesinin təmin olunması, ilkin statistik məlumatların keyfiyyətinin təmin olunması məqsədilə hesabat məlumatlarının əlaqələndirilməsi, Komitənin aparatının struktur bölmələrində və KİS-in tətbiq edildiyi yerli statistika orqanlarında daxili auditlərin təşkili, statistik məlumatların keyfiyyətinin qiymətləndirilməsi üzrə keyfiyyət məruzələrinin hazırlanması, nəşr olunan əsas makro göstəricilərin əlaqələndirilməsi, müqayisəli təhlillərin aparılması və uyğunsuzluqların aşkar olunması, məlumat bazaları üzrə arxivlərin formalaşdırılması, istifadəsi və saxlanması üçün qaydaların həyata keçirilməsi, statistika fəaliyyətinin və məlumatların keyfiyyəti ilə bağlı istifadəçilərin tələbatının ödənilməsinə dair sorğunun aparılması, rəsmi statistika hesabatı formalarına, göstəricilərə və statistika proseslərinə dair metaməlumatlar sisteminin standartlarının müəyyənləşdirilməsi və təşkili, statistik təsnifatlara metaməlumatların yazılması, statistika proseslərinin və rəsmi statistika məlumatların istehsalı və yayımlanmasına dair beynəlxalq uyğunluq sertifikatının əldə edilməsi və s.) atılmaqla irihəcmli tədbirlər həyata keçirilmişdir [1,2].

Yuxarıda qeyd olunan nəzəri-metodoloji əsasların hazırlanması və praktiki addımların atılması, həmçinin ISO 9001:2015 beynəlxalq standartının şəkil 1-də göstərilmiş prinsipləri [3] əsasında maraqlı tərəflərin tələbat və gözləntilərinin nəzərə alınması, istifadəçi yönümlülük prinsiplərinə daha çox riayət olunması, keyfiyyət sahəsində siyasətin formalaşması, risklərin və imkanların qiymətləndirilməsi, keyfiyyət sahəsində məqsədlər və onlara nail olmağın planlaşdırılması, dəyişikliklərin planlaşdırılması, həm insan, həm də maddi resursların təkmilləşdirilməsi, təşkilati biliklərin hamı üçün əlçatanlığının təmin edilməsi, informasiyanın sənədləşdirilməsi sahəsində işlərin standartlaşdırılması kənar sertifikatlaşma auditinin keçirilməsi üçün şərait yaratmış və müxtəlif illərdə 3 dəfə, ilk dəfə 2013-cü ildə Fransanın "Bureau Veritas" şirkəti tərəfindən, ikinci dəfə 2017-ci ildə İsveçrənin "SGS" şirkəti tərəfindən, üçüncü dəfə 2020-ci ildə yenə də İsveçrənin "SGS" şirkəti tərəfindən keçirilmiş sertifikatlaşdırma auditinin nəticəsində Dövlət Statistika Komitəsi "Rəsmi statistika məlumatlarının istehsalı və yayılması" sahəsində əvvəlcə ISO 9001:2008, sonra isə ISO 9001:2015 beynəlxalq uyğunluq sertifikatına layiq görülmüşdür. 2017 və 2020-ci illərdə Komitənin mərkəzi aparatı ilə yanaşı, müvafiq olaraq 2017-ci ildə 13 və 2020-ci ildə 17 yerli statistika orqanı da beynəlxalq uyğunluq sertifikatına layiq görülmüşdür [4].




Şəkil 1. ISO 9001:2015 beynəlxalq standartının prinsipləri

Dövlət Statistika Komitəsində ISO 9001 beynəlxalq standartının tətbiqi ilə paralel statistika qurumları üçün rəsmi statistikanın istehsalına dair tələb olunan proseslərin müəyyən edilməsi və izahı üçün çevik vasitə kimi qəbul olunan “Statistik Biznes-Prosesin Ümumi Modeli”nin (GSBPM) də tətbiqi həyata keçirilir. GSBPM 2009-cu ilin aprel ayında BMT-nin Avropa İqtisadi Komissiyası, Avropa İttifaqının Statistika Bürosu və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən birgə hazırlanmış beynəlxalq modeldir. Beynəlxalq təşkilatlar tərəfindən GSBPM müxtəlif illərdə bir neçə dəfə aktuallaşdırılmış, sonuncu aktuallaşdırma isə 2019-cu ildə Rəsmi Statistikanın Modernləşdirilməsi üzrə Yüksək Səviyyəli Qrupun modelləri, yəni Statistik İnformasiyanın Ümumi Modeli (GSIM) və Statistika Təşkilatları üçün Fəaliyyətin Ümumi Modeli (GAMSO) ilə uyğunluğunun təkmilləşdirilməsi məqsədi ilə həyata keçirilmiş və GSBPM-in 5.1 versiyası hazırlanmışdır.

GSBPM-in rəsmi statistika sistemində tətbiqinin əsas məqsədi razılaşdırılmış standart terminologiya ilə statistik metaməlumatlar sisteminin və proseslərin inkişafı ilə bağlı bazanın təmin edilməsidir. Təcrübə göstərir ki, statistika qurumları tərəfindən bu modeldən istifadə imkan verir ki, statistik məhsulun xüsusiyyətindən asılı olaraq, fəaliyyət insan resursları ilə əlaqələndirilsin və sistem müəyyən olunmuş texnoloji marşrut, iş axını əsasında həyata keçirilsin. Burada hər-hansı rəsmi statistika məhsulunun istehsalı üçün nəzərdə tutulmuş fəaliyyətlər, həmçinin statistik göstəriciyə, məhsula dair olan tələbatların müəyyənləşdirilməsi, layihələndirmə, istehsal sisteminin yaradılması, məlumatların toplanması, işlənməsi, təhlili, yayılması və qiymətləndirmə prosesi həyata keçirilsin. Bütün bu fəaliyyətlərin nizamlı şəkildə aparılması nəticə etibarilə məlumatların və prosesin keyfiyyətinin artırılmasına xidmət edir ki, GSBPM-də proseslər xətti, ardıcıl deyil, qeyri-xətti formada, iterasiyalarla baş verir [5].

Bir çox ölkələrin statistika qurumları tərəfindən geniş istifadə olunduğu nəzərə alınaraq, 2012-ci ildə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən bu standart modelin əsasında “Statistik Biznes-Prosesin Ümumi Modeli”nin milli versiyası hazırlanmışdır. GSBPM-in beynəlxalq versiyasına, həmçinin daxili tələbata uyğun olaraq GSBPM-in Azərbaycan versiyası bir neçə dəfə təkmilləşdirilmişdir. Milli versiyada sonuncu təkmilləşdirmə isə “Milli statistika sisteminin Avropa standartlarına uyğunlaşdırılmasında Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə dəstək” layihəsi çərçivəsində “Statistik keyfiyyətin idarə olunması” komponenti üzrə Azərbaycan, Bolqarıstan, Almaniya və Sloveniya statistika sisteminin mütəxəssisləri ilə aparılmış əməkdaşlığın nəticəsi olaraq 2017-ci ildə həyata keçirilmişdir. GSBPM-in Azərbaycan versiyası 8 mərhələ, 44 altproses və 108 subaltprosesdən ibarət olmaqla hazırlanmışdır [6].

GSBPM-in milli versiyanın beynəlxalq versiyadan əsas fərqi hər bir altprosesin subaltproseslərinin olmasıdır ki, bu subaltproseslərin də daha yaxşı anlaşılması üçün hər bir bənd üzrə izahlar hazırlanmışdır. Buna misal üçün qeyd etmək olar ki, GSBPM-in 6-cı “Məlumatların təhlili” mərhələsinin 5 altprosesi üzrə beynəlxalq versiyadan fərqli olaraq izahları ilə birlikdə 13 subaltproses *(1) 6.1.1 İlkin nəticələrin əldə edilməsi; 2) 6.1.2 İlkin nəticələrdə mövsümi düzəlişlərin aparılması; 3) 6.2.1 Uyğunsuzluq və ya xətaların müəyyən edilməsi; 4) 6.2.2 İlkin çıxış nəticələri ilə əvvəlki dövrlərin nəticələri arasında uyğunluğun yoxlanılması; 5) 6.2.3 Domenlərarası uyğunluq üçün ilkin çıxış nəticələrinin təhlili; 6)6.2.4 Nəticələrin redaktə edilməsi; 7)6.3.1 Çıxış məlumatlarına baxış və qiymətləndirilmənin aparılması; 8) 6.3.2 Müxtəlif vasitələrdən istifadə etməklə ilkin çıxış nəticələrin təhlili və izahı; 9) 6.4.1 Məxfilik nəzarəti tətbiq ediləcək çıxış nəticələrinin müəyyənləşdirilməsi; 10)6.4.2 Məxfilik nəzarətinin tətbiq edilməsi və çıxış nəticələrinin aktuallaşdırılması; 11)6.5.1 Təhlil edilmiş çıxış nəticələrinin yayım üçün yekunlaşdırılması; 12) 6.5.2 Təhlil edilmiş çıxış nəticələrinin yayım üçün təsdiqi; 13) 6.5.3 Təhlil edilmiş çıxış nəticələrinin arxivləşdirilməsi)* əlavə edilmişdir.




Şəkil 2. Statistik Biznes-Prosesin Ümumi Modeli (GSBPM)




Şəkil 3. GSBPM-in Azərbaycan versiyasının “Məlumatların təhlili” mərhələsi

***GSBPM və ISO 9001 beynəlxalq standartının birlikdə tətbiqi:*** İstifadəçilərin keyfiyyətli statistik məlumatlarla təmin edilməsi, rəsmi statistikanın təkmilləşdirilməsi sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olunması istiqamətində keyfiyyətli statistik məhsulun əldə edilməsi, statistik proseslərin sistemli idarə olunması üçün GSBPM-in tətbiqi, keyfiyyətli statistik məhsulun əldə edilməsi üçün müəyyən olunmuş tələblərə riayət edilməsi məqsədilə ISO 9001 beynəlxalq standartın tətbiqi praktikada özünü doğrultmuşdur. Belə ki, hər iki beynəlxalq modelin tətbiqi sayəsində Dövlət Statistika Komitəsində aşağıdakılara nail olunmuşdur ki:

- GSBPM-in tətbiqi ilə rəsmi statistikanın istehsalına dair tələb olunan proseslərin müəyyən edilməsi və izahı üçün çevik bir vasitənin yaradılmasına, mövcud statistik proseslərin idarə olunmasının standartlaşdırılmasına və proseslərin xəritələşdirilməsinə;
- ISO 9001 beynəlxalq standartının tətbiqi ilə mövcud qaydalara, təlimatlara riayət edilməsinə, nəticələrin təkmilləşdirilməsində PDCA (“Plan – Do – Check – Act”) tsiklinin tətbiqinə, həmçinin risk əsaslı düşünmə ilə potensial uyğunsuzluqların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsinə;
- GSBPM-in qiymətləndirmə mərhələsinin tamamlanması üçün daxili auditlərin keçirilməsi ilə monitorinq və təkmilləşdirmə tədbirlərinin görülməsinə və GSBPM-in mərhələləri üzrə statistika sistemində görülən işlərə nə dərəcədə riayət olunub-olunmamasına.

GSBPM-in bir çox mərhələləri aşağıdakı cədvəldə qeyd olunduğu kimi ISO 9001 standartının tələbləri ilə bir-birini tamamlayırlar.

**Cədvəl 1**

**GSBPM və ISO 9001 beynəlxalq standartlarında oxşar fəaliyyətlər**

| | GSBPM-in mərhələləri | | ISO 9001:2015 beynəlxalq standartının maddələri |
|---|---|---|---|
| 1 | Tələbatların müəyyənləşdirilməsi | 4.2 | Maraqlı tərəflərin tələbatları və gözləntilərinin müəyyənləşdirilməsi |
| 2 | Layihələndirmə | 8.3 | Məhsul və xidmətlərin layihələndirilməsi və hazırlanması |
| 3 | İstehsal sisteminin yaradılması | 6.<br>6.1<br>6.2<br><br>6.3 | Planlaşdırma<br>Risklərin və imkanların idarə edilməsi<br>Keyfiyyət sahəsində məqsədlər və onlara nail olmaq üçün planlaşdırma<br>Dəyişikliklərin planlaşdırılması |
| 4<br>5<br>6 | Məlumatların toplanması<br>Məlumatların işlənməsi<br>Məlumatların təhlili | 7.<br>7.1<br>7.1.6<br>7.2<br>7.3<br>7.4<br>7.5 | Təchizat<br>Resurslar (insan resursları, maddi resurslar)<br>Təşkilati biliklər<br>Səriştə<br>Məlumatlılıq<br>Kommunikasiya<br>Sənədləşdirilmiş informasiya |
| 7 | Məlumatların yayılması | 8.2.1 | Müştərilərin məlumatlandırılması |
| 8 | Qiymətləndirmə | 9.1.3<br>9.2 | Təhlil və qiymətləndirmə<br>Daxili audit |

## Nəticə

Dövlət Statistika Komitəsinin tətbiq etdiyi GSBPM prosesləri, ISO proseslərinin necə idarə olunmasını standartlaşdırır, GSBPM-də proseslər qeyri-xətti formada, ISO-da PDCA (“Plan – Do – Check – Act”) tsikli əsasında həyata keçirilir, GSBPM məlumatların keyfiyyətinin artırılmasına, ISO məlumatların keyfiyyətin qiymətləndirilməsinə xidmət edir, GSBPM istehsal prosesi haqqında ümumi təsvir yaradır, ISO ümumi istehsal prosesini qiymətləndirir, GSBPM istehsal prosesində riskləri nəzərə alır, ISO riskləri və imkanları qiymətləndirir, GSBPM və ISO hər iki model proseslərin keyfiyyətli idarə olunmasını standartlaşdırmaqla keyfiyyətli statistik məlumatların əldə olunmasında mühüm əhəmiyyət daşıyır.

Rəsmi statistikada keyfiyyətin idarə edilməsinin səmərəli alətləri kimi Dövlət Statistika Komitəsində GSBPM və ISO 9001:2015 beynəlxalq standartlarının tətbiqi ilə keyfiyyətin idarə edilməsi sahəsində uğurlar əldə edilmiş, “Rəsmi statistika məlumatlarının istehsalı və yayılması” sahəsində həm mərkəzi aparat, həm də KİS-in tətbiq edildiyi yerli statistika orqanları beynəlxalq uyğunluq sertifikatına layiq görülmüş, GSBPM əsasında Komitə aparatının şöbələri və KİS-in tətbiq edildiyi yerli statistika orqanlarının proses xəritələri hazırlanmış, KİS-in işlək formada olması üçün dövri olaraq daxili auditlər təşkil olunmuşdur.

Dövlət Statistika Komitəsində keyfiyyətin idarə edilməsi sisteminin daim təkmilləşdirilməsi, bütün yerli statistika orqanlarında keyfiyyəti idarəetmə sisteminin tətbiqi və onların sertifikatlaşdırılması, GSBPM-in 5.1 versiyası əsasında GSBPM-in milli versiyanın aktuallaşdırılması, ISO 9001:2015 beynəlxalq standartının tələbləri əsasında statistik istehsal prosesinin nəzəri-metodoloji əsaslarının təkmilləşdirilməsi qarşıda duran əsas məsələlərdəndir.

**Yusif Yusifov, Vüqar Məmmədəlizadə**
Əmək resurslarının beynəlxalq mobilliyinin təbiəti, istiqaməti və miqyası dünyada baş verən iqtisadi və sosial dəyişikliklərdən birbaşa asılıdır. Belə ki, qlobal iqtisadi böhranın və ya ölkələrdə mövcud olan işsizliyin artımı əmək miqrasiya axınlarına və ayrı-ayrı şəxslərin başqa ölkələrdə iş axtarmağına səbəb olur. İqtisadi inkişaf səviyyəsi yüksək olan zaman dövlətlər çox vaxt işçi çatışmazlığını aradan qaldırmaq üçün xarici işçilərin ölkəyə axınına imkan yaradır. Ancaq onu da qeyd etmək lazımdır ki, əmək miqrasiyası axınları tsiklik tendensiyalardan daha çox demoqrafik və iqtisadi balanssızlıqdan irəli gəlir. Bu axınların həcmi, intensivliyi və ona qarşı mövcud olan siyasi reaksiyalar konkret ölkələrdə və regionlarda fərqli ola bilir. Bu proses nəticəsində bəzi ölkələr əmək resurslarını idxal edən, digərləri isə ixrac edən statusu qazanırlar. Eyni zamanda hazırda əmək miqrantı qəbul edən və əmək miqrantı göndərən ölkələrə və regionlara aydın şəkildə bölünmə bəzi hallarda mümkün deyil. Bəzi ölkələrdə eyni vaxtda hər iki proses müşahidə oluna bilər ki, bu da

regionlararası və dövlətlərarası əmək miqrasiyası və ya əmək resurslarının mübadiləsini əks etdirir. Ümumiyyətlə, bu proses üzrə dəyişikliklər, istiqamətlər ölkənin və regionun perspektivlərinə uyğun olaraq daha dərin və fərqli şəkildə sistemli təhlil tələb edir.

Dövlət daxildə və xaricdə yaranan işsizlik problemlərin həlli yollarının (əmək resursları üçün sərhədlərin açılması və ya əlavə məhdudlaşdırıcı tədbirlərin tətbiqi baxımından) axtarılmasına öz iqtisadi və siyasi vəziyyətindən çıxış edərək yanaşır. Beləliklə, əmək resurslarının beynəlxalq mobilliyinin tənzimlənməsini də dövlət və ya bazar tərəfindən həyata keçirilməsi mexanizminə görə dövlətlər əhəmiyyətli fərqlər əks etdirir.

Beləliklə, əmək resurslarının beynəlxalq mobilliyini aşağıdakı şəkildə təsnifləşdirmək olar.

**Cədvəl 1**

**Əmək resurslarının beynəlxalq mobilliyinin təsnifatı**

| Formaları | Təsnifatı |
|---|---|
| İstiqamətlər üzrə: | • inkişaf etməkdə olan ölkələrdən inkişaf etmiş, sənayeləşmiş ölkələrə miqrasiya;<br>• sənayeləşmiş ölkələr daxilində miqrasiya;<br>• inkişaf etməkdə olan ölkələr arasında əmək miqrasiyası;<br>• yüksək ixtisaslı mütəxəssislərin sənayeləşmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə köçürülməsi. |
| Ərazi əhatəsinə görə: | • qitələrarası;<br>• qitələr daxili |
| İxtisas səviyyəsinə görə: | • yüksək ixtisaslı mütəxəssislər;<br>• ixtisassız əmək resursları. |
| Zamana görə: | • geri dönməz (bir qayda olaraq, qitələrarası);<br>• müvəqqəti (bir qayda olaraq, qitələr daxili);<br>• mövsümi (pul qazanmaq üçün);<br>• sarkaç (ölkənin hüdudlarından kənarda iş yerinə gündəlik gedib gəlmək). |
| Qanunilik dərəcəsinə görə: | • qanuni miqrasiya;<br>• qeyri-qanuni miqrasiya. |
| Növləri: | • emiqrasiya (mühacirət) - əmək resurslarının xaricə getməsi.<br>• immiqrasiya - xaricdən iş qüvvəsinin gəlməsi.<br>• reemiqrasiya (yenidən mühacirət) - əvvəllər köçmüş əmək resurslarının vətəninə qayıtması. |
| Ehtimala görə | • əmək mobilliyi real və potensial ola bilər.<br>• real əmək mobilliyi miqrasiya davranışında, karyera yerdəyişməsində ifadə olunur. müxtəlif statistikaya əsasən izlənilə və qiymətləndirilə bilər.<br>• potensial əmək mobilliyi miqrasiyaya və peşə dəyişikliyinə olan fürsətdə, meyildə və bacarıqda ifadə olunur. Bu ümumiyyətlə müəyyənləşdirilməsi və proqnozlaşdırılması çox çətin olan bir miqdardır. |

Qeyd: Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

**Əmək resurslarının beynəlxalq mobilliyini yaradan səbəblər və ona təsir edən amillər**

Əmək resurslarının beynəlxalq miqrasiyası daimi yaşayış yerinin dəyişdirilməsi ilə əmək resurslarının dövlətlərarası hərəkətidir. Ölkənin sosial-iqtisadi vəziyyətinə həm emiqrasiya (ölkə əhalisinin xaricə getməsi), immiqrasiya (digər ölkələrin əhalisinin ölkənin ərazisinə daxil olması), həm də reemiqrasiya - əvvəllər köçmüş əmək resurslarının vətəninə qayıtması təsir edir. "Beynəlxalq miqyasda iş qüvvəsinin hərəkəti kimi qəbul edilən immiqrasiya prosesi əmək bazarının institusional quruluşunun bir elementidir. Eyni zamanda xarici vətəndaşlar tərəfindən həyata keçirilən və qəbul edən dövlətin iqtisadiyyatının ayrılmaz bir hissəsi olan əmək bazarının, istehsalın klassik amillərindən biridir, yəni vacib bir hissəsidir. Bundan əlavə, miqrasiya əmək bazarının qloballaşmasında bir amildir. Bu baxımdan, immiqrasiya sahəsində baş verən proseslər yalnız əmək bazarının institusional quruluşunun fərdi əlaqəli komponentlərinə deyil, bütövlükdə institusional mühitə də təsir göstərir" [7].

Bəzi xarici tədqiqatçılar əmək miqrasiyasının siyasi vəziyyətdə problemlərə səbəb olmasının sübutu kimi qəbul edən ölkədə miqrasiya və immiqrantlara münasibətin birbaşa yaşayış səviyyəsindən və əhalinin gəlirindən asılı olmasını qeyd edirlər. Beləliklə, M.Morrison, L.Tey və E.Diener tərəfindən edilən araşdırmada deyilir ki, "kasıb ölkələrdə və kollektiv mədəniyyətlərdə, fərdi yanaşma ilə müqayisədə, həyatdan məmnunluq proqnozlaşdırıcısı kimi ölkədəki vəziyyətin qiymətləndirilməsi, sağlamlıq, iş və yaşayış şəraiti məmnuniyyətdən daha önəmli göstərici olur" [16].

Eyni zamanda immiqrantlar və miqrasiya prosesi iqtisadi və mədəni təhlükəsizliyə təhdid kimi qəbul edilir [14]. J.F.Hollifield isə əksinə olaraq qeyd edir ki, "bir çox qərb ölkələri üçün immiqrasiya, cəmiyyətin hər bir üzvünə mülki, siyasi və sosial hüquqlarının tətbiqini, nisbətən azad bazarların yaradılmasını və saxlanılmasını nəzərdə tutan siyasi və iqtisadi liberalizmin bir növ göstəricisinə çevrildi" [13].

Bununla bərabər, dörd ölkədə - Rusiya, Almaniya, Böyük Britaniya və İsraildə aparılan araşdırmalar subyektiv rifah səviyyəsi (insanın özünü necə qəbul etməsi) ilə immiqrasiyasının mənfi qəbul edilməsi arasında əlaqənin olduğunu göstərir [9].

Sənayeləşmiş ölkələrdə daha yüksək yaşayış səviyyəsi və daha yüksək əməkhaqqı bu ölkələrdə işləmək istəyənlərin sayını daim artırır. Miqrasiya axını, bir qayda olaraq, inkişaf etməkdə olan və ya inkişafdan geri qalan ölkələrdən sənayeləşmiş ölkələrə yönəlir. S.S.Mehbaliyev, R.K.İsgəndərov haqlı olaraq qeyd edirlər ki, "nə qədər ki, müxtəlif dövlətlərdə həyat səviyyəsi, əməkçilərin gəlirləri və imkanları arasında ciddi fərqlər qalır, yoxsul ölkələrdən varlı ölkələrə miqrasiya davam edəcəkdir" [1]. Sənayeləşmiş ölkələrdə bir sıra sosial-iqtisadi problemləri həll olduğundan burada kifayət qədər yüksək həyat səviyyəsi mövcuddur. İnkişaf etmiş ölkələr arasındakı beynəlxalq əmək miqrasiyası ilk növbədə qeyri-iqtisadi səbəblərdən həyata keçirilir. Bu ölkələrdə insanlar üçün işin və ya şirkətin prestiji, peşə, karyera inkişafı, mədəni ehtiyaclar əhəmiyyətli bir rol oynayır. Buna görə istehsalda və infrastrukturda aşağı gəlirə razılaşan bir işçi tapmaq çətin olur və yerli əhali daha nüfuzlu, yüksək maaşlı işlərə və ixtisaslara yönəlir. Eyni zamanda işsizliyin yüksək olduğu və maaşların az olduğu inkişaf etməkdə olan və ya inkişafdan geri qalan ölkələrdən gələn iş qüvvəsi daha az gəlirli və cəlbedici olmayan belə iş yerlərini almaq və bununla da öz vətənlərində ailəsinin maddi rifahı problemini həll etmək imkanı əldə edir. G.I.Qluşenkonun fikrinə görə "struktur dəyişikliyi keçirən ölkələrdə, ailələri üçün gəlir axtarmaq naminə çox sayda köçmək istəyən mobil əhali ola bilər. Onlar gəlir səviyyəsini yüksəltməyə çalışan və yoxsulluğa, milli iqtisadi vəziyyətə "ayaqları ilə etiraz edən" və siyasəti tənqid edərək vətənlərinə pul göndərmək (pul köçürmələri şəklində) məqsədi ilə xaricə mühacirət edir, bu da onların dövlətlərinin hökumətlərinə maliyyə yatırımları etmədən yoxsulluqla mübarizə aparmağa imkan verir [5].

Lakin əmək miqrasiyasındakı digər bir istiqamət, çox vaxt iqtisadi amillərlə yanaşı, yeni iş imkanları və nəhayət, yeni iş şəraitində öz imkanlarını sınamaq istəyi ilə ortaya çıxan ixtisaslı mütəxəssis və alimlərin digər ölkələrə getməsidir. İnkişaf etmiş ölkələr üçün ən böyük problem, məsələn, "beyin axını" problemi mövcuddur. Bu miqrant axını nisbətən azdır.

**Əmək resurslarının beynəlxalq mobilliyinin milli sosial-iqtisadi inkişafa müsbət və mənfi təsiri**

Beynəlxalq əmək miqrasiyasının sosial-iqtisadi aspektlərinə üç nöqteyi-nəzərdən baxıla bilər: miqrant, gedən ölkə və gəliş ölkəsi. Məlumdur ki, miqrantların iqtisadi marağı gəldikləri ölkədə həyat səviyyələrini artırmaqdır. Beləliklə, immiqrasiya və onun təsiri altında yaranan iqtisadi təsirlər işçi qüvvəsini qəbul edən dövlətin iqtisadi uğurları və ya uğursuzluqlarına mütənasib şəkildə dəyişir. Müxtəlif amillərdən asılı olaraq ölkələr həm immiqrasiya, həm də emiqrasiyada maraqlı ola bilərlər. Bir qayda olaraq, inkişaf etməkdə olan ölkələrdə demoqrafik vəziyyətin çox çətin olduğu və yaşayış səviyyələrinin nisbətən aşağı olduğu bir miqrasiya marağı var. Hər üç tərəfin maraqları üst-üstə düşə bilər və ya bir-birinə zidd ola bilər.

Təcrübə göstərir ki, əmək miqrasiyası həm işçi qüvvəsini ixrac edən ölkələr üçün, həm də onu qəbul edən ölkələr üçün faydalı ola bilər. Müəyyən bir ölkə üçün əmək ixracatı ölkəyə vacib bir valyuta mənbəyidir. Mütəmadi olaraq ailələrə köçürmə şəklində və ya xaricdən işçi qayıtdıqda

gələn gəlir yerli iqtisadiyyata müsbət təsir edir. Belə ki, ölkəyə göndərilən köçürmələr ailələrə istehlakı və məcmu tələbi artırmağa, istehsalın inkişafını stimullaşdırmağa, bütövlükdə ölkənin bir sıra daxili sosial-iqtisadi problemlərinin daha uğurla həll edilməsinə imkan verir. Əmək miqrasiyası nəticəsində əldə olunan pulun bir hissəsinin torpaqların, daşınmaz əmlakın, qiymətli kağızların və s. alınmasına yönəldilməsi birbaşa milli iqtisadiyyatın inkişafına təkan verir. Digər tərəfdən xaricə işçi qüvvəsinin getməsi daxili əmək bazarındakı vəziyyətin yaxşılaşdırılması, ölkədə işsizliyin azaldılması deməkdir. Xaricdə işləyənlərin vətənə qayıdarkən əldə etdikləri yeni peşə bacarıqları, təcrübə və biliklərinin ölkə daxilində tətbiqi isə əməyin məhsuldarlığını artırır. Lakin müsbət təsirlə yanaşı, mənfi nəticələr də mövcuddur. Öz növbəsində qeyri-qanuni miqrantların sayında artım iqtisadiyyatın kölgə sektorunun inkişafı da daxil olmaqla bir sıra risklərin və təhdidlərin kəskinləşməsinə öz töhfəsini verir [3].

**Cədvəl 2**

**Əmək miqrasiyasının qəbul edən və donor ölkələrə təsiri**

| Ölkənin vəziyyəti | Müsbət təsir | Mənfi təsir |
|---|---|---|
| Qəbul edən ölkə üçün | – xarici işçilərin yüksək mobilliyi səbəbindən iqtisadiyyatda struktur, sektoral və digər dəyişikliklər asanlaşır;<br>– əhalinin işləyən və cavan yaşda hissəsi ən mobil, hərəkətli olduğundan immiqrantlar millətin cavanlaşmasına səbəb olur, doğumun artması və əhalinin artması baş verir;<br>– sahibkarlıq fəaliyyəti genişlənir;<br>– innovasiya və yaradıcılıq artır;<br>– ixtisaslı mütəxəssislərin cəlb edilməsi, miqrasiyası nəticəsində təlim xərclərinə görə əhəmiyyətli qənaət əldə edilir;<br>– immiqrantlar daxili bazarın istehlak baxımından həcmini genişləndirir və onların hesablarında olan pullar iqtisadiyyatda istifadə olunur;<br>– xarici işçi qüvvəsinə (mütəxəssislər istisna olmaqla) yerli işçilərdən daha aşağı əməkhaqqı ödənilir, buna görə yerli şirkətlər xərclərini azaldır. İstehsal xərclərinin azaldılması isə dünya bazarında milli malların rəqabət qabiliyyətinin artırılmasına kömək edir. | – iş qüvvəsinin, əmək təklifinin artması və iş yeri məhdudiyyəti olduqda əmək bazarındakı vəziyyətin pisləşməsi;<br>– əmək bazarında əmək təklifi artdıqca yerli işçilərin əməyinin qiymətində azalma ola bilir;<br>– yerli əhali ilə immiqrantlar arasındakı qarşıdurmalar yaranır;<br>– kriminallıq arta bilir;<br>– immiqrantların əldə edilən gəliri gizlətmək istəyi olur;<br>– bəzi hallarda işləyən immiqrantların ixtisarı və nəticədə, onların dövlətin sosial dəstəyindən istifadə edərək büdcənin sosail xərclərinin artmasına səbəb ola bilir. |
| Donor ölkə üçün | – milli əmək bazarındakı vəziyyəti asanlaşdırır;<br>– xaricdən ölkəyə təhsilli və daha təcrübəli işçilər qayıdır, mütəxəssislərin təcrübəsinin genişləndirilməsi, peşə bacarıqlarının mübadiləsi, əmək ehtiyatlarının özünüməşğulluq meyli, işçinin özünə peşəkar inamı və s. yüksəlir;<br>– xaricdən xarici valyuta şəklində köçürmələri ölkə üçün vacib qazanc mənbəyidir və milli valyutanın | – ölkə əmək ehtiyatlarının bir hissəsini ən əməkqabiliyyətli yaşda itirir, bunun nəticəsində doğumun və əmək ehtiyatları azalması, əmək resurslarının əvəzlənməməsi və qocalması baş verir;<br>– “beyin axını” baş verir, bunun nəticəsində ümumi və peşə təhsili xərcləri iqtisadi fəaliyyətlə geri qaytarılmır və özünü doğrultmur;<br>– işçi mobilliyi səbəbindən işçi çatışmamazlığı və iş vaxtının |

| | | |
|---|---|---|
| | məzənnəsinə müsbət təsir edir;<br>– vətənə qayıtdıqdan sonra miqrantlar maddi sərvət və əmanətlər gətirirlər.<br>– ölkəyə qayıtdıqda işgüzar fəaliyyətin təşkili üçün xaricdən gətirilən və ya göndərilən avadanlıqlar yerli məhsulun keyfiyyətinə, rəqabətqabliyyətliliyinə müsbət təsir edir;<br>– miqrantlar sahibkarlıq fəaliyyətinin yeni növlərini xaricdən ölkəyə gətirir. | itirilməsi, təklif olunan iş növbəsi zamanı əmək məhsuldarlığının azalması, tələb olunan ixtisasın olmaması və s. |

Qeyd: Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

Ümumiyyətlə, işçi qüvvəsini qəbul edən dövlətdə iqtisadi artım və inkişaf immiqrasiya axınının çoxalmasına, tənəzzül və böhranlar isə xarici vətəndaşların geri öz vətənlərinə və ya üçüncü ölkələrə axınına, ya da daha aşağı əməkhaqqına çalışmalarına səbəb olur.

## Nəticə

Beləliklə, əmək resurslarının beynəlxalq mobilliyinə tərif verərək qeyd edə bilərik ki, əmək resurslarının beynəlxalq mobilliyi - iş tapmaq üçün daimi yaşayış yerinin dəyişdirilməsi və ya əvvəlki yaşayış yerinə qayıtması nəticəsində insanların müəyyən ərazilərin (ölkələrin) hüdudlarından kənara çıxmasıdır.

Son illərdə iqtisadi səbəblər: iş axtarışı, gəlirin artırılması imkanı, yaşayış səviyyəsinin yaxşılaşdırılması və s. getdikcə daha vacib rol oynamağa başlamışdır. Bəzi ölkələrdə (xüsusilə inkişaf etməmiş) mövcud olan xroniki işsizlik əmək miqrasiyasının artmasında mühüm amilə çevrilmişdir. Digər səbəb isə ixrac olunan kapitalın (xarici investisiyaların) artması və iri şirkətlərin xaricdə geniş bir şəbəkəsinin yaradılması nəticədə, xarici investorlarla yanaşı, onların investisiyasına nəzarət edən və işlədə bilən iş qüvvəsi də bu ölkələrə miqrasiyasına səbəb olur.

Beləliklə, əmək miqrantlarını qəbul edən və donor ölkələr üçün təsiri fərqlidir. Hər iki halda müsbət və mənfi təsirlər mövcuddur.

**Elnurə Hüseynova**

## Əmək resurslarının beynəlxalq mobilliyinin sosial-iqtisadi inkişafa təsiri

**Xülasə**

Azərbaycanın beynəlxalq əmək bazarının iştirakçısı olması, ölkə üzrə əmək resurslarının mobilliyinə təsirsiz ötüşmür. Məqalənin məqsədi əmək resurslarının beynəlxalq mobilliyi, beynəlxalq əmək miqrasiyasının sosial-iqtisadi nəticələrini və ölkənin sosial-iqtisadi inkişafına təsirini müəyyən etməkdir. Məqalədə qarşıya qoyulan vəzifə əmək resurslarının beynəlxalq mobilliyinə dair müxtəlif elmi-praktiki yanaşmaları təhlil edərək əmək resurslarının beynəlxalq mobilliyinin iqtisadi kateqoriya kimi mahiyyətini açıqlamaqdır. Digər vəzifə əmək resurslarının beynəlxalq mobilliyini yaradan səbəblər və ona təsir edən amilləri müəyyən etməkdir. Məqalədə müəllif tərəfindən əmək resurslarının beynəlxalq mobilliyinin milli sosial-iqtisadi inkişafa müsbət və mənfi təsiri şərh edilmişdir. Məqalədə müəllif alimlərin bu sahədə fikirlərini müqayisə etmiş təhlil edərək ümumiləşdirmə aparmışdır. Həmçinin əmək resurslarının beynəlxalq mobilliyini təsnifləşdirərək qruplaşdırma metodundan istifadə olunur. Tədqiqat nəticəsində əmək resurslarının beynəlxalq mobilliyinə tərif verilir, əsas amillər, səbəb və təsirlər qeyd edilir.

**Эльнура Гусейнова**

**Влияние международной мобильности трудовых ресурсов на социально-экономическое развитие**

Участие Азербайджана на международном рынке труда также влияет на мобильность трудовых ресурсов в стране. Целью статьи является определение международной мобильности трудовых ресурсов, социально-экономических последствий международной трудовой миграции и ее влияния на социально-экономическое развитие страны. Задача статьи - проанализировать различные научные и практические подходы к международной мобильности трудовых ресурсов и объяснить сущность мобильности как экономической категории. Другая задача - выявить причины и факторы, влияющие на международную мобильность трудовых ресурсов. Автор комментирует положительное и отрицательное влияние международной мобильности рабочей силы на социально-экономическое развитие страны. В статье автор сравнивает и анализирует взгляды ученых в этой области. Метод группировки также используется для классификации международной мобильности трудовых ресурсов. В результате исследования определена международная мобильность трудовых ресурсов, отмечены основные факторы, причины и следствия.

**Elnura Huseynova**

**The impact of international labor mobility on socio-economic development**

**Summary**

Azerbaijan's participation in the international labour market affects the mobility of labour resources in the country. The main purpose of the study is to determine the international mobility of labor resources, the socio-economic consequences of international labor migration and its impact on the socio-economic development of the country. The task set forth in the article is to analyze various scientific and practical approaches to the international mobility of labor resources and explain the essence of the international mobility of labor resources as an economic category. Another task is to identify the causes and factors that affect the international mobility of labor resources. The author comments on the positive and negative impact of international mobility of labour resources on national socio-economic development. In the article, the author compared and analyzed the opinions of scientists in this field and summarized them. Also, the method of grouping is used by classifying the international mobility of labor resources.

As a result of the study, the international mobility of labour resources is commended, major factors, causes and effects are noted.

**Ədəbiyyat**

1. S.S.Mehbaliyev, R.K.İsgəndərov. Əmək bazarı və əhalinin sosial mübadiləsi. Bakı-2002
2. Ş.H.Hacıyev, Ə.İ.Bayramov. Dünya iqtisadiyyatı. Bakı-2011
3. Г.А.Агарков, А.С.Найдёнов, А.Е.Чусова. Динамика теневого сектора экономики под воздействием глобализации и научно-технического прогресса // Журнал экономической теории. 2010. №4. стр. 7-17.
4. Г.А.Азизова. Рынок труда Азербайджана. «Элм». Баку-2005, стр.12-13
5. Г.И.Глущенко. Миграция и развитие. Мировые тенденции // Вопросы статистики. 2008. № 2. стр. 65–79, стр. 65–66
6. В.А.Гневашева. Миграционные процессы рынка труда // Экономика и управление народным хозяйством. Серия: Экономика и Право. 2017. № 5. стр. 10-14.
7. Е.Д.Кинасова, В.В.Гребеник. Актуальные вопросы оценки угроз безопасности рынка труда под влиянием иммиграции // Интернет-журнал «НАУКОВЕДЕНИЕ» Том 9, №2, 2017. http://naukovedenie.ru/PDF/86EVN217.pdf
8. Российский рынок труда: путь от кризиса к восстановлению /Пер. с англ. М: Издательство «Весь Мир», 2003. стр. 34.
9. Т.А.Рябиченко, Н.М.Лебедева. Отношение к иммиграции и субъективное благополучие принимающего населения // Общественные науки и современность. 2014. № 2. стр. 34–43, стр. 39

10. Статистический справочник «Миграция и денежные переводы: цифры и факты — 2011». Изд. Всемирного банка, 2011. стр. 275
11. Л.С.Чижова, Г.П.Сергеева, С.Н.Волчков и др. Стратегия занятости. Отв. ред. Л.С.Чижова, М. Экономика, 1990, 208 с., стр.29
12. Hirst P., Thompson G. Globalization in question. – 1 st ed. [S.l.]: Polity Press, 1996. p.227
13. J.F.Hollifield. Immigrants, Markets and States. The Political Economy of Postwar Europe. London, 1992, p. 6
14. Long Jason, Joseph Ferrie (2002) Labour Mobility. Oxford Encyclopedia of Economic History. http://faculty.wcas.northwestern.edu/~fe2r/papers/Labour%20Mobility.pdf
15. Majority Populations' Attitudes Towards Migrants and Minorities. European Monitoring Centre on Racism and Xenophobia. Vienna, 2005
16. Morrison M., Tay L., Diener E. Subjective Well-being and National Satisfaction: Findings from a Worldwide Survey // Psychological Science. 2011.Vol. 22. P. 460–462

Məqalə redaksiyaya daxil olmuşdur: 03.10.2020
Təkrar işlənməyə göndərilmişdir: 06.10.2021
Çap üçün qəbul olunmuşdur: \. \.

UOT: 336.01/02
DOI:

# AZƏRBAYCAN RESPUBLİKASINDA VALYUTA KURSLARININ TƏNZİMLƏNMƏSİ PROBLEMLƏRİ VƏ BU İSTİQAMƏTDƏ GÖRÜLƏN TƏDBİRLƏR

***Rəşad Hacıyev***
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*İqtisadiyyat və idarəetmə fakültəsinin magistri*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: hajiyev.rashad.777@gmail.com*

**Açar sözlər**: valyuta məzənnəsi, valyuta kursları, tənzimləmə problemləri, valyuta nəzarəti, görülən tədbirlər.
**Ключевые слова:** обменный курс, обменные курсы, проблемы регулирования, валютный контроль, принятые меры.
**Keywords:** exchange rate, exchange rates, regulatory problems, currency control, measures taken

**Giriş.** Məlumdur ki, valyuta məzənnələri tələb və təkliflə müəyyən edilir, lakin hökumətlər valyuta məzənnələrinə müxtəlif yollarla təsir edə bilər. Dövlətin valyuta bazarlarında iştirakının dərəcəsi və xarakteri alternativ məzənnə sistemlərini müəyyənləşdirir.

Məzənnə sisteminin üç geniş kateqoriyası vardır ki, bir sistemdə valyuta məzənnələri yalnız dövlətin iştirakı olmadan özəl bazar qüvvələri tərəfindən müəyyən edilir. Valyutaların tələbi və təklifi dəyişdikcə dəyərlər də daim dəyişir. Başqa bir sistemdə xarici valyuta qiymətləri dəyişə bilər, ancaq hökumətlər bu qiymətlərə təsir göstərmək üçün valyuta bazarlarında iştirak edirlər. Nəhayət, hökumətlər valyuta qiymətlərini ya bazarda iştirak etməklə, ya da tənzimləmə siyasətləri ilə düzəltməyə çalışa bilərlər [12].

Sərbəst üzən məzənnə sistemində hökumətlər və mərkəzi banklar valyuta bazarında iştirak etmir. Bir tərəfdən hökumətlər və mərkəzi banklar, digər tərəfdən isə valyuta bazarları arasındakı münasibət, demək olar ki, bu qurumlarla fond bazarları arasındakı tipik münasibətlə eynidir. Hökumətlər saxtakarlığın qarşısını almaq üçün səhm bazarlarını tənzimləyə bilər, lakin səhmlərin özləri bazarda sərbəst qalır. Məsələn, ABŞ hökuməti səhm qiymətlərinə təsir göstərmək üçün fond bazarına müdaxilə etmir.

Beynəlxalq Valyuta Fondunun Müqavilə Maddələrinin XIV maddəsi bir ölkənin valyuta nəzarətini tətbiq edə biləcəyi “keçid mexanizmləri”ni nəzərdə tutur. BVF (Beynəlxalq Valyuta Fondu) bu müqavilələri ölkənin beynəlxalq ödənişləri asanlaşdıracaq və nəticədə sabit bir məzənnə sisteminə kömək edəcək ticarət və maliyyə mexanizmləri yaratmağa çalışması şərti ilə qəbul edir. Bununla birlikdə, BVF valyuta nəzarətinin beynəlxalq ticarətə mənfi təsir göstərə biləcəyini göstərən araşdırmalar da aparmışdır [4].

Çox vaxt mübadilə nəzarəti valyuta mübadiləsi üçün qara bazarların yaranmasına səbəb ola bilər və bu xarici valyutanın məzənnəsinin hökumətin təyin etdiyi məzənnədən xeyli yüksək olduğu və dolayısı ilə kölgə valyuta bazarı yaratdığı bir vəziyyətlə nəticələnir.

Valyuta nəzarəti, tədiyə balansını yenidən tarazlaşdırmaq və pul siyasəti qərarlarında bazar qüvvələrini nəzərə almamaq üçün valyuta alqı-satqısı üzrə hökumətin inhisarını nəzərdə tutur. Tariflər və kvotalar əlverişsiz ticarət balansını və tədiyə balansını düzəltməyə kömək etmədikdə valyuta nəzarəti hökumətlər tərəfindən bərpa olunur.

Valyuta nəzarətinin məqsədləri bunlardır:

*1. Ödəniş balansının tənzimlənməsi* - valyuta nəzarətinin əsas məqsədi olmaqla, zərurət yarandıqda idxalata icazə verərək ödəniş balansını tarazlaşdırmaq və ölkənin maraqlarına uyğun olaraq valyuta tələblərini məhdudlaşdırmaqdır. Bəzən bir ölkə daha çox xarici valyuta əldə etmək üçün daha çox ixrac edə bilməsi məqsədilə öz valyutasını ucuzlaşdırır.

*2. Daxili sənayenin qorunması* - hökumət daxili ticarət və sənaye sahələrini xarici rəqabətdən qorumaq üçün mübadilə nəzarətindən istifadə edərək yerli müəssisələri mal idxalını məhdudlaşdırmaq üçün daha çox məhsul istehsal etməyə və ixrac etməyə təşviq edir.

*3. Həddindən artıq qiymətləndirilmiş məzənnənin qorunub saxlanılması* - hökumət məzənnənin müəyyən bir səviyyədə olmadığına inandıqda məzənnəni bu səviyyədə saxlamaq üçün bazara daxil olur, məzənnəni sabitləşdirmək üçün valyuta balanslaşdırma fondu adlandırıla bilən bir fond saxlayır. Müəyyən bir valyutanın məzənnəsi artdıqda hökumət həmin valyutanı açıq bazarda satmağa başlayır və bu səbəbdən bu valyutanın məzənnəsi düşür.

*4. Valyutanın qiymətləndirilməsi* - bəzi ölkələr valyutalarını az qiymətləndirmək üçün valyuta nəzarətindən istifadə edirlər. Bu, məqbul ixracı təmin etmək və idxalı azaltmaq, eyni zamanda ölkədə ümumi qiymət səviyyəsini artırmaq üçün edilir. Belə bir siyasət yalnız dünya ticarətində iştirakı əhəmiyyətsiz olan kiçik bir ölkə vəziyyətində müvəffəq ola bilər və böyük bir ölkə bu siyasətləri qəbul edərsə, bu digər ölkələrin qlobal iqtisadiyyatı üçün son dərəcə təhlükəli ola biləcək cavab tədbirlərinin görülməsinə səbəb olacaqdır.

*5. Fərqləndirmə siyasəti* - hökumət mübadilə nəzarətini həyata keçirmək yolu ilə fərqləndirmə siyasətini qəbul edə bilər. Əgər hökumət tələb olunan valyutanı sərbəst buraxaraq bəzi ölkələrlə beynəlxalq ticarətə icazə verə bilərsə, o halda hökumət bəzi digər ölkələrdə ticarətin idxal və ixracını xarici valyuta çıxarmayaraq məhdudlaşdıra bilər.

*6. Müəyyən iqtisadi fəaliyyət növlərinin təşviqi* - bəzi sahələr istehsal etdikləri malların idxalını azaltmaqla və bunu ödəmək üçün xarici valyutanın mövcudluğunu məhdudlaşdırmaqla inkişaf edə bilərlər. Məsələn, bir ölkədəki turist trafiki, turistlərin ev valyutasına əlverişli qiymətlərlə çatmağı ilə təşviq edilir.

*7. İqtisadi planlaşdırma* – burada valyuta nəzarəti istənilən planlı iqtisadiyyatda iqtisadi siyasətin vacib hissəsi hesab olunur. Planlaşdırma, ölkənin valyuta ehtiyatlarından çox ehtiyatla istifadəni nəzərdə tutur və yalnız planları həyata keçirmək üçün zəruri olan mallar idxal olunur [13].

Hökumətlər, istədikləri məqsədlərə çatmaq üçün müvafiq valyutanın idarə olunmasını təmin etmək üçün müxtəlif metodlardan istifadə edirlər. Birjanın birbaşa nəzarəti ilə valyutanı hər tərəfdən: birbaşa və ya dolayı yolla təsir edən müəyyən tədbirlər görülür - həcmi, istifadəsi və paylanması.

Birbaşa mübadilə nəzarətinə - 1) müdaxilə; 2) mübadilə məhdudiyyətləri; 3) təmizlik müqavilələri; 4) ödəniş müqavilələri; 5) qızıl siyasət daxildir.

*Müdaxilə* - dövlətin xarici valyutalar baxımından bir ölkənin valyutasını həddindən artıq qiymətləndirmək və ya azaltmaq üçün dövriyyə bazarının sərbəst fəaliyyətinə müdaxiləsidir. Dövlətin valyuta bazarına müdaxiləsi, bir ölkənin valyutasının seçilmiş bir məzənnəyə doğru yuxarı və ya aşağı ox şəklində olur. Qiymətləndirmə və ya həddən artıq qiymətləndirmə tarazlıq dərəcəsi olmadığına görə bağlanmalıdır. Bağlama sabit valyuta dəyərinin qorunması deməkdir; lakin müdaxilə hökumət tərəfindən həyata keçirilə bilər [14].

*Mübadilə məhdudiyyətləri* - hökumətin xarici valyuta bazarında daxili valyuta axınını məhdudlaşdıran və ya güclə azaldan siyasət və ya tədbirlərə aiddir. Mübadilə məhdudiyyətləri üç növ ola bilər:

1. Hökumət bütün valyuta ticarətini özü və ya Mərkəzi Bankla mərkəzləşdirə bilər;
2. Hökumət öz icazəsi olmadan yerli valyutanın xarici valyuta ilə mübadiləsinin qarşısını ala bilər;
3. Hökumət bütün valyuta əməliyyatlarını agentliyi vasitəsi ilə sifariş edə bilər.

Mübadilə məhdudiyyətləri müxtəlif formalarda ola bilər, bunlardan ən çox (1) bloklanmış hesablar, (2) çoxsaylı məzənnələr yayılmışdır.

Bloklanmış hesablara xarici valyutaya köçürməkdən imtina edən bir ölkənin bank depozitləri, qiymətli kağızlar və digər əmlak daxildir, lakin bloklanmış hesablar kreditor ölkənin valyutasına çevrilə bilməz. Blok edilmiş hesab sxeminə görə, başqa bir ölkəyə ödəniş etmək məcburiyyətində qalan hər kəs birbaşa xarici kreditorlara deyil, bu məbləği xarici kreditor adından tutacaq olan ölkənin Mərkəzi Bankına ödəməlidir. Bu məbləğ əcnəbilərə öz valyutalarında təqdim olunmayacaq, lakin onlar tərəfindən nəzarət ölkəsində satın almaq üçün istifadə edilə bilər [14].

Bu cür hesab sisteminin (a) beynəlxalq ticarəti minimuma endirmək və (b) xarici valyutanın qara bazarına səbəb olma kimi çatışmazlıqları da var.

Bir əmtəə üçün yüksək bir məzənnə təyin etməklə hökumət idxalını məhdudlaşdıra, aşağı məzənnə təyin etməklə stimullaşdıra bilər. Üstəlik, malların ixracı yüksək bir məzənnə qurularaq stimullaşdırıla bilər. Beləliklə, çoxsaylı məzənnə mexanizmi, hökumət tərəfindən kəmiyyət məhdudiyyətlərinə və lisenziyalaşdırmaya əl atmadan tədiyə balansında qısamüddətli düzəlişlər etmək üçün effektiv şəkildə istifadə edilə bilər.

Sistemin başqa bir üstünlüyü ondan ibarətdir ki, hökumət ixracatçılardan ucuz qiymətə valyuta alıb daha sonra idxalçılara daha yüksək qiymətə sataraq gəlir əldə etməyə imkan verir.

Bununla yanaşı, sistemin beynəlxalq ticarətin böyüməsinə və dünya istehsalının və rifahının maksimuma çatdırılmasına mənfi təsir göstərmək, xarici ticarətə təsir etmək üçün hökumətin əlinə çox böyük özbaşına güc vermək kimi kimi çatışmazlıqları da vardır.

Beləliklə, çoxsaylı valyuta məzənnələri sistemi altındakı valyuta nəzarətinin devalvasiyanın yalnız qismən həll yolu olduğu və ölkə iqtisadiyyatına qeyri-müəyyənliklər və öz təhriflərini gətirdiyi qənaətinə gələ bilərik [14].

*Təmizlik müqavilələri* - Avropa ölkələri bu mübadilə nəzarət formasını keçən əsrin otuzuncu illərində qəbul etmişlər. Razılaşmaya əsasən iki ticarət ölkəsi, xarici kreditorlara görə, müvafiq mərkəzi banklara məbləğləri ödəyirlər. Mərkəzi banklar valyuta dəyərləri qarşılıqlı razılaşma ilə müəyyən edildikdən sonra pulları müvafiq tələbləri ödəmək üçün istifadə edirlər. Eynilə, idxalçılar da ödəmələrini etməlidirlər ki, mərkəzi bank bu pulları yerli ixracatçılara ödəmək üçün istifadə edə bilsin. Bu, birja ticarət ehtiyaclarını təmin etdiyinə görə birja klirinqi, faktiki olaraq valyuta ehtiyatı olmayan və almaqdan daha çox satmaqda maraqlı olan bir ölkə üçün faydalıdır. Eyni zamanda bu sistem mahiyyət etibarilə ödəmələr üçün bir kompensasiyadır və əsas fərziyyə budur ki, belə bir müqavilə bağlayan ölkələr, idxal və ixracatı bərabərləşdirməyə çalışsınlar ki, başqa bir ölkədən ödəniş edilməsinə və ödənilməsinə ehtiyac qalmasın.

Müqavilələrin təmizlənməsinin dezavantajları bunlardır:

1. İqtisadi cəhətdən zəif bir ölkənin daha güclü bir ölkə tərəfindən istismar edilməsi ehtimalı var.
2. Klirinq müqavilələri xarici ticarətdə normal ticarət modelindən kənarlaşan və dünya ticarətinin inkişafını təhdid edən ikitərəfli əməliyyatları nəzərdə tutur.
3. Bu cihaz beynəlxalq ticarət həcmini də azaldır.
4. Sxem bütün ödənişlərin mərkəzləşdirilməsini tələb edir [14].

*Ödəniş müqavilələri* - klirinq müqavilələrində müşahidə olunan gözləmə və ödəmə mərkəzləşdirmə problemlərinin çətinliyini aradan qaldırmaq üçün cihaz ödəmə müqavilələri şəklində qurulur. Sxemə görə, borclu ölkənin mərkəzi bankından kreditorun borcunu yerinə yetirdiyi və əksinə borc verən ölkənin mərkəzi bankından məlumat aldığı anda kreditora ödənilir. Qarşılıqlı kredit xətləri sxemini hazırlayarkən gecikmə ehtimalı aradan qaldırılır. Razılaşmaların üstünlüyü ondadır ki, ixracatçılarla idxalçı arasında birbaşa əlaqə mövcuddur [14]. Ödəmə müqavilələrinin müsbət tərəfi ilə yanaşı, iki mənfi tərəfi də var:

1. Müqavilə hesabları yalnız qonorar üçün debetləşdirilə və ya kreditləşdirilə bilər.
2. Hesab qalıqları yalnız bir tərəfdaşdan digərinə ödənişlər üçün istifadə edilə bilər.

*Qızıl siyasət* - uyğun qızıl siyasəti ilə bir ölkə lazımlı mübadilə nəzarətini təmin edə bilər. Bunu etmək üçün ölkə, qızılın alqı-satqısı üçün ölkə valyutasının məzənnəsinə təsir edən qiymətlərlə manipulyasiyaya əl ata bilər. Məsələn, 1936-cı ildə Böyük Britaniya, Fransa və ABŞ qızıla dair uyğun bir alış-satış qiymətini təyin etmək üçün bu mövzuda üçtərəfli bir müqavilə imzalamışlar [14].

Mübadilə nəzarət sisteminin dizayn edilə biləcəyi müxtəlif formalar mövcuddur. Hər bir formanın öz üstünlükləri və mənfi cəhətləri var və hər biri müəyyən bir məqsədə xidmət edir. Çatışmazlıqların düzəldilməsi valyuta nəzarəti problemi həll etmir, yalnız vəziyyətin pisləşməsinin qarşısını alır. Üstəlik, valyuta nəzarəti hər zaman dünya ticarətinin genişlənməsində əyləcdir. Qəbul edilməsi ilə beynəlxalq ticarətdən qazanclar azalır və ticarət kanalları təhrif olunur. Həm də

dünyanın iqtisadi qaynaqlarının planlaşdırılan inkişafı üçün vacib olan beynəlxalq investisiya axınının qarşısını alır. Buna görə Beynəlxalq Valyuta Fondu valyuta nəzarətinin istisna edilməsini də əsas hədəflərindən biri kimi qeyd edir [4].

**Metod.** Ötən illərdə Avropada Maliyyə Bazarları Birliyi (AFME) "istənməyən nəticələrin" Avropada MiFID II çərçivəsində valyuta bazarının həddən artıq sərt tənzimlənməsinə səbəb ola biləcəyini vurğulayan bir sənəd yayımladı [10].

Azərbaycanda valyuta əməliyyatları Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyev tərəfindən 1994-cü ildə təsdiq edilmiş "Valyuta tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir [1]. Bu Qanun Azərbaycanda valyuta əməliyyatlarının prinsiplərini, valyuta nəzarəti orqanlarının səlahiyyətlərini və funksiyalarını, valyuta dəyərlərinə sahib olan hüquqi və fiziki şəxslərin hüquq və vəzifələrini, habelə bu resursların idarəedilməsi baxımından hüquq və vəzifələrini, valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyənləşdirir.

Valyuta bazarında ən yaxşı tənzimlənmənin hansı formada olacağı və bunun qlobal miqyasda təsirli bir şəkildə idarə oluna biləcəyi qeyri-müəyyən olaraq qalır. Dünyanın orta gündəlik valyuta dövriyyəsinin 5%-dən azını təşkil edən pərakəndə valyuta bazarının tənzimlənməsi aysberqin yalnız bir hissəsidir. Ancaq ən böyük sual, nəhəng institusional valyuta bazarındakı tənzimləmə və bu problemin həlli üçün əlavə addımların atılıb-atılmayacağıdır. Bəzi tənzimləmə forması müəyyən miqdarda valyuta fırıldaqçılığının qarşısını ala bilsə də, pulun dövriyyədə olduğu yerlərdə saxtakarlıq həyat həqiqətidir və "forex" bazarı istisna deyil.

**Araşdırma Modeli.** İndiyə qədər nəzərdən keçirdiyimiz bütün nəzəriyyələr valyuta məzənnələrini başa düşmək üçün araşdırmamıza maraqlı və faydalı bir şey əlavə etsə də, yenə də valyuta qiymətlərinin əməliyyat modelinə uyğun gəlmir. İlkin və bələdçi məlumatlar kimi xidmət edə bilərlər, lakin son deyil. Bu boşluğu açıq iqtisadiyyat Z-D qrafiki, agent gözləntiləri modeli və maliyyə böhranı modeli istifadə edərək doldurur. Birincisi, valyuta bazarı, daxili makroiqtisadiyyat və beynəlxalq balanslar arasındakı əlaqəni göstərir. Keynesin Z-D diaqramından və daxili puldan istifadə edir və bu valyuta bazarını portfel kapitalının hərəkəti idarə edir. Tam məşğulluq və ya balanslı ticarət istiqamətində bir tendensiya barədə heç bir fərziyyə irəli sürmür və ticarət axınlarının idarə edilməsində gəlir təsirlərinin mərkəzliliyini və valyuta məzənnələrini idarə edən maliyyə amillərinin əhəmiyyətini vurğulayır. Gözləmə modeli agentlərin proqnozlaşdırması və qərar verməsi üçün xüsusi bir spesifikasiya təklif edir, lakin misilsiz tarixi hadisələrə və agentlərin dünyagörüşünün təkamülünə imkan verəcək qədər çevikdir.

**Təhlil.** 2015-ci ildən sonra qlobal iqtisadi dalğalanmalar nəticəsində Azərbaycan Respublikasının milli valyutası manat ciddi devalvasiya ilə üzləşdi: valyuta 2014-cü ilin sonuna nisbətən dəyərinin 53.9%-ni itirdi. Nəticədə, bütün sahibkarlar, o cümlədən ölkə vətəndaşları, dövlət müəssisələri və beynəlxalq maliyyə qurumları ciddi maliyyə itkiləri ilə üzləşdi.

Manatın rəsmi məzənnəsi 2016-cı ildəki banklararası əməliyyatlar üçün (auksion və birjadankənar əməliyyatlar daxil olmaqla) orta məzənnə əsasında müəyyən edilmişdir. 2015-ci ilin sonunda ABŞ dolları / manat məzənnəsi 1.5594 AZN olduğu halda, 2016-cı il martın əvvəlində 1.5687 AZN-ə çatdı. 2016-cı ilin sonuna isə manatın ABŞ dollarına nisbətən məzənnəsi 1,7700 səviyyəsinə yaxınlaşdı.

2017-ci ilin yanvar ayında Mərkəzi Bankın üzən məzənnə rejiminə keçdiyini elan etməsinə və prosesin həmin ilin oktyabr ayına qədər tamamlanmasına baxmayaraq, bank sektoru, müəssisələr və sənaye mütəxəssisləri də daxil olmaqla ictimaiyyət hesab edir ki, manat məzənnəsinə hələ də nəzarət edilir.




Şəkil 1. USD / AZN məzənnəsi [3]

2017-ci ilin fevralından bəri manatın rəsmi məzənnəsinin ABŞ dollarına nisbətdə sabitləşməsinə baxmayaraq, cəmiyyətdəki problemlər tamamilə aradan qaldırılmamışdır. Bu narahatlığı doğuran amillər manat məzənnəsinin real bazar tərəfindən təyin olunmasına dair ciddi narahatlıqlar yaradır, halbuki üzənlərin hələ də idarə olunduğu hissi davam edir.

İqtisadiyyatın qeyri-neft sektoru 2019-cu il yanvar-dekabr aylarında 4.0% artaraq daha yüksək böyümə yaşadı. 2019-cu il tədiyə balansı 4.5 milyard ABŞ dollar profisiti ilə başa çatdı. Müsbət ödəniş balansının müsbət saldosu nisbətən əlverişli neft qiymətləri, qeyri-neft ixracatında əvvəlki ilə nisbətən 14.4% artım, kapital və maliyyə hesabında müsbər meyllər əsasında meydana gəldi. Bu dövrdə xarici ticarət balansının profisiti 8.5 milyard ABŞ dolları təşkil etmişdir. Həm müsbət tədiyə balansı, həm də paralel maliyyə konsolidasiyası tədbirləri ölkənin strateji valyuta ehtiyatlarının artmasına səbəb oldu. Nəticədə, 2019-cu ilin dekabr ayında Azərbaycanın strateji valyuta ehtiyatlarının həcmi milyard dollara yüksəldi ki, bu da ilin əvvəlinə nisbətən çoxdur [3].

2017-ci ili Azərbaycan iqtisadiyyatının sabitləşmə ili kimi xarakterizə etmək olar. ÜDM 2018-ci ildə 101,5%, 2019-cu ildə 102,5% artmışdır, 2020-ci ildə isə 72432,2 milyon manata bərabərdir [5].

2020-ci ildə faiz dəhlizinin parametrlərinə dair qərarlar pandemiya şəraitində iqtisadi aktivliyin dəstəklənməsi prioriteti ilə makroiqtisadi sabitliyin qorunması zərurəti arasında optimal balansın saxlanılmasına xidmət etmişdir. 2020-ci ildə faiz dəhlizinin parametrləri 8 dəfə müzakirə edilmiş, uçot dərəcəsi mərhələlərlə 7,5%-dən 6,25%-ə və faiz dəhlizinin yuxarı həddi 9,25%-dən 6,75%-ə endirilmişdir. Faiz dəhlizinin aşağı həddi isə 5,75% səviyyəsində dəyişməz saxlanılmışdır. Ümumilikdə, uçot dərəcəsi 2018-ci ilin əvvəlindən bəri 2,4 dəfə (15%) azalmışdır.

Manatla pul bazası 2020-ci ilin əvvəlindən 11,6% artmışdır. İl ərzində pul təklifinə təsir göstərən başlıca amil dövlət büdcəsinin gəlir və xərclərindən asılı olaraq formalaşan vahid xəzinə hesabının dəyişimi olmuşdur. Mərkəzi Bank tərəfindən pandemiya şəraitində iqtisadiyyata zəruri nöqtəvi likvidlik dəstəyinin göstərilməsi də pul təklifinə təsir etmişdir [3].

Qlobal iqtisadiyyatda 2021-ci il və ortamüddətli dövrdə artımın müəyyən zəifləmə ilə davam edəcəyi gözlənilir. BVF-nin 2020-ci ilin oktyabrında açıqladığı proqnozlara görə, 2021-ci ildə qlobal iqtisadi yüksəliş 3.4% olacaqdır ki, bu da ilin əvvəlindəki proqnozdan 0.2% azdır. 2021-ci ildə də beynəlxalq ticarətə məhdudiyyətlərin və geosiyasi vəziyyətin iqtisadi aktivliyə təsir edəcək əsas faktorlardan biri kimi qalacağı gözlənilir. İnkişaf etmiş ölkələr (İEÖ) üzrə 1.7%, inkişaf

etməkdə olan ölkələr (İEOÖ) üzrə isə 4.6% iqtisadi yüksəliş proqnozlaşdırılır. İEOÖ üzrə iqtisadi yüksəliş proqnozu ilin əvvəli ilə müqayisədə 0.3 faiz bəndi azaldılmışdır [3].

Ödəniş balansı kəsirinin, xüsusən xarici borc və öhdəliklərin məzənnədəki dəyişikliyin təsiri altında kapital və maliyyə hesablarındakı cəmləşməsini nəzərə alaraq, inflyasiyanın artması ilə amortizasiyanın maliyyə sabitliyinə və sosial sabitliyə təsirini minimuma endirmək üçün, AMB manat məzənnəsində artımın qarşısını almaq üçün idarə olunan üzən məzənnə rejimi tətbiq etdi.

## Nəticə

Valyuta məzənnəsi bir ölkənin valyutasının digərinə çevrilə biləcəyi məzənnə olaraq təyin olunur. Valyutalar tələb və təklifin dəyişən bazar qüvvələri ilə gündəlik dəyişə bilər. Beynəlxalq ticarətdə valyuta məzənnələri mərkəzi rol oynayır, çünki müxtəlif ölkələrdə istehsal olunan mal və xidmətlərin qiymətlərini müqayisə etməyə imkan verir.

Üç geniş məzənnə sistemi kateqoriyası var. Birinci sistemdə valyuta məzənnələri yalnız dövlətin iştirakı olmadan özəl bazar qüvvələri tərəfindən müəyyən edilir. İkinci sistemdə valyuta qiymətləri dəyişə bilər, ancaq hökumətlər bu qiymətlərə təsir göstərmək üçün valyuta bazarlarında iştirak edirlər. Nəhayət, hökumətlər valyuta qiymətlərini ya bazarda iştirak etməklə, ya da tənzimləmə siyasətləri ilə düzəltməyə çalışa bilərlər.

Valyuta bazarının mərkəzi əhəmiyyətinə baxmayaraq, əsas iqtisadçılar onun necə işləməsi barədə razılığa gələ bilmirlər. Razılaşdırılmış bir açıqlama yox, geniş bir nəzəriyyə var. Bunlara alıcılıq qabiliyyəti pariteti, pul modeli, Dornbusch modeli, portfel balansı, Mundell-Fleming, valyuta əvəzi, chartistlərə qarşı fundamentalistlər və s. daxildir.

Valyuta məzənnələrinin dəyişməsinə təsir edən əsas amillər aşağıdakı kimi müəyyən edilmişdir:

- Ümumi Daxili Məhsul;
- İnflyasiya;
- Ticarət balansı;
- Xidmətlər balansı;
- Maliyyə hesabı;
- Valyuta ehtiyatlarında dəyişiklik;
- Pul təchizatı M1;
- M1 pul kütləsinin böyüməsi;
- Faiz dərəcəsi (bir gecədə).

Manatın dollarla əlaqəli təxmin edilən real dəyəri iki modelə əsasən hesablanmış və təhlil olunan dövrdə manatın orta hesabla 299% və 237% həddindən artıq qiymətləndirildiyi aşkar edilmişdir.

Xarici valyuta nəzarəti, hökumətin yerli valyutanın digər valyutalar müqabilində alqı-satqısı üçün tətbiq etdiyi müxtəlif növ məhdudiyyətlərdir.

Valyuta nəzarətinin təkmilləşdirilməsi aşağıdakı üsullarla əldə edilə bilər:

- Müdaxilə;
- Mübadilə məhdudiyyətləri;
- Təmizlik müqaviləsi;
- Ödəniş müqavilələri;
- Qızıl siyasət.

**Rəşad Hacıyev**

## Azərbaycan Respublikasında valyuta kurslarının tənzimlənməsi problemləri və bu istiqamətdə görülən tədbirlər

**Xülasə**

Məqalədə makrosabitliyinin təminatında pul siyasətinin rolunun nəzəri aspektləri, eyni zamanda makrosabitliyin əsas konsepsiyaları, pul siyasətinin nəzəri əsasları və məqsədləri, obyektlərinin və mexanizmlərinin makrosabitliyin təminatında rolu, Azərbaycanda yeni iqtisadi

siyasət və makrosabitliyə tələblər, makrosabitliyin monetar təminatının təkmilləşdirilməsi istiqamətləri araşdırılmış, Azərbaycanda pul siyasətinin institusional təminatı, monetar metodların və monetar alətlərin makrosabitliyin təminatında rolu, qloballaşma şəraitində makrosabitliyin monetar təminatının xüsusiyyətləri müəllif tərəfindən ətraflı təhlil edilmişdir.

**Рашад Гаджиев**

**Проблемы регулирования валютных курсов в Азербайджанской Республике и меры, принимаемые в этом направлении**

**Резюме**

В статье исследуются теоретические аспекты роли денежно-кредитной политики в обеспечении макростабильности, а также основные концепции макростабильности, теоретические основы и цели денежно-кредитной политики, роль объектов и механизмов в обеспечении макростабильности, требования новой экономической политика к макростабильностьи в Азербайджане Автор подробно проанализировал роль монетарных методов и инструментов в обеспечении макростабильности, характеристики монетарной стабильности в условиях глобализации.

**Rashad Hajiyev**

**Problems of regulation of exchange rates in the Republic of Azerbaijan and measures taken in this direction**

**Summary**

The article examines the theoretical aspects of the role of monetary policy in ensuring macro stability, as well as the basic concepts of macro stability, the theoretical foundations and objectives of monetary policy, the role of objects and mechanisms in ensuring macro stability, the requirements of new economic policy and macro stability in Azerbaijan. The author has analyzed in detail the role of monetary methods and monetary instruments in ensuring macro stability, the characteristics of monetary stability in the context of globalization.

**Ədəbiyyat**

1. “Valyuta tənzimi” haqqında Azərbaycan Respublikasının Qanunu// https://www.cbar.az/assets/121/valyuta_tenzimi.pdf
2. Azərbaycan Dövlət Neft Fondunun hesabat arxivi// http://www.oilfund.az/az_AZ/hesabatlar-ve-statistika/hesabat-arxivi.asp
3. Azərbaycan Respublikası Mərkəzi Bankının elektro statistik bazası// https://www.cbar.az/lpages/statistics/
4. Международный Валютный Фонд, «Статьи соглашения Международного Валютного Фонда», 2011
5. Asian Development Bank. “Asian development outlook 2017”// https://www.adb.org/countries/azerbaijan/economy#tabs-0-1
6. Bank for International Settlements, “Triennial Central Bank Survey”, 2016
